Xalqın qəzeti!

# Xalq qəzeti

№ 137 (30831) 8 iyul 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan – Pakistan əməkdaşlığı qardaşlığa, qarşılıqlı dəstəyə və həmrəyliyə əsaslanır

### Prezident İlham Əliyev Pakistan Milli Assambleyası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiqin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi əlaqələrin mükəmməl səviyyədə olduğunu vurğuladı, ikitərəfli münasibətlərimizin qardaşlığa, qarşılıqlı dəstək və həmrəyliyə əsaslandığını dedi.

Prezident İlham Əliyev bir neçə gün əvvəl Xankəndidə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündə iştirakını və onunla görüşünü məmnunluqla xatırladı, həmin görüşdə ikitərəfli gündəliyimizlə bağlı bir daha geniş müzakirələrin aparıldığını bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, bu, Pakistanın Baş nazirinin işğaldan azad edilmiş torpaqlarımıza ilk səfəri deyildi. Bu xüsusda, Prezident İlham Əliyev Məhəmməd Şahbaz Şərifin bu ilin mayında Laçına səfərini və Azərbaycanın Müstəqillik Günü ilə bağlı keçirilən tədbirdə iştirakını qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın və Pakistanın siyasət, iqtisadiyyat, sərmayələr sahələrində uğurlu qarşılıqlı fəaliyyətinə toxunaraq əlaqələrimizin genişləndirilməsində parlamentlərarası əməkdaşlığın rolunu qeyd etdi, beynəlxalq parlamentlərarası təsisatlarda ölkələrimizin parlament nümayəndə heyətlərinin bir-birini dəstəkləməsini məmnunluqla vurğuladı.

Azərbaycan Prezidenti qardaş Pakistandan nümayəndə heyətinin ölkəmizə səfərinin səmərəli olacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə təşəkkürünü bildirən Pakistan Milli Assambleyasının sədri ölkəmizə səfərdən və dövlətimizin başçısı ilə görüşdən şərəf hissi keçirdiklərini vurğuladı. Sərdar Ayaz Sadiq rəhbərlik etdiyi nümayəndə heyətinə həm iqtidar, həm də müxalifətdən olan parlament üzvlərinin daxil olduğunu bildirərək vurğuladı ki, bu, Pakistan Milli Assambleyasında Azərbaycana münasibətdə vahid və həmrəy mövqenin göstəricisidir.

Öz növbəsində dövlətlərimiz arasında parlamentlərarası əlaqələrin əhəmiyyətinə toxunan Pakistan Milli Assambleyasının sədri ölkələrimizin həm çətin, həm də xoş günlərdə həmişə həmrəylik nümayiş etdirdiklərini vurğuladı.

Sərdar Ayaz Sadiq İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşünün uğurla keçirilməsi ilə bağlı Prezident İlham Əliyevi təbrik edərək, bu tədbirin məhz Xankəndi şəhərində təşkil olunmasının böyük siyasi əhəmiyyətinə toxundu. Qonaq Qarabağda və Şərqi Zəngəzurda yüksək səviyyədə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərini xüsusi qeyd etdi.

Görüşdə Sərdar Ayaz Sadiqin ölkəmizə səfərinin parlamentlərarası əlaqələrin genişləndirilməsi üçün müzakirələr aparmağa yaxşı imkan yaratdığı bildirildi, Azərbaycanın və Pakistanın qanunverici orqanları arasında əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olundu.

Söhbət zamanı Azərbaycanla Pakistan arasında iqtisadiyyat, ticarət, enerji, sənaye, investisiyalar, nəqliyyat, turizm və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## Xankəndi Kommunikesi – Azərbaycanın regional diplomatiyasında yeni mərhələ



**3–4 iyul 2025-ci il tarixlərində Azərbaycanın Xankəndi şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) 17-ci Zirvə görüşü məkan, zaman və məzmun baxımından çoxqatlı simvolizm daşıyır. Görüş beynəlxalq münasibətlərdə yaranan yeni nizamın, transformasiyaya uğrayan regional güc balanslarının və Azərbaycanın bu sistemdə artan rolunun təzahürü kimi yadda qaldı. Azərbaycanın təşəbbüsü ilə qəbul edilmiş "Davamlı və İqlimə dayanıqlı gələcək naminə İƏT-in yeni baxışı" mövzusu Zirvə görüşünün ideoloji-siyasi əsasını təşkil etməklə yanaşı, təşkilatın fəaliyyət spektrinə strateji baxışın daxil edilməsinə zəmin yaratdı.**

*(ardı 4-cü səhifədə)*

## Yeni tarixi dövrdə Azərbaycanın geoiqtisadi strategiyası: Xankəndi Zirvəsinin arxitekturası

**Qloballaşma proseslərinin sürətləndiyi və dünyada iqtisadi reallıqların yenidən formalaşdığı müasir dövrdə regional əməkdaşlıq platformalarının rolu əhəmiyyətli dərəcədə artmaqdadır. Bu kontekstdə İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) üzv ölkələrin iqtisadi potensialının birləşdirilməsi, qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsi və dayanıqlı inkişafın təmini baxımından prioritet modelə çevrilir. Təşkilatın 17-ci Zirvə görüşünün işğaldan azad edilmiş Xankəndi şəhərində keçirilməsi ECO çərçivəsində ölkəmizin təşəbbüskarlıq mövqeyinin əyani göstəricisidir. Bu mənada azad Xankəndi şəhəri iqtisadi baxımdan ölkənin regional və beynəlxalq təsir gücünü artıran mühüm faktora çevrilir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti və geoiqtisadi yanaşması nəticəsində Azərbaycan regional əməkdaşlıq təşəbbüslərinin mərkəzi fiquruna çevrilmiş və beynəlxalq platformalarda təşəbbüskar dövlət kimi tanınmışdır.**



### Xankəndidə keçirilən ECO-17 Zirvə görüşünün əhəmiyyəti

Xankəndidə keçirilmiş ECO-17 Zirvə görüşü postmünaqişə dövründə Azərbaycanın iqtisadi mövqeyinin möhkəmləndirilməsi və regional iqtisadi inteqrasiyanın yeni mərhələyə qədəm qoyması baxımından mühüm əhəmiyyət daşıyır.

17-ci Zirvə görüşü Azərbaycanın geoiqtisadi gücünü və liderliyini nümayiş etdirən simvolik bir hadisə kimi çıxış edir. Bu səbəbdən Xankəndinin işğaldan azad olunması yalnız ərazi bütövlüyünün bərpası baxımından deyil, həm də regionda iqtisadi əməkdaşlıq və sülh fəlsəfəsinin formalaşması baxımından xüsusi rəmzi məna daşıyır. Bu hadisə yeni bir regional iqtisadi düşüncə tərzinin başlanğıcını qoyaraq, Azərbaycanın təşəbbüskarlığını və strateji baxışını ön plana çıxarır.

İqtisadi nəzəriyyələrə görə, regional əməkdaşlıq və inteqrasiya ölkələr arasında qarşılıqlı asılılığı artırmaqla uzunmüddətli sülh və sabitliyə xidmət edir. Müasir iqtisadi nəzəriyyəçilər (Riçard Baldvin və digər) göstərirlər ki, geoiqtisadi liderlik yalnız siyasi nüfuz deyil, həm də iqtisadi əlaqələrin dərinləşdirilməsi ilə reallaşır. Bu kontekstdə Azərbaycanın ECO-17 Zirvə görüşündə irəli sürdüyü təşəbbüslər ECO-da liderliyinin praktiki ifadəsi hesab oluna bilər.

*(ardı 7-ci səhifədə)*

## Münasibət şaquli deyil, üfüqi olmalıdır

### *Moskva Bakı ilə dialoqa məhz bu prinsipə əməl etməklə başlamalıdır*



**Rusiyada dövlətin vahid ideologiyaya ehtiyac duyduğu barədə ara-sıra çıxışlar eşidirik. Xüsusilə, Ukrayna ilə müharibə başlayandan sonra belə çağırışlar bəzi rəsmilərin dilindən də səslənməkdədir. Bunlardan biri Rusiya İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkindir. O, hakimiyyətin dövlət ideologiyasına ehtiyacı olduğunu bəyan edib. Komitə sədri bu ideologiyanın qurula biləcəyi dəyərlərin siyahısını da açıqlayıb: "Keçmişə sevgi, mərhəmət, Tanrıya inam. Bunların hamısı konstitusiya dəyərləridir".**

*(ardı 3-cü səhifədə)*

## Anadilli mediamız xalqımızın misilsiz mənəvi sərvətidir



səhifə ⇨ 9

## Azərbaycanın külək enerjisi potensialı dünyada 2-cidir



səhifə ⇨ 8

## ABŞ milyarderi siyasətə qoşulur



səhifə ⇨ 11

# "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 221-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 221-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 39.2-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 39.2-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinin qüvvəyə minməsinə dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 221-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3** "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 647 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "38-ci," sözlərindən sonra "39.2-1-ci," sözləri əlavə edilsin;

3.2. 1.2-ci bəndə "33.1-ci," sözlərindən sonra "39.2-1-ci," sözləri əlavə edilsin.

**4** Azərbaycan Respublikasının Energetika Nazirliyi və "AzərEnerji" Açıq Səhmdar Cəmiyyəti "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 221-VIIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 iyul 2025-ci il**

# "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 216-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 216-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1254-cü maddəsinə uyğun olaraq, notarius tərəfindən mirasın siyahıya alınması qaydasının müəyyən edilməsi məqsədilə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsinə dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Notariat haqqında" və "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 216-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 iyul 2025-ci il**

# N.A.Pənahovun Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nazim Adil oğlu Pənahov Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 iyul 2025-ci il**

# "Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar"





**İyulun 7-də ADA Universitetində "Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar" mövzusunda diplomatik xidmət orqanlarının rəhbərlərinin IX müşavirəsinin açılış mərasimi keçirilib.**

Mərasimdə ADA Universitetinin rektoru Hafiz Paşayev, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış ediblər.

Çıxışlar zamanı Azərbaycanın xarici siyasətinin bir sıra istiqamətləri, o cümlədən iqtisadiyyat, təhlükəsizlik, enerji, mədəniyyət, kommunikasiya sahələri üzrə görülmüş işlər və gələcək planlardan bəhs olunub, ölkəmizin yerləşdiyi bölgədə mövcud vəziyyət, habelə beynəlxalq təhlükəsizlik vəziyyəti təhlil edilib.

İkitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin genişləndirilməsi, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərindən bəhs olunan açılış mərasimində xarici siyasətimizin yeni istiqamətləri, ölkəmizin vasitəçilik, iqlim diplomatiyası səyləri və bu istiqamətdə gələcək planlar barədə müzakirələr aparılıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesindən bəhs edilib, sülh prosesini hədələyən mövcud çağırışlar, o cümlədən ölkəmizə qarşı Ermənistan konstitusiyasında əks olunmuş ərazi iddialarının aradan qaldırılmasının vacibliyi diqqətə çatdırılıb.

İyulun 7-9-da davam edəcək müşavirə çərçivəsində ikitərəfli və çoxtərəfli diplomatiya, iqtisadi, iqlim, enerji diplomatiyası, bağlantılar, məhkəmə prosesləri, humanitar və mədəniyyət diplomatiyası, beynəlxalq inkişafa yardım, xarici siyasətin kommunikasiyası, parlament diplomatiyası, beynəlxalq müqavilələr, diaspor fəaliyyəti, habelə diplomatik xidmət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına həsr olunan panel sessiyalarının təşkili nəzərdə tutulur.

9 İyul - Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günündə müşavirə işini Xankəndi şəhərində keçiriləcək xüsusi sessiya ilə davam etdirəcək.

*

Açılış mərasimindən sonra "Dəyişən dünya düzənində xarici siyasət və çoxtərəfli diplomatiya" mövzusuna həsr olunan



ilk panel müzakirəsi Azərbaycanın xarici işlər nazirinin müavinləri Araz Əzimov və Yalçın Rəfiyevin əsas natiqlər qismində iştirakı ilə keçirilib. Paneldə postmünaqişə dövrünün reallıqlarının Azərbaycan xarici siyasətində yaratdığı prioritetlər, normallaşma prosesinin vəziyyəti və mövcud çağırışlar, regional və beynəlxalq təhdidlərin fonunda ölkəmizə təsir edə biləcək təhlükəsizlik məsələləri, çoxtərəfli platformalarda fəaliyyət çərçivəsinə mövcud çağırış və imkanlar təhlil edilib.

*

İkinci panel müzakirəsi "Dayanıqlı inkişaf perspektivləri: iqtisadi və iqlim diplomatiyası, enerji təhlükəsizliyi və bağlantılar" mövzusuna həsr edilib. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, COP29-un Prezidenti Muxtar Babayev əsas natiq qismində iştirak ediblər. Paneldə ticarət və investisiya perspektivləri, bu sahələrdə əməkdaşlığın şaxələndirilməsi, geoiqtisadi gərginliklərin iqtisadi diplomatiyamıza təsirləri, ölkəmizdən keçən nəqliyyat dəhlizləri üzrə mövcud təşəbbüslərin irəlilədilməsi, Azərbaycanın beynəlxalq iqlim diplomatiyasında bundan sonrakı fəal iştirakını şərtləndirən amillər və s. mövzular müzakirə olunub.

*

"Məhkəmə prosesləri üzrə strategiyalar" mövzusunda 3-cü panel müzakirəsində Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov və Baş prokurorun birinci müavini Elçin Məmmədov əsas natiqlər qismində çıxış ediblər. Azərbaycan ərazilərinin işğalı və keçmiş Ermənistan-Azərbaycan münaqişəsi zamanı Ermənistan tərəfindən törədilmiş cinayətlərlə bağlı beynəlxalq məhkəmə prosesləri ilə bağlı müzakirədə Ermənistanın hərbi təcavüzü nəticəsində baş vermiş çoxsaylı hüquq pozuntularına görə məsuliyyət daşıyan şəxslərlə bağlı aparılan məhkəmə işləri barədə məlumat verilib.

*

"Həmrəyliyin təşviqi: humanitar və mədəniyyət diplomatiyası, beynəlxalq inkişafa yardım" mövzusunda 4-cü panel Azərbaycanın mədəniyyət nazirinin müavini Fərid Cəfərov və Azərbaycan Beynəlxalq İnkişaf Agentliyinin rəisi Elməddin Mehdiyevin əsas natiqlər qismində iştirakı ilə keçirilib. Müzakirədə ölkəmizin mədəniyyətinin təşviqi sahəsində birgə fəaliyyət, mədəniyyət diplomatiyasının təşviqi, bu istiqamətdə ikitərəfli və çoxtərəfli əsasda görülən işlər, gələcək planlar, habelə ölkəmizin beynəlxalq inkişafa yardım siyasətinin prioritetləri və istiqamətləri nəzərdən keçirilib.

*

5-ci panel Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi, mətbuat katibi Ayxan Hacızadənin əsas natiqlər qismində iştirakı ilə keçirilib. Paneldə parlamentlərarası əməkdaşlığın perspektivləri, parlament diplomatiyasının xarici siyasətdə rolu, xarici siyasətin kommunikasiyası, hibrid təhdidlər və dezinformasiya ilə mübarizədə strateji kommunikasiya, ictimai diplomatiya və süni intellektin kommunikasiyada tətbiqi və s. məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*

Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifovun əsas natiq qismində iştirakı ilə keçirilən "Xəzər dənizi, sərhədlərin delimitasiyası, beynəlxalq müqavilələr" mövzusunda 6-cı paneldə Xəzər dənizinin hüququ statusunun müəyyən edilməsi istiqamətində cari vəziyyət, Azərbaycan–Ermənistan arasında sərhəd delimitasiyası və demarkasiyası üzrə planlar, habelə ikitərəfli və çoxtərəfli beynəlxalq-hüquqi bazanın inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

***XQ***

# Pakistan heyəti Fəxri xiyabanda



**Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiqin başçılıq etdiyi nümayəndə heyəti iyulun 7-də Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin xatirəsini anıb.**

Nümayəndə heyətinin üzvləri xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

*

Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiqin başçılıq etdiyi nümayəndə heyəti həmin gün Bakıda Zəfər parkını ziyarət edib.

Burada qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistan Milli Assambleyasının sədri Zəfər abidəsinin önünə əklil qoydu.

Sonra qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi.

# Azərbaycan–Pakistan parlamentlərarası müzakirə



**İyulun 7-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiqin rəhbərlik etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Pakistan arasında strateji münasibətlərin dostluq və qardaşlıq prinsipləri əsasında qurulduğu vurğulanıb. Sahibə Qafarova bu səfərin ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin növbəti təzahürü olduğunu bildirib.

Sahibə Qafarova diqqətə çatdırıb ki, hər iki ölkənin parlamentlərində qarşılıqlı dostluq qrupları uğurla fəaliyyət göstərir və bu gün qanunverici orqanlarımız arasında çox yaxşı münasibətlər qurulub. Parlamentlərimiz bir sıra beynəlxalq təşkilatlarda sıx əməkdaşlıq edirlər.

Pakistan Milli Assambleyasının sədri Sərdar Ayaz Sadiq deyib ki, Pakistan və Azərbaycan həmişə bir-birilərini dəstəkləyən qardaş ölkələrdir. Assambleyanın sədri Hindistanla münaqişədə Pakistanla həmrəylik nümayiş etdirdiyinə görə Azərbaycana təşəkkürünü bildirib.

Söhbət zamanı Milli Assambleyanın sədri Pakistanla Azərbaycan arasında parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, qarşılıqlı təcrübə mübadiləsi barədə fikirlərini bölüşüb, Pakistan parlamentinin strukturu, fəaliyyət prinsipləri barədə məlumat verib, mütəmadi həyata keçirilən qarşılıqlı səfərlərin mühüm rolundan danışıb.

# Münasibət şaquli deyil, üfüqi olmalıdır

(əvvəli 1-ci səhifədə)

Maraqlı yanaşmadır. Bastrıkin Rusiyanın milli dokrtinasının düsturunu vaxtilə "avtokratiya – pravoslavlıq – millilik" kimi formalaşdıran I Nikolayın təhsil naziri Uvarovun nümunəsini əsas göstərməklə hansı "keçmişi sevməyin" lazım olduğunu aydın şəkildə ifadə edib. Belə çıxır ki, müasir Rusiya Nikolayın vəzirinin irəli sürdüyü milli ideologiyanı əxz etməlidir. O zaman Uvarovun tamahkarlığının təcəssümü olan bu şovinist ideya barədə dahi rus şairi Aleksandr Puşkin tənqidi şeir yazmışdı. Amma nə olsun, Rusiyada hələ də heç nə dəyişməyib. Bu yaxınlarda Moskvada həmin Uvarovun abidəsinin açılışı oldu. Bu məqamda oxucuların yadına ABŞ Prezidenti Donald Trampın birinci hakimiyyət dönəmində milli təhlükəsizlik məsələləri üzrə müşaviri olmuş Con Boltonun sözlərini salmaq istərdik: "Rusiya quruluşunun ideologiyası "çarizm"dir. Bu, Romanovlar imperiyasının təsəvvür edilən böyüklüyünə siyasiləşmiş nostaljidir".

*

Ona görə keçmişə qısa nəzər saldıq ki, oxucu Kremlin bu gün yürütdüyü siyasəti ilə iki əsr əvvəl çar Rusiyasının milli ideologiyası arasındakı dəyişməzliyi və oxşarlığı görsün. Məlum səbəblərdən, yəni öz günahından Azərbaycanla münasibətlərində yaranmış gərginliyin aradan qaldırılması üçün Kremlin atdığı, yaxud atmağa hazırlaşdığı addımların mahiyyətində məhz həmin "milli ideologiyanın" silueti görünməkdədir.

"Moskva əmindir ki, Rusiya və Azərbaycan tərəfdaş və müttəfiq olaraq qalmalıdır". Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov belə deyib. O, yerli mediaya açıqlamasında daha sonra bildirib: "Və biz inanırıq ki, məntiq yalnız bir şeyi deyir: Rusiya və Azərbaycan ən yaxın tərəfdaşdır və belə də qalmalıdır".

Peskovun sözlərinə görə, Moskva ilə Bakı arasında yaranan problemlər konstruktiv şəkildə həll edilməlidir. Çünki iki ölkəni "ortaq tarix, ortaq bu gün və ümumi gələcək" birləşdirir.

Rusiya Prezidentinin sözçüsü, həmçinin onu da bəyan edib ki, rusiyalı diplomatlar Azərbaycan tərəfi ilə daim təmasdadır və onlar "saxlanılan rusların maraqlarını müdafiə edirlər". Bundan başqa, Rusiya Federasiyası İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin və baş prokuror İqor Krasnov Azərbaycanın baş prokuroru Kamran Əliyevlə daim əlaqə saxlayırlar".

Kremlin iki ölkə arasında münasibətlərin normallaşmasına, diplomatik gərginliyin aradan qaldırılmasına doğru atılan addımları kimi qəbul ediləcək bu açıqlamadan savayı, son günlər digər pozitiv hərəkətlər də müşahidə olunmaqdadır.

"Rusiya və Azərbaycan arasında münasibətlərdəki böhran fonunda bu gün vəziyyətə ayıq baxmağa çağıranların səsləri daha ucadan eşidilir". Bu sözləri "Rusiya-1"



telekanalının efirində Dövlət Dumasının Beynəlxalq məsələlər komitəsinin sədri Leonid Slutski bildirib. Onun sözlərinə görə, Qarabağ münaqişəsi fonunda Rusiyanı Azərbaycanla küsdürməyə çalışırdılar: "Halbuki Azərbaycan bu gün bizi yarıyolda qoymayan strateji tərəfdaşımızdır. Azərbaycan Prezidenti İlham Əliyev ən etibarlı tərəfdaşlarımızdan biridir". Slutski çıxışında bir daha xatırladıb ki, Azərbaycan Rusiyanın postsovet məkanında strateji tərəfdaşıdır.

Kremlin kifayət qədər yüksək çinli rəsmilərinin dilindən səsləndirdiyi barışıq notları hələlik konkret addımlarla müşayiət olunmasa da, ekspertlər gərginliyin tezliklə aradan qalxacağı qənaətindədirlər.

*

"Rusiya ilə Azərbaycan arasında münasibətlərdə yaranmış çətinliklər narahatedicidir. Amma vəziyyət "xalqların maraqları nəzərə alınmaqla sülh yolu ilə" həll olunacaq". Bu fikirlərin müəllifi Dağıstanın rəhbəri Sergey Melikov etiraf edib ki, indi dağıstanlıları təxribata çəkmək və "onları münaqişələrə sürükləmək, sonradan utanacaqları işlərə inandırmaq" cəhdləri edilə bilər.

"Biz bu gün dünyada baş verənləri narahatlıq və ağrı ilə izləyirik. Təəssüf ki, Rusiya ilə Azərbaycan arasında münasibətlərdə müəyyən çətinliklər yaranıb. Amma mən əminəm ki, onların hamısı sülh yolu ilə, xalqların maraqları nəzərə alınmaqla, münasibətlərimizin tarixinə hörmətlə həll olunacaq".

Melikovun sözlərinə görə, belə çətin vaxtlarda vəziyyətdən öz məqsədləri üçün istifadə etməyə – Rusiyanı daxildən zəiflətməyə, nifaq salmağa, qardaş xalqları bir-birinə qarşı qoymağa cəhd edənlər tapılır: "Bu, xüsusilə, onilliklər ərzində ən yaxın qonşuları ilə sülh və harmoniya şəraitində yaşayan çoxmillətli Dağıstana aiddir. Respublikamızda Dağıstanı özlərinə vətən hesab edən azərbaycanlılar az deyil. Əlaqələrimiz, sadəcə, coğrafi deyil, tarix, ailə bağları, mədəniyyət və birlikdə yaşadığımız həyatdır. Vurğulamaq istəyirəm ki, Dağıstanda azərbaycanlılar yerli xalqdır!"

Dağıstan rəhbərinin açıqlaması bir sıra maraqlı assosiasiyalar doğurur. Misal üçün, "biz birlikdə çox sınaqlardan keçmişik və yenə keçəcəyik. Bütün çətinliklər müvəqqətidir, amma qardaşlıq və ləyaqət bizimlə əbədi olaraq qalır" sözləri ilə qafqazlı xarakterini ortaya qoyan Melikovun xoş niyyətli çağırışına bunları əlavə etməyi vacib sayırıq: – Gələcəyimiz problemləri tez bir zamanda dərk edə bilməkdən, şovinizmdən, tarixi illüziyalardan qurtulmaqdan, irili-xırdalı, qərbli-şərqli bütün qonşularla qarşılıqlı hörmətə söykənən münasibətlər qura bilməkdən asılıdır. Bəli, biz artıq XIX əsrin dünyasında deyil, bütün ölkələrlə normal danışıqlar aparmalı olduğumuz müasir dünyada yaşamalı olacağıq.

*

"Kremlin nümayəndə heyəti hazırlanır və o, bu həftə Bakıya qeyri-rəsmi səfər edərək iki ölkə arasındakı münaqişənin həllinə çalışacaq". Bu barədə Rusiya xüsusi xidmət orqanlarına yaxınlığı ilə tanınan VÇK-OQPU Teleqram kanalı özəl mənbəyinə istinadla məlumat yayıb. Məlumatda deyilir ki, Bakıya şəxsən Rusiya Prezidenti Putinin mesajı çatdırılacaq. Hər iki ölkədə həbs olunanların mübadiləsi təklifi verilə bilər. Nümayəndə heyətinə Vladimir Putinin keçmiş şəxsi adyutantı, indiki fövqəladə hallar naziri, Azərbaycan hökumətinin nümayəndələri ilə yaxın şəxsi münasibətləri olan Aleksandr Kurenkovun başçılıq edə biləcəyi qeyd olunur.

"Azərbaycanla münasibətlərdə yaranan fəsadlar hazırda Kremlin planlarına daxil deyil. Bu, indi Moskva üçün sərfəli deyil və bir neçə istiqamətdə münaqişə aparmaq və belə mühüm regionda strateji tərəfdaşını itirmək imkanı yoxdur", – deyə mənbə kanala açıqlamasında bildirib.

Beləliklə, görünən odur ki, Rusiya Prezidenti Vladimir Putin Azərbaycanla münasibətlərdə mövcud gərginliyi aradan qaldırmaq istəyir. Təki ortada reallığın qəbul edilməsinə, xoş niyyət və səmimiyyətə söykənən dialoq üçün siyasi iradə olsun. Və bu dialoqda təmaslar yuxarıdan aşağı – şaquli deyil, düz, üfiqi müstəvidə –bərabərhüquqlu tərəfdaşlar kimi qurulsun.

*İmran BƏDİRXANLI*
*XQ*

## Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Azərbaycan Rusiya ilə münasibətlərin diplomatik qarşıdurma səviyyəsinə çatdlırılmasında heç vaxt maraqlı olmayıb. İndiki durumun belə qalmasında da maraqlı deyil. Sadəcə olaraq, əgər Moskva Bakı ilə strateji tərəfdaşlıq səviyyəsində münasibətlərə malikdirsə, bunun heç də yuxarıdan aşağı baxmaq demək olmadığını anlamalıdır. Azərbaycan özünə qarşı bu cür yanaşmanı heç kəsdən qəbul edə bilməz. Bu gün rəsmi Bakının Kremldən heç bir umacağı yoxdur. Ən az, normal qonşuluq münasibətləri qorunub saxlanılmalıdır. Və istənilən halda insanlıq çərçivəsindən kənara çıxmamalıdır. Ortada cinayət əməli varsa, onun cəzası da olmalıdır. Ola bisin ki, bizim təyyarəmizi qəsdən yox, düşünmədən, texniki səhv ucbatından vurublar. Mütləq araşdırılmalı günahkarlar üzə çıxarılmalı, elan edilməli, cəzalandırılmalı və qarşı tərəfdən üzr istənilməlidir. Bəziləri iddia edirlər ki, Azərbaycan Rusiyanın hərbi helikopterini vurub, sonra sülhməramlıların getdiyi maşını atəşə tutub. Bakı bu faktları etiraf etdi, təzminat ödədi və üzrxahlığını bildirdi. Axı, indi qarşı tərəfdən də bundan artıq bir şey tələb olunmur.

Bəli, Rusiyada yaşayan azərbaycanlıların arasında müxtəlif insanlar var. Yanlış hərəkət edənlər, hətta cinayət törədənlər də ola bilər. Amma bu o demək deyil ki, onları döyüb öldürəsən və sonra da deyəsən ki, öz vətəndaşlarımızdır, necə davranacağımızı özümüz bilərik. Azərbaycan bu cür yanaşmanı qəbul etmir. Bu baxımdan etirazımın əsası var idi. Buna görə iki ölkə arasında müəyyən qarşıdurma yarandı. Fəqət həmin hadisənin geniş rezonansı oldu. Rusiyanın güc strukturları gördülər ki, bizim soydaşlarımızla belə qəddar rəftar etmk olmaz. Cinayət törədibsə həbs edin, qaydaları pozubsa, deportasiya edin. Başağrısının əsas səbəbi məhz budur. Hətta cinayət işlətmiş olsa belə, onu təpiyin altına salmağa kimsənin haqqı yoxdur.

Düşünürük ki, Azərbaycanın haqlı etirazı artıq faydasını verdi. İkitərəfli münasibətlərin normallaşması yönündə Şimaldan pozitiv çağırışlar çoxalmaqdadır. Anladılar ki, Azərbaycanla münasibətlərin korlanması Rusiyaya yalnız ziyan vura bilər. Bakı əyilməyəcək ki, Kreml fayda görsün.

Nümayəndə heyəti gəlsin, dialoq qurulsun. Doğrudur, onlara səmimiyyətlə qucaq açmayacağıq, amma qonşu dövlətlər kimi münasibətləri müəyyən formaya salmalıyıq. Əvvəlki münasibətlər tam şəkildə olmasa da, 60-70 faiz bərpa edilə bilər.

## Ekspert rəyi



**Kəramət QƏNBƏROV,**
**beynəlxalq hüquq eksperti**

Rusiyanın Yekaterinburq şəhərində etnik azərbaycanlılara qarşı baş vermiş insidentlər fonunda Azərbaycan–Rusiya münasibətlərində yaranmış gərginlik mərhələli şəkildə səngiməyə doğru gedir. Bu proses, ilk növbədə, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan prinsipial, ardıcıl və təmkinli siyasətinin nəticəsidir. Rəsmi Bakı bu hadisələrə hüquqi çərçivədə yanaşaraq, baş verən hüquq pozuntularının qətiyyətlə pislənilməsini, təqsirkar şəxslərin cəzalandırılması tələbini gündəmə gətirdi. Azərbaycanın mövqeyi beynəlxalq hüququn əsas prinsiplərinə – insan hüquqlarının qorunması, etnik, dini ayrı-seçkiliyin yolverilməzliyi və dövlətlərarası münasibətlərdə qarşılıqlı hörmətə əsaslanır. Bu yanaşma emosional ritorikadan uzaq, milli maraqlara söykənən rasional dövlət siyasətidir.

Azərbaycan gərginliyin dərinləşməsində maraqlı olmayaraq, diplomatik kanallar vasitəsilə hüquqi mexanizmlərin işə salınmasını üstün tutur. Qonşuluq siyasətində qarşılıqlı etimad, sabitlik və beynəlxalq hüquqa hörmət Azərbaycanın əsas prioritetləri sırasındadır. Azərbaycan heç bir ölkənin daxili işlərinə qarışmaq fikrində deyil, amma dünyanın hər hansı ölkəsində azərbaycanlılara qarşı törədilən zorakılıq hallarına da göz yummayacaq.

Eyni zamanda, indiki vəziyyətdə Türkiyənin regionda oynadığı balanslaşdırıcı rolu xüsusi qeyd etmək lazımdır. Ankara həm Bakı, həm də Moskva ilə strateji tərəfdaşlıq münasibətlərinə malikdir və buna adekvat olaraq neytral və məsuliyyətli mövqe sərgiləyir. Türkiyə tərəfləri təmkinə çağırmış, regional sabitliyi pozacaq ritorikadan uzaq duraraq vasitəçilik təşəbbüsü ilə çıxış etmişdir. Nəticə etibarilə, Azərbaycan–Rusiya münasibətlərində müşahidə olunan yumşalma, Azərbaycanın hüquqi əsaslara söykənən xarici siyasət kursunun və regionda sabitliyin qorunması yönündə göstərdiyi səylərin məntiqi nəticəsidir. Türkiyənin konstruktiv rolu isə bu prosesi dəstəkləyən mühüm faktor kimi çıxış edərək, gələcəkdə qarşılıqlı etimada əsaslanan, dayanıqlı və hüquqa söykənən qonşuluq siyasətinin inkişafına real zəmin yaradacaq.

## Xuntaçıların məhkəməsi

**Bakı Hərbi Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma kimi çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq prosesinin baxış iclası iyulun 7-də davam etdirilib.**



# Zərərçəkmişlər erməni hərbçilərinin cinayətlərinə şahidlik ediblər



Hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında Ermənistan silahlı qüvvələrinin əsir və girov götürdüyü, işğal nəticəsində əmlaklarını itirmiş və digər zərərlər görmüş şəxslər ifadə veriblər.

Zərərçəkmiş Güloğlan Əmirxanov ifadəsində 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndi işğal olunan zaman Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülərək Ağkəndə aparıldığını bildirib. G.Əmirxanov Qaradağlı sakinlərinin bir qisminin "Bəylik bağı" adlanan yerdə kütləvi şəkildə qətlə yetirildiyini söyləyib.

Zərərçəkmiş Elşən Şirinov ifadəsində 1992-ci ilin fevral ayının 17-də Qaradağlı kəndinin digər sakinləri kimi girov götürüldüyünü bildirib. Hadisələr zamanı onun anası da yaralanıb. Kənddən çıxarkən girov götürülmüş kənd sakinlərindən 2 nəfər qətlə yetirilib. "Bəylik bağı" adlanan ərazidə ermənilər burada 20 nəfərdən çox azərbaycanlını da güllələyiblər.

Zərərçəkmiş Əli İsmayılov 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı zamanı doğmalarının qətlə yetirildiyini söyləyib. Elxan Cabbarov isə



bildirib ki, Xocalıya hər tərəfdən hücum edənlər dinc əhalini, o cümlədən uşaqları, qadınları, qocaları odlu silah atəşləri ilə öldürüb, şəhəri yandırıblar. Əmisi qızı Raya Orucova, onun azyaşlı qızı Xəyalə Orucova və əri Telman Orucov da qətlə yetirilib.

Zərərçəkmiş Kamil Bayramov bildirib ki, atası Cəllad Bayramov və daha bir neçə azərbaycanlı 1991-ci il martın 11-də yaşadığı Kosalar kəndinə ərzaq və yardım gətirərkən Ağdam-Əsgəran yolunda erməni təcavüzkarları tərəfindən avtobusda öldürülüb. O, 1992-ci il fevralın 26-na keçən gecə Kosalar kəndindən Xocalı şəhərinin yandırıldığını gördüyünü də bildirib.

Zərərçəkmiş Ramiz Qəhrəmanov ifadəsində bildirib ki, 1991-ci il dekabrın 15-də ermənilər Cəmilli kəndinə hücuma keçib. 120 ailədən ibarət 591 nəfər sakin məcburi köçkün düşüb. Ümumilikdə, 13 nəfər həlak olub, 6 yaşlı Abdullayeva Maya Sərhat qızı da qətlə yetirilib.

Zərərçəkmiş Kərkicahan qəsəbəsinin sakini Dərgah Haqverdiyev bildirib ki, 1991-ci ildən başlayaraq Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayda xidmət edən ermənilərin iştirakı ilə, həmin alayın silahlarından, texnikalarından istifadə etməklə qəsəbə atəşə tutulub. Dekabrın 28-də isə kəndə hücuma keçən ermənilər Kərkicahanı işğal edib. Əhali çox çətinliklə meşə yolu ilə kənddən çıxaraq Şuşa şəhərinə gedib. İşğala kimi Kərkicahan qəsəbəsində əhalinin sayı 1796 nəfər olub.

Siracəddin Mərdəliyev ifadəsində 1992-ci ildə Xocalı soyqırımı zamanı onun valideynlərinin Xocalının digər sakinləri ilə birlikdə girov götürülüb. Şükür Şükürov 1993-cü il avqustun 17-də Cəbrayıl rayonunun Süleymanlı kəndində Ermənistan silahlı qüvvələri tərəfindən öldürülmüş yeznəsi Müzəffər Rüstəmovun meyitini gətirmək istəyərkən girov götürüldüyünü bildirib.

Zərərçəkmiş İman Quliyev ifadəsində 1989-cu il dekabrın 1-də həmkəndliləri ilə yük maşınında ot yığmaqdan qayıdarkən ermənilər tərəfindən döyülərək zorla Qafan rayonuna aparıldıqlarını bildirib. Əbülfət Qasımov ifadəsində deyib ki, 1994-cü il yanvarın 12-də Füzuli rayonu Aşağı Əbdurrəhmanlı kəndi istiqamətində Ermənistan silahlı qüvvələrinə qarşı döyüşərkən yaralanıb. Bu zaman əsir götürülüb.

Zərərçəkmiş Həbib Kazımov 1993-cü il sentyabrın 3-də Əliquluuşağı kəndində gedən döyüşlərdə yaralanıb, nəticədə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülüb. Bayram Rüstəmov ifadəsində 1993-cü il avqustun 30-da Qubadlının Qarağac kəndində həmkəndlisi Əliyev Mehman Vəliş oğlu ilə birlikdə girov götürüldüyünü bildirib.

Zərərçəkmiş Cavidan Qasımov bildirib ki, 2021-ci il yanvarın 29-da saat 18 radələrində Ermənistanın sərhədində Laçın rayonu ərazisində yerləşən postdan əsgər yoldaşı Aydın Gülmalıyevlə birlikdə Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülüb. Əlizamin Qaraşov bildirib ki, 1993-cü il sentyabrın 30-da Ermənistan hərbçiləri onu girov götürüblər. Hüsniyyə İbrahimova isə bildirib ki, 1990-cı il martın 1-də Göyçədən Qazağa gələndə zorla İrəvan şəhərinə aparılıblar. Cümşüd Əliyev deyib ki, 1992-ci ildə Füzuli rayonunda Ermənistan silahlı qüvvələrinə qarşı döyüşərkən yaralanıb, nəticədə əsir götürülüb.

Zərərçəkənlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin də suallarını cavablandırıblar.

Məhkəmə prosesində, həmçinin zərərçəkmiş şəxslərin barələrində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.Məhkəmə prosesi iyulun 10-da davam etdiriləcək.

*XQ*

# Xankəndi Kommunikesi – Azərbaycanın regional diplomatiyasında yeni mərhələ

(əvvəli 1-ci səhifədə)

Zirvə görüşünə qədər keçirilən paralel tədbirlər – iyulun 1-də Ağdamda İƏT Gənclər Forumu, iyulun 2-də Laçında Qadınlar Forumu, eləcə də Şuşada baş tutan 6-cı Biznes Forumu – Azərbaycanın post-münaqişə dövründə iqtisadi, sosial və siyasi institutları sürətlə yenidən qurduğunu nümayiş etdirən simvolik mərhələlər idi. Həmin tədbirlər Azərbaycanın azad edilmiş ərazilərində həyata keçirdiyi strateji dönüşün nəinki daxili siyasət kontekstində, həm də beynəlxalq platformada necə legitimləşdirildiyini ortaya qoyur.

İƏT-in 17-ci Zirvə görüşünün yekunu olaraq qəbul edilən Xankəndi Kommunikesi, faktiki olaraq, Azərbaycanın regional liderlik ambisiyalarının beynəlxalq təşkilatlar səviyyəsində tanındığı və dəstəkləndiyi sənəd kimi tarixə düşdü. Kommunikedə Azərbaycanın işğaldan azad olunmuş



Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirdiyi bərpa və quruculuq işlərinə verilən yüksək qiymətləndirmə, əslində, siyasi etiraf idi. Bütün bunlar Azərbaycanın müharibədən sonra sülh və sabitliyə yönəlmiş inkişaf modelinin İƏT məkanında təqdir edildiyini göstərdi. Region ölkələrinin bu yanaşmanı açıq şəkildə dəstəkləməsi Azərbaycanın ərazi bütövlüyünə beynəlxalq səviyyədə artan hörmətin, eyni zamanda, suverenliyinə verilən real dəstəyin göstəricisidir.

Xankəndi Kommunikesində yer alan ən əhəmiyyətli bəndlərdən biri Ermənistandan qovulmuş azərbaycanlıların doğma yurdlarına ləyaqətli qayıdış hüququnun bir daha təsdiqlənməsi oldu. İfadə hüquqi anlamda bəlkə də çox sadə görünə bilər, lakin bu cümlənin arxasında onilliklər boyu pozulmuş insan haqları, etnik təmizləmənin nəticələri və ədalətin bərpası ilə bağlı dərin siyasi və mənəvi yük dayanır. Azərbaycanın beynəlxalq müstəvidə bu məsələni hüquqi və siyasi kontekstdə gündəmə gətirməsi onun post-münaqişə diplomatiyasının əsas sütunlarından birinə çevrilib. Mövcud yanaşma regional sabitliyin təməlində sülh müqavilələri ilə bərabər ədalətin də dayanmalı olduğunu vurğulayan bir çağırışdır.

Zirvə görüşünün əsas mövzusunun iqlim dəyişiklikləri, davamlı inkişaf və yaşıl enerji kimi qlobal trendlərlə səsləşməsi Azərbaycanın beynəlxalq gündəmdə də qlobal çağırışlarla paralel şəkildə irəlilədiyini göstərdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə gündəmə gətirilmiş "İƏT-in yeni baxışı" konsepsiyası təşkilatın fəaliyyətində yeni mərhələnin başlandığını göstərir. Ənənəvi iqtisadi əməkdaşlıq formatlarından fərqli olaraq, bu yeni yanaşma İƏT-i strateji vizyona malik struktur kimi yenidən formalaşdırır.

Kommunikedə qadın liderlərin ekoloji təşəbbüslərinə xüsusi yer verilməsi prosesin sosial və gender aspektlərinin də nəzərə alındığını göstərir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın həyata keçirdiyi "Sıfır tullantı" təşəbbüsünün xüsusi vurğulanması qadın liderliyin iqlim diplomatiyasına verdiyi töhfənin təqdiridir. Bütün bunlar isə yalnız ekoloji məsuliyyət deyil, həm də normativ güc kontekstində qadınların beynəlxalq siyasətdəki rolunun artmasına dair simvolik jestdir. Göstərilən təşəbbüslər, eyni zamanda, ekofeminizm nəzəriyyəsinin regional refleksiyasını da ortaya qoyur.

Kommunike özündə, eyni zamanda, İƏT çərçivəsində institusional strukturlaşmanın gücləndirilməsi baxımından mühüm göstəriciləri ehtiva edir. İƏT Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlaması və Tədqiqat Mərkəzinin genişləndirilməsi, təşkilatın texnoloji, elmi və strateji analizlərə dayanan platformaya çevrilmək niyyətindən xəbər verir. Məhz bu mərkəzlər regional siyasətlərin koordinasiyası və uzunmüddətli inkişaf strategiyalarının hazırlanması baxımından əhəmiyyətli funksiyalara malik olacaq. Burada nəzərə alınmalı məqam isə regional inteqrasiyanın yalnız ticarət və sərmayə ilə deyil, informasiya, innovasiya və elmi-tədqiqat sahələrində də təşviq olunmasıdır.



Kommunikedə qeyd olunan vahid informasiya məkanı təşəbbüsü müasir geosiyasi reallıqlar fonunda daha da önəmli görünür. İnformasiya təhlükəsizliyi və məlumat suverenliyi çağdaş dövrün əsas siyasi silahlarından birinə çevrilib. İƏT çərçivəsində bu məsələni ön plana çəkilməsi təşkilatın öz daxili kommunikasiya axınlarını qorumaq və həm də vahid siyasi məfkurə formalaşdırmaq cəhdi kimi başa düşülə bilər. Eyni zamanda, İƏT Sərmayə-Ticarət və Sənaye Palatalar Şurasının təşviq edilməsi regional iqtisadi diplomatiyanın gücləndirilməsi istiqamətində konkret addımların atıldığını göstərir ki, bu da "kompleks qarşılıqlı asılılıq" nəzəriyyəsinin təzahürü kimi qiymətləndirilə bilər.

Kommunikenin son dərəcə əhəmiyyətli hissəsi Bakıda keçiriləcək 13-cü Ümumdünya Şəhərsalma Forumuna verilən dəstəklə bağlıdır. Forumun Azərbaycanda keçirilməsi, əslində, Azərbaycanın beynəlxalq imicinin və urban diplomatiyasının mühüm parçasıdır. Bakı artıq qlobal şəhərsalma diskursunda əsas iştirakçılardan birinə çevrilməkdədir. Forum vasitəsilə Azərbaycan "yaşıl" urbanizasiya, dayanıqlı şəhər modelləri və innovativ infrastruktur təşəbbüslərini beynəlxalq müstəviyə çıxarmaq imkanı əldə edəcək. Bu isə şəhər diplomatiyası anlayışının regional tətbiq nümunəsi kimi diqqətəlayiqdir.

İƏT-in Xankəndi Kommunikesi ilə yekunlaşan Zirvə görüşü Azərbaycanın post-münaqişə diplomatiyasının gücünü, strateji təşəbbüskarlığını və yeni dövr üçün ortaya qoyduğu regional gələcək xəritəsini bütün dünyaya nümayiş etdirdi. Sənəd Azərbaycanın ideya sahibi və normativ lider ölkə olaraq İƏT daxilindəki rolunu necə möhkəmləndirdiyini göstərdi. Artıq Azərbaycan beynəlxalq təşkilatlarda gündəmi müəyyən edən, ideoloji çərçivələr yaradan və bu çərçivələri geosiyasi reallıqlarla birləşdirən fəal aktora çevrilməkdədir.

Beləliklə, Xankəndidən yayılan siyasi mesaj regional geosiyasətin gələcəyinə dair konseptual baxış, ədalət çağırışı və inkişaf vizyonunun manifesti oldu.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# Zatulinin Qarabağ "sancısı"

## *Qart ermənipərəst Rusiyanı Azərbaycana qarşı sərt tədbirlərə səsləyir*

**Qarabağ və yenə Qarabağ. Azərbaycan-Rusiya münasibətlərinin hazırkı soyuq məcrasında ortaya Qarabağ münaqişəsi çıxır. Məsələni gündəmə gətirənlər isə Rusiyanın stajlı ermənipərəstləridir. Söhbət, konkret olaraq, ölkənin Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə Komitəsinin sədr müavini Konstantin Zatulindən gedir.**

Görünür, Zatulinə ötən həftə Xankəndidə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının yüksək səviyyəli toplantısı əməllibaşlı yer edib. Hərçənd, bu məxluq həmişə Azərbaycan əleyhinə hədyanlar yağdırmaqla məşğuldur. Yəni, onun anti-Azərbaycan ritorikası ətrafa üfunət yaymağa hazır durumdadır. Buna görə Zatulinin söylədiklərinə bəlkə reaksiya verməmək olardı. Çünki onun "məqsədi" məlumdur. Ancaq Rusiyanın ictimai fikir industriyasının böyük kəsimi də demək olar, bu düşüncədədir. Deməli, münasibətimiz olmalıdır.

Əlqərəz, K.Zatulin "Moskovskiy komsomolets" qəzetinə müsahibəsində bildirib ki, "biz artıq Bakıya əvvəlki kimi lazım deyilik, çünki Qarabağ münaqişəsi həll olunub". Sanki Qarabağ məsələsinin həlli Rusiyanın ölkəmizə böyük lütfü imiş. Halbuki, 44 günlük müharibədən sonrakı üç ildə Kremlin bölgədəki separatizmi qorumaq naminə dəridən-qabıqdan çıxdığını gördük. Dəridən-qabıqdan çıxdı, amma bacarmadı. Səbəb sadədir: həm Azərbaycan dövləti qətiyyət və prinsipiallıq göstərdi, həm də Ermənistan hakimiyyəti qərbpərəst kursunu dəyişib Rusiyaya meyillənmədi.

Bəli, Rusiya ermənipərəstləri Qarabağ məsələsindən hazırkı Bakı-Moskva gərginliyi fonunda ikincinin birinciyə qarşı hiddətini körükləmək məqsədi ilə söz açır, bölgənin Rusiyanın Cənubi Qafqaz maraqları baxımından həllediciliyi tezisini gündəmə gətirirlər. Böyük məqsəd Kremli Azərbaycan əleyhinə daha qatı tədbirlərə şirnikləndirməkdir. Onların üzərində dayandıqları başlıca məqam isə ölkəmizin, guya, Qarabağı əldə etdikdən sonra Moskvadan üz döndərdiyinə dair cəfəngiyyatdır. Zatulinə gəldikdə, o, həmişəki kimi, "prosesin" önündədir: "İndi Yekaterinburqda baş verən hadisələr fonunda münasibətlərimizdə növbəti gərginlik yaşanır. Amma bu, sadəcə, bəhanədir, başqa səbəb də tapıla bilər. Azərbaycanın hazırkı kursunun həm subyektiv, həm də obyektiv səbəbləri var. Obyektiv səbəb odur ki, bu gün Bakı üçün Rusiya ilə xüsusi münasibətlərə ehtiyac yoxdur. Əvəzində Azərbaycan İsrail, Türkiyə və Böyük Britaniya ilə xüsusi münasibətlərdədir".

K.Zatulin hansı nöqtəyə "vurduğunun" fərqindədir. O, fikirlərinin davamında



Azərbaycanın Rusiya ilə ticarət-iqtisadi əlaqələrini qabardır və sözlərindən gəlinən qənaət odur ki, Bakı Moskva ilə ticarətdən faydalanır. Amma bu, Azərbaycanın digər məqsədləri qarşısında ikinci plandadır. "Ona görə də indi Bakı Rusiya ilə niyə razılaşmadığını, niyə Ukraynaya dəstək verdiyini izah etmək üçün bəhanələr axtarır", - deyən Zatulinin Rusiya rəhbərliyinə Azərbaycanla ticarət-iqtisadi əlaqələrdən kənar durmağa çağırış ünvanladığı da aşkardır.

Əlbəttə, Zatulini "sancılandıran" daha böyük məsələ var. Yeri gəlmişkən, haqqında da söz açacağımız bu məsələ Rusiyanın nəinki ermənipərəstlərini, ümumən, ölkənin hakim fikir industriyasını ciddi qayğılandırır və durum əlahiddə Qarabağ seqmentinə malikdir. Beləliklə, Zatulin Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalana biləcəyindən ehtiyatlanır. Yəni, adamın "sancısı" budur. Onun fikirləri sazişin imzalanmasına yol verməmək hayqırtısı kimi səslənir: "Bizdə isə bütün bunlara (sülh sazişi təşəbbüslərinə - red.) göz yumulur. Elə burada sizinlə danışarkən, Paşinyanın Ermənistandan, Əliyevin isə Azərbaycandan təmsil etdiyi ölkələr arasında sülh müqaviləsinin imzalanması üçün son məsləhətləşmələr aparılır və bu, mütləq Qərb platformasında baş verəcək. Ən yaxşısı, ABŞ-da ki, (ABŞ Prezidenti Donald) Tramp yenidən "sülh carçısı" rolunu oynasın və nəhayət Nobel mükafatı alsın".

Sırf Qarabağ seqmentinə gəldikdə, sərsəm fikirlərini sıralayan K.Zatulin Rusiya rəhbərliyinə 2020-ci ilin 44 günlük müharibəsinə görə də tənqid yağdırıb. Məsələyə hazırda yaşananlar fonunda münasibət bildirən məxluqun sözlərindən belə qənaət formalaşır ki, əgər Rusiya 44 günlük müharibəyə imkan verməsəydi, indi ölkə üçün arzuolunmaz sayılan durum yaranmayacaqdı. "Niyə 2020-ci ildə bu müharibənin qarşısını almadıq? Axı biz Azərbaycanı ciddi şəkildə xəbərdar edə bilərdik ki, güc yolu ilə problemin həllinə icazə verməyəcəyik və onda heç nə baş verməzdi", - deyən Zatulin əlavə edib ki, Rusiyada bir çoxlarının Qarabağın heç kəsə lazım olmayan yer olduğu fikrini tirajladıqlarını vurğulayıb. O, belə düşüncələrin yanlışlığını qabardıb. Dövlət Duması təmsilçisinin mövqeyi, loru dildə desək, Qarabağ itkisinə görə günahı Rusiya rəhbərliyinin başına vurmaq təəssüratı yaradır. Bu yerdə bir haşiyə çıxaq.

Məlumdur ki, 44 günlük müharibədən sonra Ermənistan Qarabağ dirənişi göstərdi. Rəsmi İrəvan müxtəlif beynəlxalq platformalarda bölgə ermənilərinə beynəlxalq təminat məsələsini tirajladı və çalışdı ki, Qarabağ ayrıca ərazi vahidi kimi qəbul edilsin. Bu, erməni iqtidarının avtonom planı idi. Yəni, məsələnin böyük ölçüdə Rusiya ilə heç bir əlaqəsi olmamışdı.

10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən Qarabağda sülhməramlı kontingentə malik Rusiya özünü erməni maraqlarının müdafiəçisi statusunda göstərdi. Daha doğrusu, ölkə özünü sülhməramlı ampluasında, baş nazir Nikol Paşinyan administrasiyasına təklif etdi. Amma erməni iqtidarı Qarabağ ritorikası naminə fərqli mətləbə baş vurdu, bölgə ermənilərinə beynəlxalq təminatı prioritet seçdi. Kreml isə 2020-2023-cü illərdə olduqca aciz forma və metodlarla Paşinyan hakimiyyətini Qarabağla əlaqədar başqa "ssenarinin" heç bir fayda verməyəcəyinə inandırmaq istədi.

Əlbəttə, məsələ heç də onda deyil ki, Nikol və komandasının Rusiyaya arxalanmaqdan uzaq durması böyük səhv idi. Şübhəsiz, erməni iqtidarı durumu nəzərə alırdı. Nəzərə alır, Qarabağı rus amili olmadan qazanmaq istəyirdi. Nikolun "tutar qatıq, tutmaz ayran" məntiqinə əsaslanması onun başqa yolunun olmamasından qaynaqlanırdı. O, hər vəchlə çalışırdı ki, Moskvanın Qarabağ xüsusundakı aktivliyini Kremlin öz işi və məqsədi kimi göstərsin. Təxminən belə: Qarabağ sizə lazımdırsa, qoruyun, bizim bölgəni saxlamaq üçün öz oyunumuz var. Oyun alınacaqsa, alınacaq, alınmayacaqsa, heç alınmasın.

Rəsmi İrəvanın Qarabağla bağlı gözləntiləri özünü doğrultmadı. Azərbaycanın 2023-cü ilin sentyabrında gerçəkləşdirdiyi lokal xarakterli uğurlu antiterror tədbirləri 1988-ci ildən start götürmüş "Miatsum" avantürasına son qoydu, böyük ölçüdə 200 illik "erməni kitabı"nı bağladı. Söhbət Rusiyanın "açdığı kitabın" bağlanmasından gedir. Nəticədə Kremlin bölgədəki hərbi mövcudluğu baxımından heç bir səbəb qalmadı və rus sülhməramlıları Azərbaycan ərazilərindən çıxdılar.

Hazırda K.Zatulinin dilə gətirdiyi fikirlər onu deməyə əsas verir ki, Rusiya Qarabağ məsələsinə sırf öz problemi kimi yanaşmalı idi. Halbuki, bunun siyasi formulu yox idi. "Plan" lap əvvəldən erməni amili üzərinə qurulmuşdu. Əlbəttə, Zatulinin boş başı üçün formul anlayışı yoxdur. Ona görə sərsəmləməsini əsaslandırmaq üçün heç bir normal məntiq irəli sürmür. Yalnız bölgənin Cənubi Qafqaz regionu müstəvisindəki əhəmiyyətini qabardır və Kremlin, nəyin bahasına olursa-olsun, Qarabağı tərk etməsinin yolverilməzliyi üzərinə gəlir: "Burada bir çox adam deyirdi: bu (Qarabağ – red.) bizim problem deyil, bu ermənilərin işidir. Beləcə, Cənubi Qafqaz adlanan böyük binadan kiçik kərpic çıxarıldı və hər şey dağıldı. Paşinyan dövründə Ermənistanı itiririk. Amma bunun əvəzində Azərbaycanı qazanmadıq. Hər şey həmin kərpicin çıxarılması ilə başladı".

K.Zatulin Qarabağ avantürası barədə söz açarkən, çox da uzaq olmayan tarixə baş vurmağı da yaddan çıxarmayıb. Daha doğrusu, öz aləmində, müasir dövrə keçmişin pəncərəsindən baxmağa cəhd göstərib. O, Rusiyanın sabiq rəhbərliyini günahlandıraraq, Kremlin vaxtilə Qarabağdakı artıq canını tapşırmış separatçı rejimi, bir növ, leqallaşdırmaq istiqamətində ciddi addımlar atmadığını vurğulayıb. Qeyd edək ki, bu məxluqun mövcud xüsusdakı fikirləri də rəsmi Moskvanın səhvini başa vurmaq təsiri bağışlayır: "Amma bizdə artıq bir ənənə yaranıb. Hamımızın sevdiyi Yevgeni Maksimoviç Primakov o zaman Dağlıq Qarabağ "prezidenti" olan (Robert) Koçaryanla görüşməkdən imtina edirdi. Bəs niyə Koçaryana belə reaksiya verirdi? Çünki onun fikrincə, Azərbaycan və Heydər Əliyevlə dostluq daha önəmli idi. Bax beləcə, "dostluq etdik". Nə oldu?!"

K.Zatulinin Rusiyanın hazırkı hakimiyyətini qıcıqlandırmaq, ölkəmizə qarşı körükləmək üçün dilə gətirdiyi daha bir məqam var. Onun sözlərindən gəlinən qənaət budur ki, Moskva Qarabağ itkisinə imkan yaratdı və hazırda Azərbaycan daha çoxuna iddialıdır. Söhbət Zəngəzur dəhlizindən gedir. Zatulin, faktiki olaraq, Kremlin qlobal layihədən kənar qoyulduğu təəssüratı yaradır. O, həmçinin, sözügedən dəhlizin açılması ilə Sünikin, yəni Zəngəzurun da erməni torpağı olmaqdan çıxacağına dair həyəcan təbili çalmağı unutmur.

Sonda onu deyək ki, K.Zatulin kimi qatı ermənipərəstlərin sərsəmləmələri əslində, Rusiyanın Cənubi Qafqaz regionu müstəvisindəki fiaskosunun ayrı-ayrı məqamlarının dilə gətirilməsidir. O zaman meydana sual çıxır: Moskva nə üçün fiasko aqibəti ilə üzləşdi? Hesab edirik ki, sualın çox sadə cavabı var. Rusiya regiona, hadisə və proseslərə yanaşmada ortaya zatulinlərin dar təfəkkürlü baxış bucaqlarından fərqli nə isə çıxarmaq iqtidarında olmadı. Ümid edək ki, Rusiya dövləti, nəhayət, özündə böyüklük tapmağı bacaracaq, zatulinlərin "ayı xidmətlərindən" kənar durub mütərəqqi yol tutacaq. Azərbaycana münasibətdə də həmçinin.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İrəvan indi də ŞƏT-in qapısını döyür

## Paşinyanın “2 stul diplomatiyası”nın yeni ünvanı

**Bir-biri ilə kəskin ziddiyyətdə olan müxtəlif güc mərkəzləri ilə eyni dərəcədə yaxınlaşmağı qarşıya məqsəd qoyan, bu siyasəti haqlı olaraq eyni vaxtda iki stulda əyləşmək, yaxud “iki stul diplomatiyası” kimi qiymətləndirilən Ermənistandan yeni xəbər var. Rəsmi İrəvan Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv olmaq arzusunu ifadə edib. Bu barədə ölkənin Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan özünün “Facebook” səhifəsində məlumat verib.**



Badalyan bildirib ki, ŞƏT-in əsas prinsiplərini, xüsusilə ərazi bütövlüyü, güc tətbiq etməmək və sərhədlərin toxunulmazlığını bölüşən Ermənistan Respublikası ŞƏT-ə üzv olmaq arzusunu ifadə edib.

Qeyd edək ki, həm ərazisinə, həm də əhalisinə görə dünyanın ən böyük ölkələrindən bir neçəsinin üzv olduğu ŞƏT 2001-ci il iyunun 15-də Çin, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Rusiya liderləri tərəfindən Şanxayda təsis olunan beynəlxalq təşkilatdır. 2017-ci ilin iyunun 9-da təşkilata Hindistan və Pakistan, 2023-cü il iyulun 4-də İran, 2024-cü il iyulun 4-də isə Belarus üzv qəbul edilib. Beləliklə, hazırda ŞƏT-in 10 əsas, 2 müşahidəçi üzvü (Əfqanıstan və Monqolustan) və 14 dialoq tərəfdaşı var. Dialoq tərəfdaşları Azərbaycan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Misir, Kamboca, Qətər, Küveyt, Maldiv, Myanma, Nepal, Səudiyyə Ərəbistanı, Şri-Lanka və Ermənistandır.

Təşkilata üzv ölkələrin ümumi ərazisi 35 milyon kvadratkilometrdən çoxdur. Bu, Avrasiya ərazisinin 65 faizi deməkdir. 2022-ci ilə olan məlumata görə, ŞƏT ölkələrinin ümumi əhalisi təxminən 3,5 milyard nəfər idi. Bu isə dünya əhalisinin yarısıdır. Çin Xalq Respublikası iqtisadiyyatı 2014-cü ildən nominal ümumi daxili məhsula görə dünyada ikinci, alıcılıq qabiliyyəti paritetinə əsaslanan ÜDM-ə görə isə birincidir. Rusiya, Çin, Hindistan və Pakistan “kosmik klub”un üzvləridir.

ŞƏT, yumşaq desək, Qərbyönümlü kursu birmənalı şəkildə alqışlamayan ölkələrdən ibarətdir. Hətta, bu məqam üzv dövlətləri birləşdirən ortaq cəhətlərdən biridir, desək, yəqin ki, səhv etmərik. Bir sıra ölkələr, məsələn Rusiya, Çin və Belarus Qərblə kəskin qarşıdurma şəraitindədirlər. Bu mənada Ermənistanın ŞƏT-ə üzv olmaq arzusunu ifadə etməsi rəsmi İrəvanın xarici siyasət prioritetləri ilə bağlı təəccüb doğuran xəbərlər silsiləsindən növbəti məlumatdır. Ermənistan rəhbərliyi bir tərəfdən Rusiya ilə münasibətləri korlayır, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında üzvlüyü dondurur, digər tərəfdən isə baş nazir Nikol Paşinyan faşizm üzərində Qələbənin 80 illiyi münasibətilə mayın 9-da keçirilən paradda iştirak üçün Moskvaya gedir. Sonra biz yenidən Qərbyönlü ritorika eşidirik: Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas Ermənistana səfər edir, Aİ-yə inteqrasiyaya doğru irəliləmək üçün İrəvana dəvət gəlir və qəfildən Ermənistan Xarici İşlər Nazirliyi ŞƏT-ə üzv olmaq arzusunu bəyan edir.

Bəs bütün bunları necə başa düşmək olar? Paşinyan və komandası nəyi, hansı prinsipləri rəhbər tuturlar? Onlar kimi yanlış yönəltməyə çalışırlar? Rəsmi İrəvanın real xarici siyasət hədəfləri nədən ibarətdir? **Bu istiqamətdə XQ-nin suallarını cavablandıran politoloq İlyas Hüseynov** bildirdi ki, Vətən müharibəsindən və anti-terror əməliyyatından sonra Ermənistanın xarici siyasətində köklü dəyişiklik baş verib. Onun sözlərinə görə, əsas dəyişiklik bundan ibarətdir ki, Ermənistan xarici siyasətdə müxtəlif geopolitik qütblərlə bərabər münasibət saxlamağa cəhd edir: “Məndə belə təsəvvür yaranır ki, sanki Vətən müharibəsindən əvvəl və sonra Azərbaycan hansı siyasi xətti yürüdübsə, Ermənistan onu təqlid etməyə çalışır. Həm beynəlxalq platformalarda iştirakçılığın gücləndirilməsi, həm ikitərəfli və çoxtərəfli əməkdaşlıq ifadə edilməsi rəsmi Bakının siyasi kursudur. Xarici siyasətdə təqlidçilik də heç bir dövlətə başucalığı gətirmir. Hər zaman önəmli geosiyasi kurs yürüdən dövlət üstünlük qazanır. Onun arxasınca getməyə çalışan ölkələr isə izləyici mövqeyində olurlar. Çünki dominant qüvvə daim axtarışdadır, müxtəlif çağırışlara cavab verir, özünün xarici siyasətini şaxələndirir, yeni uğurlar əldə edir. Kənar qüvvələr isə buna can atmağa məhkum olurlar. Sanki Ermənistan da bu mövqedən çıxış edir”.



İ.Hüseynov qeyd etdi ki, Prezident İlham Əliyevin aprelin 22-24-də Çin Xalq Respublikasına etdiyi uğurlu dövlət səfərini hamımız xatırlayırıq: “Səfər çərçivəsində – aprelin 23-də imzalanmış “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat”ın bəndlərinin biri Azərbaycan–ŞƏT əlaqələri barədə idi. Azərbaycan “ŞƏT-in Dayanıqlı İnkişaf İli” tədbirlərində fəal iştirak etməyə və təşkilatın üzv ölkələri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirməyə hazır olduğunu bildirmişdi. Çin isə Azərbaycanın ŞƏT-də hüquqi statusunun artırılmasını dəstəkləmişdi. Biz bu səfərdən sonra Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın Çinə səfər etdiyini, həmkarı Van İ ilə görüşdüyünü görürük. Bundan az sonra isə İrəvanın ŞƏT-ə qoşulmaq niyyəti ifadə olunur. Bu, Azərbaycan xarici siyasətinin Ermənistan tərəfindən təkrarlanması anlamına gəlir. Sanki biz harda varıqsa, Ermənistan ora can atır, sanki biz harda güclüyüksə, Ermənistan orda iştirak etmək arzusundadır. Bu, qəribə təsəvvür yaradır və Azərbaycan xarici siyasətinin uğurunu bir daha təsdiqləyir”.

Politoloqun fikrincə, digər tərəfdən Ermənistan elə zənn edir ki, biz hansı platformada varıqsa, həmin platformadan İrəvana qarşı istifadə edəcəyik: “Bu səbəbdən Ermənistan hökuməti də həmin yolla gedir. Azərbaycan KTMT-də, Beynəlxalq Frankofoniya Təşkilatında yoxdur. Ermənistan hər zaman Azərbaycanın iştirak etmədiyi qurumlardan bizə qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışır. Bu da qəribə mənzərə formalaşdırır”.

İ.Hüseynov hesab edir ki, Azərbaycan özünün xarici siyasətini daha da gücləndirməlidir. Onun fikrincə, Xarici İşlər Nazirliyində keçirilmiş son müşavirə deməyə əsas verir ki, bizim mövqelərimizin güclənməsi istiqamətində mühüm strategiyalar formalaşdırır. Bu strategiyaların icrasının nəticələri də ölkəmizin beynəlxalq uğurlarını artıracaq.

**Siyasi tədqiqatçı, Qafqaz Siyasi Təhlil Mərkəzinin direktoru Əhməd Əlili** isə bildirdi ki, Paşinyanın komandası üçün



həlledici siyasi mərhələ yaxınlaşır. Onun sözlərinə görə, gələn il həddindən artıq gərginlik vəd edir: “Mən iyun ayında Ermənistanda keçiriləcək seçkiləri nəzərdə tuturam. Faktiki olaraq artıq ölkədə seçkiqabağı kampaniya start götürüb. Bu gün atılan bütün addımlara bu yarış kontekstində baxmaq olar. Türkiyə, Rusiya, Çin və beynəlxalq strukturlarla münasibətlərdəki manevrlərə də bu rakursdan yanaşmaq lazımdır. Görünür, Paşinyan Azərbaycanın xarici siyasətini, necə deyərlər, kopyalamağa çalışır. O, həm də tarazlıq nümayiş etdirməyə səy göstərir. Azərbaycan harada iştirak edirsə, Paşinyan da eyni platformalarda olmaq istəyir. Bu, İrəvanın hərəkətlərini əsasən izah edir”.

Ə.Əlilinin fikrincə, Ermənistanın hazırda ŞƏT və Çinlə yaxınlaşmaq istəyi Rusiyanın postsovet məkanında mövqelərinin zəifləməsi ilə bağlıdır: “2022-ci ilin yanvarında Qazaxıstanda baş verən hadisələr çoxlarının xatirindədir. O zaman Rusiya ölkə hakimiyyətinin KTMT-yə müraciətindən istifadə edərək Qazaxıstan ərazisində möhkəmlənməyə çalışdı. Hesab edilir ki, böhrandan uğurla çıxmaq Çinin sayəsində mümkün oldu. Pekin Moskvaya açıq şəkildə bildirdi ki, Qazaxıstanda sabitlikdə maraqlıdır. Nəticədə rus qoşunları geri çəkildi. Bu kontekstdə ŞƏT vasitəsilə Çinlə yaxınlaşma Paşinyana regional siyasətdə mövqelərini gücləndirmək üçün mühüm element kimi görünür”.

Onu da bildirək ki, Ermənistan xarici işlər naziri Ararat Mirzoyan iyunun 25-27-də Çində rəsmi səfərdə olub. O, səfər çərçivəsində Çinin xarici işlər naziri Van İ ilə görüşüb, həmçinin digər rəsmi şəxslərlə müzakirələr aparıb. Ermənistanın ŞƏT-ə üzv olmaq niyyəti onun geosiyasi yönünü müəyyən edə bilməməsinin daha bir göstəricisidir. İrəvan bir tərəfdən Qərbə inteqrasiya iddiaları irəli sürür, digər tərəfdən isə Rusiya və Çin kimi güclərin dominantlıq etdiyi təşkilatlara can atır. Bu, ənənəvi eyni vaxtda iki stulda əyləşmək siyasətinin davamı kimi görünür və strateji qeyri-müəyyənliyin dərinləşdiyini təsdiqləyir. ŞƏT-in əsas prinsiplərindən biri olan ərazi bütövlüyünün Ermənistan tərəfindən dəstəklənməsi isə ikili standartları xatırladır. Çünki rəsmi İrəvan uzun illər Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxmaqla bu prinsipə zidd mövqe tutub. İndi həmin prinsipi qəbul etdiyini bildirməsi ya səmimiyyətsizlik, ya da taktiki gedişdir. Üstəlik, Ermənistanın bu addımı Qərb dairələrində də ciddi suallar doğura bilər. Eyni zamanda, bu, Rusiyanın artan təzyiqlərindən yayınmaq üçün edilən müvəqqəti manevr də ola bilər. ŞƏT-ə üzvlük istəyi, əslində, Ermənistanın regional təşkilatlara qapı döyməklə təhlükəsizliyini kənardan təmin etmək istəyindən qaynaqlanır. Lakin belə ziddiyyətli və prinsipsiz kursla nə Rusiya, nə də Qərb Ermənistanı tam etibarlı tərəfdaş kimi qəbul edəcək.

*Səxavət HƏMİD*
*XQ*

# AP gündəliyində “pandemiya korrupsiyası”

## Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen ciddi təzyiqlərlə üzləşib

**Avropa Parlamentində (AK) ona qarşı irəli sürülən etimadsızlıq təşəbbüsü, eyni zamanda, Almaniyanın biznes elitasının sərt tənqidləri Fon der Lyayenin mövqeyini ciddi şəkildə sarsıdıb, kürsüsünün laxladığı barədə fikirləri gücləndirib.**



U.Lyayenə qarşı etimadsızlıq səsverməsinin keçirilməsi təşəbbüsünü Rumıniyadan olan avroparlamentari Georgi Pipera irəli sürüb. O, komissiyanı və onun rəhbərini COVID-19 pandemiyası dövründə şəffaflığın olmamasında və zəif idarəçilikdə günahlandırıb. Təşəbbüsə əsas səbəb Avropa İttifaqı (Aİ) Ədalət Məhkəməsinin qərarı olub. Məhkəmə müəyyən edib ki, AK sədri Ursula Fon der Lyayen “Pfizer” şirkətinin baş direktoru Albert Bourla aralarında aparılmış şəxsi yazışmaları təqdim etməkdən imtina etməklə Aİ-nin şəffaflıq qaydalarını pozub. Həmin yazışmalar 2021-ci ilin yanvarından 2022-ci ilin may ayına qədər – COVID-19 vaksinlərinin tədarükü ilə bağlı aktiv danışıqların getdiyi dövrdə aparılıb. Məlumata görə, pandemiya zamanı AK, ümumilikdə, 35 milyard avroya 1,8 milyard doza COVID-19 vaksini alıb. Vaksinlərdən səmərəsiz istifadə olunub. Peyvəndlərin istifadəsiz qalması və komissiyanın rəqəmsal xidmətlər haqqında qanunun tətbiqi ilə Rumıniya və Almaniyadakı seçkilərə təsir göstərdiyi də iddia olunur. Ümumiyyətlə, bu prosesdə ictimaiyyətə açıqlanmayan məqamlar çox olub və korrupsiyaya yol verildiyi iddia edilir.

Etimadsızlıq təşəbbüsünün Avroparlamentdə müzakirəyə çıxarılması üçün ən azı 72 deputatın dəstəyi tələb olunur. Nəticədə təşəbbüs 74 deputat tərəfindən imzalanaraq prosedur baxımından növbəti mərhələyə keçib.

Qeyd edək ki, dünən Avropa Parlamentinin Strasburqdakı sessiyasında AK sədrinə etimadsızlıq məsələsi müzakirə olunub. Tədbirdə Lyayen, eləcə də komissiyanın bütün üzvləri iştirak ediblər. Sədrin üzvü olduğu Avropa Xalq Partiyası (AXP) onu açıq şəkildə dəstəklədiyini bəyan edib. Eyni mövqeyi liberallar və sosial-demokratlar da bölüşürlər.

“Politico” nəşrinin yazdığına görə, Fon der Lyayenə qarşı irəli sürülən etimadsızlıq səsverməsi simvolik xarakter daşıyır. Bu təşəbbüs Brüsseldə onun bir sıra mübahisəli qərarları və qalmaqallı addımlarından sonra artan narazılığı ortaya qoyur. Əgər etimadsızlıq qəbul edilsəydi, bu, təkcə onun siyasi karyerası deyil, eyni zamanda, bütövlükdə AK-nin istefası deməkdir. Bu isə 27 yeni komissarın təyinatı ilə bağlı mürəkkəb və vaxtaparan bir prosesin başlanmasına səbəb olacaqdı.

Hazırkı vəziyyət Aİ tarixində oxşar bir presedenti xatırladır. 1999-cu il martın 15-də Lüksemburqlu Jak Santerin rəhbərlik etdiyi AK korrupsiya ittihamları fonunda tam tərkibdə istefa vermişdi. Bu hadisə birlik tarixində ilk və bugünədək nadir hal olaraq qalır.

Onu da qeyd edək ki, Ursula Fon der Lyayen son günlər təkcə siyasi cəbhədə deyil, iqtisadi dairələrdə də ciddi təzyiqlərlə üzləşib. Almaniyanın aparıcı sənaye və ticarət şirkətlərinin rəhbərləri ilə keçirilən son görüşdə ona qarşı sərt tənqidlər səsləndirilib. Bu barədə Almaniyanın nüfuzlu “Bild” nəşri məlumat yayıb.

Görüşdə “Lufthansa”, “E.on”, “Uniper”, “Henkel”, “Evonik”, “Thyssenkrupp”, DHL, “Rheinmetall”, “Hochtief”, “Rewe” və “Covestro” kimi nəhəng korporasiyaların rəhbərləri iştirak ediblər. Alman biznes elitası Aİ-nin iqtisadi kursundan narazılığını açıq şəkildə ifadə edərək, bu sahədə dərhal dəyişikliklər edilməsini tələb edib. Onların sözlərinə görə, Fon der Leyen rəhbərlik etdiyi Komissiyanın mövcud siyasəti ilə Avropa iqtisadiyyatını rəqabətdən geri salır və sənayenin yükünü ağırlaşdırır.

Biznes dairələrinin narazılığına əsas səbəblərdən biri də ABŞ tərəfindən tətbiq edilən gömrük rüsumları olub. Avropa şirkətləri bu proteksionist tədbirlərlə rəqabət aparmaqda çətinlik çəkdiyini bildiriblər. Bununla yanaşı, Aİ-nin iqlim siyasəti də mübahisəli məqam kimi qeyd olunub. Şirkət rəhbərləri bu siyasətin Avropa istehsalçılarına qeyri-mütənasib yük yüklədiyini və bu yükün onların qlobal rəqabət gücünü azaltdığını vurğulayıblar.

Görüşdə xüsusilə diqqət çəkən digər məsələ Aİ-də artmaqda olan bürokratik tələblər olub. İştirakçılar bildiriblər ki, tənzimləyici normativlərin sərtləşməsi əməliyyat xərclərini artırır və biznes mühitini daha da mürəkkəbləşdirir. Nəticədə, Avropa şirkətləri dünya bazarında rəqibləri ilə ayaqlaşmaqda çətinlik çəkirlər.

*

Fon der Lyayen üçün bu görüş təkcə texniki-iqtisadi müzakirə deyil, eyni zamanda, onun rəhbərliyinin iqtisadi sahədə də etimad problemi ilə üzləşdiyinin göstəricisi kimi qiymətləndirilir. Narazılıqlar fonunda onun siyasi gələcəyi ilə bağlı suallar daha da aktuallaşır. **Bu barədə siyasi analitik Yeganə Hacıyeva XQ-yə bildirdi ki,** Avropa Ədalət Məhkəməsi U.Lyayeni 2021–2023-cü illərdə vaksin müqavilələrinə dair məlumatları ictimaiyyətdən gizlətməkdə məsul hesab edib. 2023-cü ildə isə ABŞ-ın “The New York Times” qəzeti Lyayenə qarşı korrupsiya ittihamları irəli sürmüşdü. Qəzet AK sədrini korrupsiya ilə bağlı ciddi ittihamlarla hədəfə almış və iddia etmişdi ki, o, “Pfizer” şirkəti ilə Aİ üçün 35 milyard avrodan çox dəyərində vaksin müqaviləsi bağlayıb və bu müqavilələrin şərtlərini ictimaiyyətə açıqlamaqdan imtina edib.



2025-ci ilin yanvarında isə Belçikanın Liege şəhərində fəaliyyət göstərən məhkəmə daha bir prosesin icraatına başlayıb. Bu təşəbbüs belçikalı fəal Frederik Balda tərəfindən irəli sürülüb və ona Aİ ölkələrindən təxminən 1000 nəfər media nümayəndəsi və vətəndaş cəmiyyəti təşkilatları qoşulublar.

İddiaçılar arasında COVID-19 peyvəndlərinin yan təsirləri nəticəsində sağlamlığını itirən və ya yaxınlarını itirən Aİ vətəndaşları da yer alır. Onlar fon der Lyayeni vəzifə səlahiyyətlərindən sui-istifadə və korrupsiyada günahlandırıblar.

Lakin Aİ Baş Prokurorluğu onun bu cür cinayət təqiblərindən immunitetə malik olduğunu əsas gətirərək iddiaları rədd edib. Məlumdur ki, Baş Prokurorluq da birbaşa AK-a tabedir, bu isə prosesin şəffaflığı və müstəqilliyi ilə bağlı suallar doğurur. Buna baxmayaraq, Avropa Məhkəməsi müəyyən edib ki, AK 2020–2021-ci illərdə vaksinlərin satınalması zamanı şəffaflıq prinsipini pozub, qiymətləri ictimaiyyətdən gizlədib.

Qeyd edək ki, AK həmin dövrdə, yəni 2020-ci ilin siyahıyaalınma məlumatlarına əsasən, əhalisinin sayı 440 milyon olan Aİ üçün 35 milyard avroya 1,8 milyard doza vaksin alıb. Belə böyük həcmdə vaksinə ehtiyacın olmaması satınalmaların əsaslılığı və şəffaflığı ilə bağlı ciddi suallar doğurub”.

Bütün bu gəlişmələr isə Lyayenin mövqeyini zəiflədir və Aİ daxilində onun liderliyi ilə bağlı ciddi suallar doğurur. Qısa müddətdə siyasi təzyiqlərin azalması gözlənilmir. AK-nin siyasi etimad və legitimlik baxımından ciddi sınağa çəkildiyi məlumdur.

Deməli, narazılıqlar təkcə ötəri problemlər deyil, həm siyasi, həm də iqtisadi etimadın sarsıldığının göstəricisidir. Onun rəhbərlik etdiyi Komissiya bir tərəfdən daxildəki narazılıqlar, digər tərəfdən isə xarici iqtisadi təzyiqlər fonunda gələcəyini müəyyənləşdirmək məcburiyyətindədir. Aİ lideri kimi Fon der Lyayenin qarşıdakı günlərdə mövqeyini necə qoruyacağı maraq doğurur.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Azərbaycanın xarici siyasəti: sülhsevərlik və humanitarlıq aspekti



II MƏQALƏ

## Geosiyasi oyunun iki cəhəti

Rəsmi Bakı tərəfindən davamlı regional sülhün təməlinə Azərbaycanla Ermənistan arasında münasibətlərin hüquqi müstəvidə normallaşması məsələsinin (ümumi olaraq: sülh müqaviləsinin imzalanması) qoyulması tarixi, siyasi və geosiyasi əsaslara malikdir. Son 300 ildə Cənubi Qafqazın geosiyasi dinamikasının xarakteristikasına baxsaq, görərik ki, bu regionda başlıca problemlər məhz Azərbaycana münasibət ətrafında formalaşmışdır.

Onun siyasi və geosiyasi xarakterli bir sıra özəllikləri vardır. Bir tərəfdən, regional geosiyasi oyunlarda Azərbaycanla Ermənistanı əsas olaraq qarşıduran tərəflər qismində görmüşlər, digər tərəfdən isə Gürcüstanı sanki bütün dərin ziddiyyətlərdən kənarda saxlayaraq onun hansısa funksiyanı yerinə yetirə bilməsi üçün əl yeri saxlamışlar. Sonrakı proseslər göstərdi ki, Gürcüstana regional siyasət, geosiyasət, mədəniyyət və dövlətçilik mərkəzi kimi münaqişə edən tərəflər üçün "neytral hakim" funksiyası verməyi planlaşdırmışlar.

Bununla da təqribən 300 il davam edən geosiyasi oyunlarda əsas qurban Azərbaycan olmaqla türk-erməni düşmənçiliyi yaradıb ondan geosiyasi məqsədlər üçün istifadə etmək trendi ilə regionda aparıcılıq funksiyasını yerinə yetirməli olan Gürcüstandan yeri gələndə istifadə etmək niyyəti mövcud olmuşdur.

Nəticədə həmin müddətdə Cənubi Qafqazda aparılan geosiyasi oyunlar faktiki olaraq iki cəhətdən ibarət sistem halını almışdır. Onlardan birincisini regionda Azərbaycan torpaqlarının hesabına yaradılmalı olan Ermənistanın üstünlüyünü təmin etmək planları təşkil edirdi. Burada daim ermənilər haqlı, azərbaycanlılar isə haqsız kimi tədqim edilməli idi.

Təbii ki, Cənubi Qafqazda süni yaradılmış bu düşmənçiliyi "həll etmək üçün layiqli" bir yerli faktor da tapmaq lazım idi. Bunun üçün Gürcüstan seçildi. Bu da qurulan geosiyasi sistemin ikinci cəhəti idi. Nəticədə Gürcüstanı bir müddət regionun siyasi, geosiyasi və mədəni proseslərinin təməlinə gətirdilər və onu tarixən gücü çatmayan işlərdə aparıcı etməyə çalışdılar. Onun əlamətləri kimi aparıcı təhsil müəssisələrini Gürcüstanda açmağı, müxtəlif mədəni və siyasi tədbirlərin orada keçirilməsini təşkil etməyi göstərmək olar.

Bununla Cənubi Qafqaz tarixi və siyasi əsası olmayan və iki özəlliyə malik süni geosiyasi mənzərəyə 300 il şahidlik etməli oldu. Onun bir aspektini Azərbaycanı və azərbaycanlıları qurban seçməklə qondarma erməni dövləti yaratmaq, digərini isə bu kimi proseslərin həlli yeri kimi potensial imkanı zəif olan Gürcüstana neytral hakim rolunu vermək təşkil edirdi.

Bütün bunlar indi də Cənubi Qafqaz üçün çox mühüm olan geosiyasi xüsusiyyət formalaşdırdı. Onun başlıca qayəsi bu regionda davamlı sülhün ilk növbədə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı olmasından ibarətdir.

Digər xüsusiyyət, Gürcüstanın bu prosesdə aparıcı mərkəz ola bilmədiyinin qəbul edilməsidir. Eyni zamanda, bu qonşu dövlətin regional geosiyasi proseslərdən kənarda qalması və ya təcrid olunması qətiyyən yolverilməzdir. Söhbət, Gürcüstanı kimlərinsə uzun müddət regional siyasi, geosiyasi, mədəni mərkəz kimi görmək istəməsinin də iflasa uğramasından gedir. Tbilisi o tarixi, siyasi, dövləti və geosiyasi-mədəni potensiala malik deyildir.

Böyük güclərin ümumi məqsədi isə aydın idi: Cənubi Qafqazda xristian ermənilərin süni üstünlüyünü təmin etməklə müsəlman azərbaycanlıların geosiyasi rolunu minimuma endirmək və çəkişən hər iki tərəf üçün başqa bir xristian ölkəsini – Gürcüstanı "neytral hakim" rolunda görmək! Bununla özlərini böyük sayanlar regionun tarixi, siyasi, geosiyasi, mədəni və dövləti düzəninə qarşı terror etmiş oldular. Ancaq Zamanın öz hökmü varmış!

## İkiqat regional geosiyasi problem

Aydın olur ki, Cənubi Qafqaz dövlətlərinin müstəqilliyə nail olması ilə qarşılarına mürəkkəb geosiyasi ziddiyyəti əsaslı həll etmək kimi çox çətin vəzifə də çıxmışdır. Onun təməlində Azərbaycanla süni Ermənistanın münasibətlərinin konkret siyasi-hüquqi kriteriyalar müstəvisinə gətirilməsidir. İkincisi isə, Gürcüstanın bu prosesdə yeri və rolunu adekvat müəyyən etmək əsasında bütövlükdə regional miqyasda davamlı sülhü təmin etməkdir. Burada başlıca sual belədir: həmin proseslərdə aparıcı siyasi və geosiyasi güc rolunu kim oynaya bilər? Aydındır ki, ağıla ilk olaraq dünyanın güclü dairələri gəlir. Ancaq regionun acı təcrübəsi var – həmin güclər öz maraqları naminə Cənubi Qafqazı daha da qarışdırırlar.

Yuxarıda da vurğulamışıq ki, qonşu Gürcüstan bu prosesdə potensial yetərsizliyi səbəbindən gerçəkdən aparıcılıq funksiyasını yerinə yetirə bilmir (ancaq, gürcü dostlarımızın niyyətləri xoşdur, regional maraqlara uyğundur).

Bütün bunlardan sonra yeganə düzgün çıxış yolu yerli dövlətlərdən hansınınsa güclü xarici siyasət yeritməklə aparıcılıq funksiyasını üzərinə götürməsi ilə bağlı ola bilər. Bunun üçün isə həmin ölkənin tarixi, siyasi, geosiyasi və dövləti potensialı yüksək olmalıdır. 1990-cı illərdən bu yana həmin kontekstdə (yəni müstəqil güclü dövlət qurmaq aspektində) toplanan təcrübə göstərdi ki, aparıcı və oyunqurucu rolunu yalnız Azərbaycan yerinə yetirə bilər.

Bu o deməkdir ki, Azərbaycan həm Ermənistanla münasibətlərin normallaşmasında, həm də bütövlükdə regional sülhün davamlı olmasında aparıcılıq funksiyasını yerinə yetirməlidir. Ümumi halda bu vəzifə sülhsevər və praktiki tətbiqi səmərəli olan xarici siyasət kursu hazırlamağı tələb edirdi. Onun üzərində tarixi və siyasi aspektdə geniş dayanaq.

## Niyə məhz Azərbaycan-Ermənistan münasibətləri?

Səfəvinin çökürdülməsi prosesi Azərbaycana aid torpaqların parçalanması ilə müşaiyət olunurdu. Paralel olaraq davamlı surətdə azərbaycanlıları yurdlarından didərgin salıb, yerlərinə erməniləri gətirirdilər. Bu, XVIII əsrin ikinci yarısından başlayaraq XX əsrin 90-cı illərinin əvvəllərinə qədər sanki dünya siyasətinin təbii mahiyyətli aksiomlarından biri kimi qəbul edilirdi. Yəni Səfəvinin yoxluğu və Osmanlının çox zəifləməsi və sonra (XX əsrin üçüncü onilliyi) tamamilə dağıdılması fonunda Qərb və Rusiya imperializminin dönmədən əməl etdiyi prinsip statusunu almışdı. Onlara özlərinin yaratdıqları və adını "beynəlxalq təşkilatlar" qoyduqları qurumlar da müxtəlif bəhanələrlə dəstək verməkdə idilər. Burada "beynəlxalq" termini sətiraltı bütün dünyaya deyil, Qərbə və ümumi halda xristian dünyasının güclü dövlətlərinə aid edilirdi. Geridə qalanlar "yarımsuverenliyə" layiq "Qlobal Cənub" adlı ikinci kateqoriya cəmiyyət, sivilizasiya, mədəniyyət və dövlətlər hesab olunurdu.

Türk xalqlarına, o cümlədən daha kəskin formada azərbaycanlılara qarşı uzun müddət aparılan siyasətin bazasında bu faktor dayanırdı. Lakin nədənsə Gürcüstan bu keyfiyyətdə imperialistlərin işlərinə yaramadı. Görünür, yuxarıda vurğuladığımız kimi, bizə qonşu ölkə olan Gürcüstanı gələcəkdə "neytral hakim", "regionun düşmənsiz ölkəsi", "bütün yeni siyasi və geosiyasi və mədəni proseslərin mərkəzi" olmağa hazırlayırdılar. Onun təzahürləri belə oldu: Gürcüstan Cənubi Qafqazın siyasi-mədəni mərkəzi kimi təbliğ olundu və həmin istiqamətdə konkret addımlar atıldı. Hər hansı regional ziddiyyəti Tiflisdə həll etmək bir növ standart davranış halını aldı. Bu proses başqa bir antiazərbaycan siyasətin fonunda gedirdi.

Biz, regionda Azərbaycan dövlətinin, ölkəsinin, mədəniyyətinin və insanlarının soyqırımı əsasında qondarma erməni dövlətinin yaradılmasının əsrlərlə davam etməsini nəzərdə tuturuq. Hesablamalara görə, son 300 ildə Qərbi Azərbaycandan 5 milyona yaxın azərbaycanlı deportasiya olunmuşdur. Bu prosesin dinamikası zaman-zaman dəyişmişdir. Azərbaycanlıların müqaviməti güclənəndə onu müvəqqəti səngitmişlər, lakin sonrakı fürsətdə daha amansız surətdə ərazilərin işğalı, insanların yurdlarından didərgin salınması prosesi vüsət almışdır. Bunun fonunda Azərbaycan ərazilərində öncə "erməni vilayəti" yaratdılar, sonra isə Ermənistan Respublikasını qondardılar (onun necə adlandırılmasının bu kontekstdə elə bir fərqi yoxdur, yəni istər Ermənistan Respublikası olsun, istərsə də Ermənistan SSR).

Bununla imperialist dairələr Cənubi Qafqazın geosiyasi düzəninə "erməni virusu"nu yeritdilər. Onun üzərinə iki funksiya qoydular. Birincisi, "virus" Azərbaycan-türk fərdi və dövləti kimliyini "yeməli" idi. İkincisi, bu əsasda Cənubi Qafqazın təbii geosiyasi anatomiyasını dəyişib xristian faktorunu aparıcı etmək lazım gəlirdi.

Bunun uğrunda uzun müddət mübarizə apardılar. Lakin tarix göstərdi ki, ən güclü erməni-xristian havadarlar iki istiqamətdə iflasa uğradılar. Onlardan biri süni Ermənistanın regionda aparıcı güc rolunu yerinə yetirə bilməməsi ilə bağlıdır. Bunun üçün ermənilərin heç bir cəhətdən potensialı yoxdur.

İkinci istiqamət Gürcüstanın vurğulanan proseslərdə neytral hakim və aparıcı mərkəz funksiyasını yerinə yetirə bilməməsi ilə bağlıdır. Ermənilər zaman-zaman fürsət düşəndə Gürcüstana qarşı da təcavüzkarlığa baş vurdular və ondan torpaq qopartmağa çalışdılar. Bu da regionda başqa bir ziddiyyətin formalaşmasına səbəb oldu. Nəticədə siyasi və geosiyasi boşluq meydana gəldi. Onun fonunda yerli dövlətlərin xarici siyasət kursunun mahiyyəti daha böyük aktuallıq kəsb etməyə başladı.

Bütün bunlar Azərbaycanın xarici siyasətində sülhsevərliyin təməlində Ermənistanla münasibətlərin normallaşdırılmasının yer almasının tarixi, siyasi, geosiyasi və dövləti aspektlərini izah edir.

Bu, birincisi, milli miqyasda əsrlərlə yaradılmış problemləri həll etməyə imkan verir.

İkincisi, regional masştabda davamlı sülhün bərqərar olması üçün ədalətli və perspektivli geosiyasi mənzərə yaradır.

Üçüncüsü, regionun lider dövlətinin haqlı olaraq geosiyasi aparıcı güc kimi təsdiq olunmasını təmin edir.

Bununla aydın olur ki, Azərbaycan regional güc kimi sülhsevər dövlət olaraq iki nəticəyə nail olmağa çalışır: birincisi, Cənubi Qafqazda davamlı sülhün bərqərar olması, ikincisi, regionun dayanıqlı inkişaf bölgəsinə çevrilməsi.

Cənubi Qafqazın taixində hər iki məsələ prinsipial olaraq yenidir və regional düzənə fərqli geosiyasi keyfiyyət qazandırır. Çünki Azərbaycan geosiyasi kontekstdə davamlı sülhün təmini ilə regional səviyyədə dayanıqlı inkişafı sintez edir.

Ümumi halda sülhün dayanıqlı inkişafa xidmət etməsi prinsipial məsələdir və hər bir region üçün önəmlidir. Cənubi Qafqazda bu modelin ilk nümunəsini Azərbaycanın xarici siyasi kursunun yaratması birbaşa yeni liderliyin nəticəsidir. Belə görünür ki, ilk baxışdan bəsit görünən "sülhyaratmaq" və "sülhü təmin etmək" prosesi kifayət qədər mürəkkəb və dərin mənaları olan konseptual məsələdir. Həmin bağlılıqda xarici siyasətdə sülhsevərliklə humanitarlığın qarşılıqlı münasibətləri nəzəri və praktiki aktuallıq kəsb edir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Zəngəzur dəhlizi: Ərdoğanın mesajı və ...ermənisayağı inad

*Rəsmi İrəvanın reaksiyası qənaətbəxş deyil*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Xankəndidə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə Görüşündən sonra Zəngəzur dəhlizinin açılması ilə bağlı səsləndirdiyi fikirlər Ermənistanda ciddi ajiotaj doğurub. Amma yazımız təkcə bu barədə olmayacaq. Müxtəlif əlaqəli məqamlara nəzər salıb, rəsmi İrəvanın böyük ideya qarşısındakı müqavimətinin mənasızlığını vurğulayacağıq.**

Ondan başlayaq ki, cənab Ərdoğan Zəngəzur dəhlizinin əhəmiyyətindən söz açarkən, layihənin bütün region üçün yeni imkanlar açdığını vurğulayıb. Türkiyə lideri dəhlizin yalnız geosiyasi deyil, habelə geoiqtisadi sıçrayış yaradacağını deyərək, onun ölkəsi ilə yanaşı, Azərbaycana, Ermənistana və İrana böyük perspektivlərini qabardıb. "Dəhlizin (Zəngəzur dəhlizinin – red.) açılması Orta Dəhlizi gücləndirəcək. Türkiyə malları tez bir şəkildə Mərkəzi Asiya və Çinə çatacaq", - deyən Ərdoğan Ermənistanın məsələyə münasibəti baxımından bir sıra məqamların üzərində dayanıb. Hələlik isə bir haşiyə çıxaq.



*

Məlum olduğu kimi, Ermənistanın baş naziri Nikol Paşinyan bir müddət əvvəl Türkiyədə səfərdə olmuş, Ərdoğanla görüşdən əvvəl yerli erməni icmasının nümayəndələri ilə bir araya gəlmişdi. Maraqlıdır ki, Nikolun icma təmsilçiləri ilə görüşünə dair məlumat onun Türkiyə lideri ilə təmasından sonra yayılmışdı. Belə rəy yaranmışdı ki, Paşinyanın həmvətənləri ilə görüşdə dilə gətirdiyi tezislər onun Ərdoğanla söhbətinin nəticəsi ilə uzlaşır.

Qeyd edək ki, Nikol icma üzvlərinə özünün irəli sürdüyü "Dünyanın kəsişməsi" ideyası barədə məlumat vermişdi. O ideya ki, ölkəmizin Zəngəzur dəhlizi layihəsinə qarşı alternativ qismində irəli sürülüb və böyük ölçüdə Cənubi Qafqazda erməni avantürasının yaşadılmasına hesablanıb. Erməni iqtidarı çalışmışdı ki, Nikolun Türkiyə səfəri prizmasında "Dünyanın kəsişməsi"nin, guya, Ankara tərəfindən də dəstəkləndiyi görüntüsünü formalaşdırsın. Cənab Ərdoğanın hazırda bildirdiyi fikirlər isə belə bir dəstəyin yolverilməzliyinin təsdiqidir.

Ümumən, məlumdur ki, Ankara üçün erməni avantürasına yaşıl işıq yandırmaq nonsensdir. Çünki ortada Azərbaycan amili var. Türkiyə Azərbaycanın mövqeyinə zidd addım atmayıb və atmayacaq. Ankaranın məqsədi, loru dildə desək, Ermənistanı düz yola gətirməkdir. Əslində, cənab Ərdoğanın da söylədikləri bunun sübutudur.

Qardaş ölkə lideri İrəvanın əvvəl Zəngəzur dəhlizinə qarşı zidd mövqe tutduğunu vurğulayıb və əlavə edib ki, hazırda Ermənistan iqtisadi inteqrasiya məsələlərində aktivlik nümayiş etdirir. Bu o deməkdir ki, Ankara İrəvanın aktivliyinin məhz Zəngəzur dəhlizi reallığına əsaslanmasının tərəfdarıdır. Cənab Ərdoğanın məlum açıqlaması fonunda onun Azərbaycanla Ermənistan arasında sülh prosesinə toxunması da diqqət çəkir. Deməli, Zəngəzur dəhlizi ilə bağlı ortaq mövqe, eyni zamanda, Bakı və İrəvan arasındakı barış mühitinin təminatçısı rolunda çıxış edir. Elə isə Ermənistanda Türkiyə liderinin açıqlamasına hansı tərzdə münasibət bildirilməsi üzərində dayanaq.

***

Beləliklə, cənab Ərdoğanın dediklərinə şərh verən Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan vurğulayıb ki, ölkəsi regional miqyaslı iqtisadi inteqrasiyada iştirak baxımından daha səmərəli yanaşma təklif edir. Sən demə, həmin yanaşma "Dünyanın kəsişməsi" imiş: "Ermənistan regional əlaqələrin genişləndirilməsində və iqtisadi inteqrasiyada maraqlı olub və maraqlıdır. Bu nöqteyi-nəzərdən ölkə "Dünyanın kəsişməsi" təşəbbüsünü, eyni zamanda, müvafiq ideyaları, həll yollarını və konstruktiv yanaşmaları irəli sürüb. Bizim fikrimizcə, bu, region ölkələrini, eyni zamanda, daha böyük əməkdaşlıqda maraqlı olan partnyorları qarşılıqlı mənfəətli nəticələrlə təmin edəcək. Əvvəllər olduğu kimi, regionun nəqliyyat infrastrukturunun blokdan çıxarılması üçün erməni baxışı fundamental prinsiplərə – marşrut üzərində milli yurisdiksiyaya və suverenliyə əsaslanır və bu, məlum olduğu kimi, başqa məntiqi nəzərdə tutmur. Tərəfdaşlarla müzakirələr davam edir".

Yeri gəlmişkən, N.Paşinyan bu ilin martında "Ermənistan və Azərbaycan arasında kommunikasiya kanalları haqqında" sərlövhəli məqalə yazmışdı. Baş nazirin "Dünyanın kəsişməsi"nin tərkib hissəsi kimi qələmə verdiyi plana görə, regional kommunikasiyaların açılmasının iki hərəkət trayektoriyası olmalıdır. Birincisi, yüklərin Azərbaycanın Laçınından Ermənistanın Kornidzoru vasitəsi ilə Marqaraya, oradan isə Türkiyəyə daşınmasıdır. Nikol məqaləsində, həmçinin, guya təhlükəsizlik zəmanəti məsələsini də həll etmişdi. Sən demə, Laçın-Kornidzor-Marqara marşrutu üzrə hərəkət zamanı azərbaycanlı sürücülər üçün psixoloji çətinliklər yaranarsa, yükdaşımalar Ermənistan yollarında işləmiş türkiyəli sürücülər tərəfindən təşkil oluna bilər.

İkinci məqama diqqət yetirək. Paşinyanın Zəngəzur dəhlizinin mühüm komponenti sayılan Naxçıvana yolla bağlı fikirlərinə gəlincə, baş nazir məqaləsində sözügedən yolun açılmasına paralel Mehri-Yerasx marşrutunu irəli sürmüş, bu marşrutu "Ermənistandan Ermənistana yol" adlandırmışdı. Nəzərə alaq ki, Azərbaycan Naxçıvana yolun "Azərbaycandan Azərbaycana yol" məntiqi üzərində dayanır. Yəni, ərazidə hansısa gömrük və sərhəd nəzarəti tətbiq edilə bilməz.

Ümumən, Paşinyanın məqaləsindən belə nəticə hasil olmuşdu ki, Ermənistanın məqsədi Naxçıvana yola imkan verməməkdir. Onu da nəzərə alaq ki, Naxçıvan məhz erməni avantürası səbəbindən Azərbaycanın digər ərazilərindən ayrı düşüb. Deməli, heç bir halda, "Azərbaycandan Azərbaycana yol"a qarşı "Ermənistandan Ermənistana yol" təşəbbüsü irəli sürülə bilməz. Müvafiq olaraq, "Dünyanın kəsişməsi"nin Orta Dəhlizin tərkib hissəsi ola biləcəyinə dair erməni rəsmilərin bölüşdükləri fikirlərin də əhəmiyyəti yoxdur. Əslində, Türkiyə lideri açıqlaması ilə həm də bunu vurğuladı, Azərbaycanın regional kommunikasiyaların açılması gündəmini prioritet saydı.

*

Sonda qeyd edək ki, Prezident Rəcəb Tayyib Ərdoğanın "Zəngəzur dəhlizi" ilə bağlı söylədiklərinə münasibətdə Ermənistanda yaşanan ajiotaj fonunda Paşinyanın Türkiyədə erməni icması ilə görüşü zamanı dilə gətirdiyi bir fikir də yada salınır. "Mənim üçün aydındır ki, "Dünyanın kəsişməsi" layihəsi Orta dəhliz layihəsinin bir hissəsi ola bilər və bu, ümumi məntiqə uyğundur. Əgər (Azərbaycan və Türkiyə – red.) Ermənistan ərazisindən keçmək istəyirlərsə, qoy keçsinlər. Bu, pisdirmi? Biz "Dünyanın kəsişməsi" layihəsi çərçivəsində özümüz təklif edirik", - deyən Paşinyan Böyük Turan layihəsi üzərində də dayanmışdı. Onun sözlərindən belə nəticə hasil olmuşdu ki, Böyük Turanın necə təsəvvürə gətirilməsindən asılı olmayaraq, Ermənistan Naxçıvana yolu özünün ərazi bütövlüyü və suverenliyi prinsipi əsasında görür.

O da məlumdur ki, ərazi bütövlüyünün və suverenliyin toxunulmazlığı Ermənistanın Naxçıvana yola, habelə Zəngəzur dəhlizinə, böyük anlamda isə Orta Dəhlizə maneçilik üçün ortaya atdığı siyasi klişedir. Bu klişeni Qərbin hansı dairələrinin dəstəklədikləri hər kəsə yaxşı məlumdur. Cənab Ərdoğanın fikirləri Türkiyənin həm də belə mənfi təmayüllərə münasibətdəki qətiyyətli mövqeyinin bir daha ifadə olunmasıdır.

Deməli, nəinki Ermənistan, eləcə də onun xaricdəki havadarları anlamalıdırlar ki, geniş anlamda götürsək, Orta Dəhliz, heç bir halda, özündə erməni avantürasına dəstək seqmentini yaşatmayacaq. Bilavasitə Ermənistanın ərazi bütövlüyünə və suverenliyinə gəlincə, bunu toxunulmaz saxlamağın formulları var. Yaxşı olar ki, rəsmi İrəvan məhz mövcud istiqamətdəki müzakirə üçün səy göstərsin. Çünki obrazlı desək, sel qarşısında dayanan çör-çöpə baxmır, axıb keçir. Hesab edirik, əlavə şərhə ehtiyac yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Yeni tarixi dövrdə Azərbaycanın geoiqtisadi strategiyası: Xankəndi Zirvəsinin arxitekturası



(əvvəli 1-ci səhifədə)

Zirvə görüşü həmçinin ECO çərçivəsində Azərbaycanın mövqeyini daha da gücləndirərək regionda yeni iqtisadi inkişaf platformasının formalaşmasına zəmin yaradır. Bu tədbir nəticəsində ticarət əlaqələrinin genişlənməsi, enerji sahəsində əməkdaşlığın dərinləşməsi, nəqliyyat və logistika imkanlarının artırılması kimi istiqamətlərdə mühüm perspektivlər formalaşır. Postmünaqişə dövründə bu təşəbbüslər xüsusilə regionda iqtisadi sabitlik və davamlı inkişaf baxımından əhəmiyyətli töhfələr verir.

Tarixi kontekstdə baxdıqda, regional inteqrasiya ideyası İkinci Dünya müharibəsindən sonra Avropada yaradılan Avropa Kömür və Polad Birliyinə əsaslanır. Azərbaycanın təşəbbüsü ilə keçirilən Xankəndi Zirvə görüşü də bu yanaşmanın regional kontekstdə tətbiqi kimi qiymətləndirilə bilər. Bu görüş iqtisadi sülh və əməkdaşlığın təşviqi üçün strateji bir platforma olmaqla yanaşı, Cənubi Qafqazda yeni bir iqtisadi arxitekturanın qurulması istiqamətində real addım hesab olunur.

## Azərbaycanın ECO çərçivəsində fəaliyyət istiqamətləri

Azərbaycanın ECO çərçivəsində həyata keçirdiyi iqtisadi fəaliyyətlər və əldə etdiyi göstəricilər ölkənin regional iqtisadi inteqrasiyadakı rolunu daha da gücləndirmişdir. Bu göstəricilər ölkəmizin geoiqtisadi potensialının reallaşdırılması və liderlik mövqeyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

***Xarici ticarət sahəsində əməkdaşlıq***

Azərbaycan ilə ECO üzv ölkələri arasında ümumi ticarət dövriyyəsi təqribən 4,2 milyard ABŞ dolları təşkil etmişdir. Bu rəqəm Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin təxminən 8–9%-nə bərabərdir. ECO daxilində Azərbaycanın əsas ticarət tərəfdaşları Türkiyə, İran, Qazaxıstan və Özbəkistandır.

İxrac strukturuna baxdıqda, ECO ölkələrinə göndərilən əsas məhsullar sırasında neft və neft məhsulları, plastik və kimya sənayesi məhsulları, elektrik enerjisi və kənd təsərrüfatı məhsulları üstünlük təşkil edir. Eyni zamanda, Azərbaycana ECO ölkələrindən idxal olunan başlıca məhsullar ərzaq, avtomobil və sənaye avadanlıqları, tekstil və maşınqayırma məhsullarıdır.

***Enerji sahəsində əməkdaşlıq***

ECO çərçivəsində enerji sahəsində əməkdaşlıq mühüm strateji əhəmiyyət daşıyır. Azərbaycan–Türkmənistan–İran enerji körpüsü vasitəsilə elektrik enerjisi mübadiləsi genişlənmiş və bu, regionda enerji dayanıqlığının artırılmasına töhfə vermişdir.

Eyni zamanda, Cənub Qaz Dəhlizi (SGC) ECO ölkələri üçün alternativ enerji təminatında əsas platformalardan birinə çevrilmişdir. Türkiyə və Avropaya illik ~19 milyard $m^3$ Azərbaycan qazı ixrac edilib, bunun 20%-dən çoxu ECO üzvü olan Türkiyəyə yönəlib. Azərbaycan qazı bu ölkələr üçün strateji enerji mənbəyi kimi qəbul olunur. 2024-cü ildən etibarən, ECO Enerji Strategiyası çərçivəsində bərpa olunan enerji sahəsində əməkdaşlıq təşəbbüsləri dəstəklənməkdədir və Azərbaycan bu istiqamətdə aktiv tərəfdaş qismində çıxış edir.

***Nəqliyyat və logistika sahəsində əməkdaşlıq***

Azərbaycanın Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi ölkənin logistik imkanlarını genişləndirir. Nəticədə ölkənin ECO məkanında strateji tranzit qovşağına çevrilməsinə şərait yaranmışdır.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Middle Corridor) vasitəsilə Çin–Avropa ticarətinin mühüm hissəsi Azərbaycan ərazisindən keçir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bu dəhliz üzrə yük axınının 25%-dən çoxunu qəbul edir. Ötən illərdə Azərbaycandan keçən yük daşımalarının təxminən 40%-i ECO ölkələrinə məxsus olmuşdur ki, bu da regional ticarətin artan dinamikasını əks etdirir.

***İnvestisiya axınları və texniki əməkdaşlıq***

Ötən illərdə ECO ölkələrindən Azərbaycana yönələn birbaşa xarici investisiyaların həcmi təqribən 1,2 milyard ABŞ dolları təşkil etmişdir. Bu investisiyaların böyük hissəsi Türkiyə və Qazaxıstan tərəfindən həyata keçirilmiş və əsasən neft-qaz, tikinti və logistika sahələrini əhatə etmişdir.

Azərbaycan şirkətləri də ECO məkanında, xüsusilə Özbəkistan, Qazaxıstan və Pakistan kimi ölkələrdə 60-dan artıq birgə müəssisələr və aqrar layihələr həyata keçirmişdir. Bununla yanaşı, Azərbaycan ECO Ticarət və Sənaye Palatası çərçivəsində texniki və texnoloji əməkdaşlıq proqramlarında fəal iştirak etməkdədir.

***Şaiq ADIGÖZƏLOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

***İqtisadi əlaqələr və təşəbbüslər***

**Azərbaycan 2023–2025-ci illəri əhatə edən ECO Ticarət və İnkişaf Strategiyasının hazırlanmasında aparıcı rol oynamışdır.** Bu strategiya regionda iqtisadi diversifikasiyanı, qarşılıqlı ticarəti və sərmayə cəlbini stimullaşdırmağı hədəfləyir. Bununla yanaşı, **Azərbaycan ECO Bankı və digər maliyyə institutları ilə birgə yaşıl layihələrin maliyyələşdirilməsi istiqamətində təşəbbüslər irəli sürmüşdür.** Azərbaycan 2024-cü ildən etibarən isə ECO "Green Investment Facility" təşəbbüsünə pilot ölkə kimi daxil edilmişdir. Əlavə olaraq, Azərbaycan **Dayanıqlı İnkişaf Hədəfləri (SDG)** kontekstində rəqəmsallaşma və **yaşıl enerji sahələrində "pilot ölkə" statusu** qazanaraq təşkilat daxilində innovativ yönümlü əməkdaşlıq platformasına çevrilmişdir.

## ECO iqtisadiyyatı: mövcud potensial və inkişaf perspektivləri

ECO üzv olan ölkələr — Azərbaycan, Əfqanıstan, İran, Pakistan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan — Asiya və Yaxın Şərq regionunun geniş bir coğrafiyasını əhatə edir. Bu platforma təxminən 500 milyon nəfər əhalisi və təqribən 2,4 trilyon ABŞ dollarına yaxın iqtisadiyyatı ilə böyük bir iqtisadi blok kimi çıxış edir.

Regionun iqtisadi atlasında bir neçə ölkə xüsusi çəkisi ilə seçilir. İqtisadiyyatın həcminə görə regionun aparıcı iqtisadi gücləri kimi Türkiyə (təqribən 1,1 trilyon ABŞ dolları), İran (təxminən 388 milyard ABŞ dolları) və Pakistan (təxminən 375 milyard ABŞ dolları) çıxış edir. Qazaxıstan isə 258 milyard ABŞ dolları ÜDM ilə Mərkəzi Asiyada lider mövqedədir. Azərbaycan isə 70 milyard ABŞ dolları səviyyəsində səviyyəsində sabit və diversifikasiya olunmuş iqtisadi model nümayiş etdirir və enerji, nəqliyyat və rəqəmsal sahələrdə artan potensiala malikdir.

***Demoqrafik imkanlar və əmək bazarı***

ECO regionunun demoqrafik üstünlükləri arasında gənc və dinamik əhali strukturu xüsusi əhəmiyyətə malikdir. Əhalinin orta yaş göstəricisi 25–30 yaş arasında dəyişir ki, bu da əmək bazarının çevikliyini və insan kapitalının uzunmüddətli inkişaf potensialını artırır. Bu göstərici eyni zamanda təhsil, rəqəmsal savadlılıq və startap potensialı baxımından əhəmiyyətli imkanlar açır.

***İnteqrasiyanın hazırkı səviyyəsi və potensial imkanlar***

Bütün iqtisadi və demoqrafik üstünlüklərə göstərir ki, ECO regionunda qarşılıqlı iqtisadi əlaqələrin artırılması üzrə geniş potensil imkanlar mövcuddur. Rəsmi statistikaya görə, ECO ölkələri arasında qarşılıqlı ticarətin ümumi xarici ticarətdə payı təxminən 10% təşkil edir. Bu göstərici təşkilat daxilində iqtisadi inteqrasiyanın tam reallaşması və bunun üçün geniş istifadə olunacaq geniş imkanların mövcudluğunu göstərir.

Region ölkələrinin iqtisadi modellərində bir sıra oxşarlıqlar – enerji resurslarının ixracı, aqrar və tekstil sənayesinə yönəlmə, ixracın xammal yönümlülüyü – müşahidə edilir. Bu isə komplementar iqtisadi strukturlar əsasında qarşılıqlı ticarətin dərinləşdirilməsi və ixtisaslaşmış inteqrasiya layihələrinin reallaşdırılması üçün zəmin yaradır.

***Enerji ehtiyatları və "yaşıl keçid" imkanları***

ECO regionu zəngin enerji ehtiyatlarına malikdir və dünya miqyasında mühüm rol oynayır. Bu ölkələr zəngin enerji ehtiyatları ilə tanınır, xüsusilə neft, təbi qaz və kömür sahəsində geniş sərvətlərə malikdir. Lakin, bərpa olunan enerji mənbələrinə keçid, onların gələcək inkişafı və ekoloji davamlılığı üçün vacib bir addımdır. Türkiyə, Azərbaycan, Özbəkistan və Qırğızıstan kimi ölkələr külək, günəş və hidroenerji sahələrində inkişaf potensialına malikdirlər. Bu, onlara yaşıl keçid prosesini gücləndirmək üçün böyük fürsətlərə verir.

Yaşıl keçid həm ekoloji təsirləri azaldır, həm də iqtisadiyyatın diversifikasiyasını təmin edir. Bu keçid bərpa olunan enerji sahəsində yeni iş yerlərinin yaradılmasına, enerji ixracının artırılmasına və enerji təhlükəsizliyinin möhkəmlənməsinə imkan yaradır. Azərbaycan regionda bu sahədə mühüm irəliləyişlərə malik olması ilə fərqlənir. ECO ölkələri enerji istehsalında təmiz texnologiyaların tətbiqi ilə həm daxili bazarlarını gücləndirə, həm də beynəlxalq ticarətdə rəqabət üstünlüyü əldə edə bilərlər.

Üzv ölkələr üçün yaşıl keçid yalnız təbii sərvətlərdən daha səmərəli istifadəni və yeni iqtisadi sahələrə sərmayə qoyulmasını, eləcə də dayanıqlı inkişaf modelinə keçid baxımından mühüm bir addımdır. Bu ölkələr yaşıl enerji texnologiyalarına investisiya qoymaqla ekoloji və iqtisadi baxımdan daha dayanıqlı bir gələcək qura bilərlər.

***Azərbaycanın bərpa olunan enerji sektorunda investisiya imkanları və regional əməkdaşlıq perspektivləri***

Azərbaycan bərpa olunan enerji sahəsində yüksək potensiala malik bir ölkə kimi yaşıl iqtisadiyyatın inkişafını sürətləndirmək və enerji istehsalını diversifikasiya etmək məqsədilə müxtəlif təşəbbüslər həyata keçirir. Bu sahəyə sərmayələrin cəlbi həm daxili iqtisadiyyatın gücləndirilməsi, həm də regionda enerji təhlükəsizliyinin təmin edilməsi üçün vacibdir. Günəş, külək, hidroenerji və biomassa enerjisi sahələrində geniş potensial mövcuddur və bu sahələrdəki sərmayələr, həm ekoloji dayanıqlılığı təmin edəcək, həm də iqtisadiyyatın şaxələndirilməsinə töhfə verəcəkdir. Dövlətin xarici investorları cəlb etmək üçün təqdim etdiyi vergi güzəştləri, sərmayə sığortası və texnoloji əməkdaşlıq proqramları bu prosesin sürətlənməsinə və müvafiq sahələrin inkişafına imkan yaradır.

Bundan əlavə, ECO-nun beynəlxalq platformalarla əməkdaşlıq edərək həyata keçirdiyi regional və qlobal təşəbbüslər ölkənin geoiqtisadi liderlik mövqeyini daha da gücləndirir. Azərbaycanın yaşıl iqtisadiyyata keçidi yalnız enerji sektorunun deyil, həm də iqtisadi şaxələndirmə və sosial rifahın artırılması üçün vacibdir. Bu balanslaşdırılmış yanaşma ölkənin regional və beynəlxalq səviyyədə daha dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi modelə çevrilməsinə şərait yaradır. Yaşıl keçid ekoloji təsirləri azaldaraq iqtisadi inkişafın əsasını təşkil edir ki, bu da Azərbaycanın gələcəyini daha güclü və davamlı edir.

***Nəqliyyat və logistika: regional tranzitin strateji rolu***

ECO regionu Avrasiya qitəsində Şərq ilə Qərb, Şimal ilə Cənub arasında strateji tranzit koridorudur. Üzv ölkələr Avropa, Asiya və Yaxın Şərqi birləşdirən əsas nəqliyyat dəhlizləri üzərində yerləşir və regionu beynəlxalq ticarətin əsas körpüsünə çevirir. Əsas nəqliyyat dəhlizləri aşağıdakılardır:

Şimal-Cənub Nəqliyyat Dəhlizi (INSTC): İran və Azərbaycan vasitəsilə Hindistan, Rusiya və Avropa istiqamətində yükdaşımalarının məsafəsini və müddətini əhəmiyyətli dərəcədə azaldır.

Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu): Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Türkiyə xətti üzrə Avropaya alternativ marşrut təqdim edir və Çin-Avropa yükdaşımalarında əsas rol oynayır.

Lapis Lazuli Dəhlizi: Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə xətti ilə Əfqanıstanın Avropa bazarlarına çıxışını təmin edir.

Çin-Mərkəzi Asiya-Qərb Dəhlizi: Qazaxıstan, Özbəkistan və Türkmənistan vasitəsilə Çindən Avropaya alternativ torpaq yolu yaradır.

Qazaxıstan regionun ən geniş dəmir yolu şəbəkəsinə malikdir – 20 min kilometrdən çox uzunluqdadır. Azərbaycan isə Bakı-Tbilisi-Qars dəmir yolu ilə Transxəzər dəhlizinin əsas dayaqlarından biridir. Türkiyə isə Mərmərə tuneli və BTQ xətti ilə Avropa-Asiya əlaqələrində logistika mərkəzi funksiyasını həyata keçirir.

Azərbaycan Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Digital Silk Way layihəsi və Ələt Azad İqtisadi Zonası ilə tranzit mövqeyini daha da möhkəmləndirmişdir. 2023-cü ildə BTQ xətti ilə 1 milyon ton yük daşınmışdır. Ekspertlərin proqnozlarına görə, Orta Dəhlizin tam işləməsi Azərbaycanın tranzit gəlirlərini ildə 1,5-2 milyard ABŞ dolları səviyyəsinə qaldıra bilər.

## ECO platformasında Azərbaycanın geoiqtisadi lokomotiv rolu

Azərbaycan ECO çərçivəsində enerji, nəqliyyat, logistika və rəqəmsal sahələrdə mühüm təşəbbüslərlə çıxış edir. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Azad İqtisadi Zonası, Cənub Qaz Dəhlizi və Digital Silk Way kimi layihələr Azərbaycanın ECO daxilində lokomotiv rolunu oynadığını sübut edir.

İqtisadi ədəbiyyatda geniş istifadə olunan "regional liderlik" anlayışı çərçivəsində (Richard Baldwin və Paul Collier kimi alimlərin yanaşmaları əsasında) Azərbaycan tədricən logistik və enerji axınlarını koordinasiya edən, texnoloji və infrastruktur əsaslı regional iqtisadi birləşməni təşviq edən əsas aktora çevrilmişdir. Bu, həm də «aşağıdan yuxarıya inteqrasiya» modelinin praktik təcəssümüdür – yəni, real iqtisadi layihələr vasitəsilə siyasi-institusional yaxınlaşmanın təmin edilməsini ifadə edir.

Beynəlxalq ticarətdə "hub-and-spoke" modelləri baxımından Azərbaycan bir mərkəz rolunu oynayaraq ətraf ölkələrlə simmetrik əlaqələr qurur. Məsələn, Türkiyə ECO çərçivəsində iqtisadi və nəqliyyat qovşağı ("hub") kimi çıxış edir, digər ECO ölkələri isə "spoke" rolunda çıxış edərək bu mərkəz vasitəsilə Avropa və Qərb bazarlarına çıxış əldə edirlər. Azərbaycan da enerji və nəqliyyat infrastrukturu ilə Orta Asiya ölkələri üçün "hub" funksiyasını yerinə yetirir. Bakını logistika mərkəzinə çevrilməsi də Transxəzər Orta Dəhliz daxilində hub roluna uyğundur. İnvestisiyalar birbaşa bütün ölkələrə deyil, regional maliyyə və innovasiya mərkəzləri vasitəsilə paylandığı üçün İstanbul və Bakı bu sahədə "hub" funksiyasını yerinə yetirə bilər. Bu isə regional dəyər zəncirlərinin formalaşmasına mühüm şərait yaradır.

Bu kontekstdə Avropa İttifaqının təcrübəsi xüsusilə diqqətəlayiqdir. Aİ ölkələri vahid bazar, gömrük ittifaqı və ortaq monetar siyasətlə dərin iqtisadi inteqrasiyaya nail olmuşlar. ECO isə hələ ilkin mərhələdədir və Aİ-nin tədrici inteqrasiya modeli ECO üçün nümunəvi "yol xəritəsi" ola bilər. ASEAN isə "ASEAN Way" prinsipi çərçivəsində konsensus və qeyri-məcburi mexanizmlər üzərində qurulmuş əməkdaşlıq forması ilə daha çevik inteqrasiya modelini tətbiq edir.

Azərbaycan ECO daxilində bu çevik və mərhələli yanaşmanı təşviq edərək ticarət və enerji sahələrində praktik tərəfdaşlıqları genişləndirir. Buna nümunə olaraq Bakı-Tbilisi-Qars dəmir yolunun və Cənub Qaz Dəhlizinin istifadəyə verilməsini göstərmək olar. Sözügedən layihələrin reallaşması Azərbaycanın ***ECO-da mərkəzi rolunu gücləndirərək regionda ticarət əlaqələrinin artırılmasına imkan verir. Bu layihələr həm də Azərbaycanın enerji və tranzit sahələrində nə qədər güclü mövqeyə sahib olduğunu göstərir.***

## Azərbaycanın iqtisadi şaxələndirmə strategiyası və ECO ilə əməkdaşlıq

Azərbaycanın yeni iqtisadi inkişaf mərhələsinin əsas prioritetlərindən biri iqtisadiyyatın şaxələndirilməsi strategiyasıdır. Qeyri-neft sektorunun inkişafı dayanıqlı iqtisadi artımın təmin edilməsi, regional inkişafın bərabər səviyyədə həyata keçirilməsi və rəqabətqabiliyyətliyin yüksəldilməsi məqsədlərinə xidmət edir. Bu istiqamətdə həyata keçirilən əsas təşəbbüslər aşağıdakı sahələri əhatə edir:

***Qeyri-neft sənayesi və texnoparklar: ECO məkanında sənaye inteqrasiyasının nümunəsi***

Azərbaycanın sənaye siyasətinin əsas elementlərindən biri Azad İqtisadi Zonalar və texnoparkların inkişafıdır. Ələt Azad İqtisadi Zonası, Sumqayıt Kimya Sənaye Parkı, Pirallahı Sənaye Parkı kimi müasir sənaye klasterləri ECO regionu ilə texnologiya transferi və ixrac yönümlü əməkdaşlıq üçün strateji platforma funksiyasını yerinə yetirir. Bu zonalarda istehsal olunan məhsulların bir hissəsi artıq Türkiyə, Qazaxıstan, Özbəkistan kimi ECO üzv ölkələrinə ixrac edilir. ECO çərçivəsində birgə sənaye layihələrinin təşviqi, ticarət rejimlərinin sadələşdirilməsi və texniki tənzimləmələrin harmonizasiyası Azərbaycanın qeyri-neft sənayesinin regional bazarlara daha sürətli inteqrasiyasını təmin edə bilər.

***Aqrar sektor və ərzaq təhlükəsizliyi: Regional ərzaq dəyərlər zəncirində mövqe***

Azərbaycan kənd təsərrüfatının modernləşdirilməsi və aqrar klaster yanaşması əsasında inkişafı sayəsində ərzaq ixracatçısına çevrilməkdədir. Suvarma sistemlərinin rəqəmsalv əsasda qurulması, toxumçuluq və üzvi məhsul istehsalı sahəsində görülən tədbirlər ECO daxilində ərzaq təhlükəsizliyi və aqrar texnologiyalar üzrə əməkdaşlığı genişləndirmək üçün baza formalaşdırır. Xüsusilə Tacikistan, Qırğızıstan və Əfqanıstan kimi ərzaq idxalına yüksək səviyyədə bağlı olan ölkələrlə Azərbaycanın kənd təsərrüfatı məhsullarının tədarükü, aqrar təlimlər və texniki yardım proqramları çərçivəsində inteqrasiyası mümkündür.

***Rəqəmsal iqtisadiyyat: ECO-nun rəqəmsal qovşağına çevrilmək***

Azərbaycanın "Digital Silk Way" təşəbbüsü və "elektron hökumət" infrastrukturu ölkəni ECO regionunda rəqəmsal transformasiyanın lokomotivi halına gətirməkdədir. Fiber-optik infrastrukturun genişləndirilməsi, məlumat mərkəzlərinin qurulması və startap ekosisteminin inkişafı ECO məkanında rəqəmsal əməkdaşlıq üçün "hub-and-spoke" modelinin tətbiqinə imkan yaradır. Azərbaycan bu sahədə Özbəkistan, Qazaxıstan, Pakistan kimi ölkələrlə rəqəmsal bacarıqların transferi, birgə startap fondları və texnologiya parklarının əlaqələndirilməsi istiqamətində əməkdaşlığı genişləndirə bilər.

***Alternativ enerji və ECO üzrə yaşıl sinerji***

Azərbaycanın "yaşıl enerji" strategiyası – xüsusilə Qarabağ və Şərqi Zəngəzur bölgələrinin yaşıl enerji zonaları elan olunması – ölkənin bərpa olunan enerji ixracatçısı potensialını artırır. Günəş, külək və hidroenerji layihələri ECO Enerji Strategiyası (2024+) ilə uyğunluq təşkil edir. ECO ölkələri arasında elektrik enerjisinin ticarəti, yaşıl investisiya fondları və texnologiya transferi üzrə əməkdaşlıq çərçivələri Azərbaycanın regional yaşıl enerji mərkəzinə çevrilməsinə töhfə verə bilər. Eyni zamanda, bu təşəbbüslər ECO Dayanıqlı İnkişaf Hədəfləri ilə də uyğunluq təşkil edir.

Göründüyü kimi, Azərbaycanın iqtisadi şaxələndirmə siyasəti təkcə daxili inkişafla məhdudlaşmır, eyni zamanda ECO məkanında iqtisadi sinerji, innovasiya və davamlı tərəfdaşlıq imkanları yaradır. Bu strategiya çərçivəsində: ECO ölkələri ilə sənaye kooperasiyası, yaşıl iqtisadiyyat və enerji keçidi sahəsində texniki əməkdaşlıq, rəqəmsal texnologiyalar üzrə təlim və pilot layihələr, və ərzaq təhlükəsizliyi zəncirinin birgə təşkili mümkün perspektivlər kimi formalaşır. Ölkəmizin bu çərçivədə lokal təşəbbüskardan regional təşəbbüskar və koordinasiyaçıya çevrilməsi, həm ECO-nun institusional möhkəmlənməsinə, həm də regionun dayanıqlı iqtisadi inteqrasiyasına töhfə verəcəkdir.

## Xankəndidən başlayan yeni strateji tranzit və logistika marşrutları

Azərbaycan ECO regionunun ən mühüm tranzit ölkəsi olmaqla beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında mühüm rol oynayır. Yerləşdiyi coğrafi mövqe onu Şərq ilə Qərb, Şimal ilə Cənub arasında strateji tranzit nöqtəsi halına gətirir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Şimal-Cənub və Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) kimi layihələr, Azərbaycanın tranzit potensialını artırır və qlobal ticarət əlaqələrini daha da möhkəmləndirir.

Dünyada tanınmış alimlərdən olan David Ricardo və Heckscher-Ohlin nəzəriyyələri deməyə imkan verir ki, Azərbaycanın tranzit potensialı eyni zamanda onun nisbi üstünlüyü olan coğrafi mövqeyinə əsaslanır. Müasir dövrdə bu üstünlük informasiya və rəqəmsal infrastrukturlar vasitəsilə daha da gücləndirilir. Bunun nəticəsində ölkəmiz həm də logistik xidmətlər təklif edən yüksək əlavə dəyər yaradan aktora çevrilir.

Burada mühüm bir faktı qeyd etmək yerinə düşərdi. Xankəndi Zirvəsi sonrası Qarabağ və Şərqi Zəngəzur bölgələri Orta Dəhliz və Şimal-Cənub dəhlizlərində daha da mühüm mövqelərə sahib olacaq. Bu coğrafi mövqelər Azərbaycanın tranzit imkanlarını yalnız yük daşımalarından deyil, yüksək dəyərli logistika xidmətləri təqdim edən bir mərkəzə çevirməyə imkan yaradır.

**Riçard Baldvinin şəbəkə nəzəriyyəsinə uyğun olaraq, Azərbaycanda logistikanın inkişafı ticarət axınlarını sürətləndirəcək və ECO ölkələri arasında iqtisadi əlaqələri daha da gücləndirəcək. Xankəndi Zirvəsi bu tranzit marşrutlarının inkişafına dair yeni addımların atılmasına şərait yaradır və Azərbaycanın tranzit gəlirlərinin artırılmasına imkan verir. Azərbaycan, həmçinin bu marşrutları daha çevik və effektiv şəkildə idarə etməklə, beynəlxalq bazarlarda daha möhkəm yer tutacaqdır.**

## Tarixi irsin müasir inkişaf kursuna transformasiyası

Azərbaycanın geoiqtisadi mövqeyi yalnız bu günə aid bir fenomen deyil. Əslində ölkənin sahib olduğu iqtisadi güc və liderlik mövqeyi uzun illər əvvəl qurulmuş strateji təməllər əsasında inkişaf etmişdir. Azərbaycanın yerləşdiyi coğrafi mövqe, xüsusən də İpək Yolunun üzərindəki tarixi rolu bu gün də ölkəni həm enerji, həm də ticarət əlaqələri sahəsində mərkəzi aktora çevirir.

İstər enerji ehtiyatları, istərsə də nəqliyyat və logistika dəhlizləri sahəsindəki mövqeyi Azərbaycanın tarixi irsi ilə bağlıdır. Bu irs ölkənin strateji coğrafi mövqeyinin müasir dövrdə necə istifadə edildiyini və iqtisadi əlaqələrin inkişafını necə təmin etdiyini aydınlaşdırır. Məhz bu səbəbdən ölkənin geoiqtisadi strategiyası yalnız tarixi əsaslarla deyil, həm də müasir iqtisadi model və global çağırışlara cavab verən siyasət ilə uyğunlaşdırılaraq inkişaf etmişdir.

Məlum olduğu kimi, Azərbaycanın enerji müstəqilliyinin təmin edilməsi ilə yanaşı, regional və beynəlxalq əlaqələrin gücləndirilməsi Ulu Öndər H.Əliyevin strateji baxışında prioritetlərdən biri olmuşdur. Bununla həm də müasir inkişafın təməli qoyulmuşdur. Prezident İlham Əliyevin rəhbərliyi ilə enerji sektoru, yaşıl iqtisadiyyat və rəqəmsal transformasiya sahəsində əldə olunmuş irəliləyişlər bu strateji irsin müasir dövrə adaptasiya olunmasını təmin edilmişdir.

Hazırda Azərbaycanın geoiqtisadi mövqeyi yalnız neft və qaz ehtiyatları ilə deyil, həm də bərpaolunan enerji və rəqəmsal texnologiyalar ilə dəstəklənən, daha dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi model üzərində formalaşır. Bu model Azərbaycanın iqtisadi inkişafını həm daxili bazarda, həm də qlobal səviyyədə daha da gücləndirir.

Beləliklə, Azərbaycan tarixi irsini qorumaqla yanaşı, müasir inkişaf kursuna daxil edərək qlobal iqtisadiyyatdakı yerini möhkəmləndirməkdədir. Bu proses, regional əməkdaşlıq və iqtisadi inteqrasiyanın gücləndirilməsində Azərbaycanın liderlik mövqeyini daha da möhkəmləndirəcək və onu qlobal iqtisadiyyatın mərkəzi aktorlarından biri halına gətirəcəkdir.

## Yekun: ECO və regional inkişafın perspektivləri

Azərbaycanın geoiqtisadi mövqeyi enerji və nəqliyyat infrastrukturunun inkişafı, eləcə də yaşıl keçid və rəqəmsal transformasiya sahələrindəki təşəbbüsləri onu regional lider olaraq ön plana çıxarır. Xankəndi Zirvəsi Azərbaycanın ECO çərçivəsindəki liderlik rolunu daha da möhkəmləndirmək və regional iqtisadi inteqrasiyanı dərinləşdirmək üçün mühüm bir mərhələdir. Bu Zirvənin nəticələri İqtisadi Əməkdaşlıq Təşkilatının yeni iqtisadi fəlsəfəyə əsaslanan iqtisadi inteqrasiya modelini həyata keçirməkdə Azərbaycanın təşəbbüskarlığını daha da gücləndirəcəkdir.

Bu prosesdə Azərbaycanın liderliyi, regional iqtisadi əlaqələrin genişlənməsinə, enerji və nəqliyyat sahələrindəki əməkdaşlığın dərinləşməsinə və yaşıl iqtisadiyyata keçid istiqamətində mühüm irəliləyişlərə şərait yaradacaqdır. Xankəndi Zirvəsi, Azərbaycanın ECO-nun inkişafını və regionun qlobal iqtisadiyyatdakı mövqeyini gücləndirən yeni bir mərhələnin başlanğıcı kimi dəyərləndirilə bilər.

# Azərbaycanın külək enerjisi potensialı dünyada 2-cidir



**Son illər ərzində ölkəmizdə bərpaolunan enerji mənbələrinin hərəkətə gətirilməsi istiqamətində bir sıra uğurlara imza atılıb. Təkcə onu qeyd etmək kifayətdir ki, 2024-cü ildə respublikamızın “yaşıl” enerji mənbələri üzrə elektrik enerjisi istehsalı əvvəlki ilə nisbətən 1 milyard 728,7 milyon kilovat-saat artaraq 3 milyard 850,9 milyon kilovat-saat olub. Hesabat dövründə ölkənin külək elektrik stansiyalarında (KES) 51,1 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.**

Qeyd edək ki, Azərbaycan ofşor zonalarda külək enerjisi potensialına görə, dünyada 2-ci yerdə qərarlaşıb. Bu, Qlobal Külək Enerjisi Şurasının hazırladığı “Global Wind Report 2022” hesabatında bildirilib. Sənəddə ölkəmizin, təxminən, 157 qiqavat külək enerjisi potensialı olduğu və hökumətin 2030-cu ilə qədər ümumi enerji qoyuluşunda bərpa olunan enerjinin payının 30 faizə çatdırmağı planlaşdırdığı vurğulanıb.

Son dövrlərdə respublikanın bərpa olunan enerji mənbələrinin hərəkətə gətirilməsi istiqamətində atılan uğurlu addımlardan biri də “Xızı–Abşeron” KES-də ilk külək turbinlərinin quraşdırılmasına start verilməsi ilə bağlı olub. Stansiyanın inşa edildiyi ərazidə il ərzində 3 külək turbininin quraşdırılması işləri tamamlanıb. Ümumilikdə isə burada hər birinin gücü 6,5 meqavat olan 40 turbinin quraşdırılması planlaşdırılıb. 240 meqavatlıq sənaye miqyaslı külək parkının cari ildə tam istismara verilməsi də nəzərdə tutulub.

İlkin hesablamalara görə, stansiyada ildə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu isə il ərzində 220 milyon kubmetr təbii qaza qənaət etməyə, 400 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa imkan verəcək. “Abşeron–Qaradağ” KES-in layihə gücü isə 240 meqavat təşkil edəcək. Layihə dəyəri 285 milyon dollar təşkil edən stansiyada il ərzində 2305 kilovat-saat təmiz enerji istehsal olunacaq ki, bu da 165 milyon kubmetr təbii qaza qənaət etməyə imkan verəcək. Eyni zamanda, stansiyanın işə düşməsi ilə il ərzində 314 min ton karbon emissiyası azalacaq. 153 min evin elektrik enerjisi ilə təchizatı da məhz bu stansiya vasitəsilə həyata keçiriləcək.

Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətinin Azərbaycan və Türkiyə üzrə baş direktoru Selim Güven bildirib ki, gələn ay “Xızı–Abşeron” KES-də mərhələli istehsala başlanılacağı nəzərdə tutulur. Baş direktor əlavə edib ki, ilk külək turbini 2024-cü ilin noyabrında quraşdırılıb. Bu günə qədər isə Abşeron rayonundakı (Qobustan) ərazidə 12 turbinin işə salınması başa çatdırılıb, onların cari ilin üçüncü rübündə istismara veriləcəyi planlaşdırılıb. Ümumiyyətlə, külək parkının 2025-ci ilin dördüncü rübündə tam istismara verilməsi nəzərdə tutulub.

240 MVt gücündə olan “Xızı–Abşeron” KES layihəsi Azərbaycanda müstəqil əsasda yaradılan ilk iri-miqyaslı külək enerjisi layihəsidir və müstəqil enerji istehsalı modeli əsasında həyata keçirilir. Bu layihə ölkənin bərpa olunan enerji mənbələrinə keçid prosesində mühüm rol oynayır.

Tikinti işləri başa çatdırıldıqdan sonra adı çəkilən külək parkı ildə 907 GVt/saat təmiz elektrik enerjisi istehsal edəcək ki, bu da 300 mindən çox ev təsərrüfatına elektrik enerjisi ötürməyə imkan verəcək. “ACWA Power” şirkətinin Azərbaycan və Türkiyə üzrə baş direktoru daha sonra bildirib ki, bu, ildə, təxminən, 400 min ton karbon qazı emissiyalarını azaltmağa şərait yaradacaq. Belə bir göstəricinin əldə olunması isə Azərbaycanın dayanıqlı inkişaf və dekarbonizasiya sahəsində milli hədəflərə nail olmasına töhfə verəcək.

Külək elektrik stansiyası Abşeron və Xızı rayonlarının ərazilərini, o cümlədən Çaylı və Sitalçay kəndlərini əhatə edir. Layihə çərçivəsində 12-si Abşeronda, 25-i isə Xızıda olmaqla 37 külək turbininin quraşdırılması nəzərdə tutulur.

Yeri gəlmişkən, ölkəmizdə dəniz külək enerjisindən istifadəyə də xüsusi önəm verilir. Avropa biznes dairələrinin “BNE Intellinews” (Business New Europe) nəşrində ölkəmizdə dəniz külək enerjisinin inkişaf perspektivlərindən bəhs edən məqalədə də bu barədə geniş söhbət açılır. Yazıda 2022-ci ildə Qlobal Gülək Enerjisi Şurasının (Global Wind Energy Council – GWEC) Avstraliya, Şri-Lanka və Türkiyə kimi ölkələrlə yanaşı, Azərbaycanı da dəniz külək enerjisindən istifadə potensialına görə lider dördlüyə daxil etməsi qeyd olunur.

Nəşrdə 2022-ci ildə keçirilən Bakı Enerji Forumunda Azərbaycanın dəniz külək enerjisinin inkişafı üzrə Yol xəritəsini təqdim etdiyi bildirilib. Azərbaycanın Energetika Nazirliyinin Beynəlxalq Maliyyə Korporasiyası (IFC) və Dünya Bankı ilə birgə hazırladığı həmin Yol xəritəsində 2040-cı ilədək respublikamızın Xəzər şelfində ümumi gücü 7,2 QVt olan dəniz külək stansiyalarının quraşdırılması nəzərdə tutulub.

Qeyd edək ki, bu, Azərbaycanın dekarbonizasiya və davamlı inkişaf sahəsində prioritetlərinə uyğundur. Dəniz külək enerjisinin quraşdırılmış gücü ölkənin enerji təchizatının 37 faizini gerçəkləşdirə bilər. Bundan əlavə, Azərbaycanda dəniz külək enerjisi mülayim templə inkişaf edərək 2040-cı ilədək quraşdırılmış gücünü 1,5 QVt-a çatdıracaq və 7 faiz karbonsuz enerji istehsalına nail olacaq.

Azərbaycanın sözügedən yol xəritəsində dəniz külək enerjisinin potensialından istifadəyə dair tövsiyələr də var. Bunlara 2030 və 2036-cı illər üçün hədəflərin müəyyən edilməsi, 200 MVt gücündə pilot layihənin və daha sonra böyük layihələrin işlənib hazırlanması, dənizdə yeni külək enerjisi imkanlarının açılması, infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinin cəlbi məqsədilə qabaqcıl qlobal təcrübələrin tətbiqinə başlanılması və dayanıqlı dəniz külək layihələri üzrə bir sıra tədbirləri reallaşdırılması, eləcə də bu istiqamətlərdə dövlət təşkilatları əməkdaşlarının bilik və bacarıqlarının artırılması daxildir.

“BNE Intellinews” nəşrində bildirilir ki, 2023-cü ildə Cənub Qaz Dəhlizinin Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu görüşü və Yaşıl Enerji üzrə Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci görüşü zamanı Azərbaycanın Energetika Nazirliyi Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti ilə bir sıra sənədlər, o cümlədən gücü 1,5 QVt-a qədər olan dəniz külək enerjisi layihəsinin həyata keçirilməsinə dair müqavilə imzalayıb. Bu ilin mayında isə ölkəmizin Energetika Nazirliyi ilə “ACWA Power” şirkəti arasında 200 MVt gücündə quruda külək elektrik stansiyasının tikintisi layihəsi üzrə Çərçivə Sazişi təsdiqini tapıb.

Bu il keçirilən Bakı Enerji Forumunda çıxış edən “ACWA Power” şirkətinin vitse-prezidenti və regional direktoru Abid Malik Azərbaycanın bərpa olunan enerji baxımından böyük perspektivə malik olduğunu bildirib. O vurğulayıb ki, siyasi cəhətdən sabit region olması ilə yanaşı, Azərbaycan tranzit marşrutları və dəhlizlərinin üstünlükləri baxımından da çox əlverişlidir və “ACWA Power” üçün əsas ölkədir.

Məqalədə qeyd olunur ki, Azərbaycan hökuməti “yaşıl enerji”yə keçidi sürətləndirməyə və bunu ən səmərəli şəkildə həyata keçirməyə sadiqdir. Dəniz külək enerjisi mədən yanacaqlarına tələbatın labüd azalması fonunda ölkə üçün faydalıdır. Azərbaycan bərpaolunan resurslardan istifadə etməklə istehsal olunacaq enerjinin qlobal ixracatçısına çevrilmək niyyətindədir.

Qeyd edək ki, statistik göstəricilərə görə, Azərbaycanın bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bu göstəricilər iqtisadi potensial üzrə isə 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat və günəş enerjisi üzrə 23 min meqavatdır.

Beləliklə, təkcə “Xızı–Abşeron” KES layihəsinin uğurla gerçəkləşdirilməsi Azərbaycanın “yaşıl” enerji potensialının reallaşdırılmasını diqqətdə saxlamasından xəbər verir. Qeyd edək ki, BMT-nin iqlim dəyişikliyi ilə bağlı çağırışları və Avropa İttifaqının (Aİ) “Yaşıl razılaşma” proqramı “yaşıl” enerjiyə keçidi ölkəmizdə də geosiyasi prioritetlər sırasına çıxarıb.

# Taxıl biçini vaxtında başa çatdırılacaq

## *İyulun 7-dək sahələrdən 2,3 milyon ton məhsul yığılıb*

**Taxıl biçini kənd təsərrüfatının ən mühüm mərhələlərindən biridir. Hazırda ölkənin taxıl zəmilərində məhsul yığımının qızğın çağıdır. Mövsümün əvvəlindən torpağa səpdiyi toxumun cücərib boy atması, sünbülə çevrilməsi üçün gecəni gündüzə qataraq minbir əziyyətə qatlaşan təsərrüfat sahibləri məhsulu vaxtında və itkisiz başa çatdırmaq üçün bütün imkanları səfərbər ediblər.**



Kənd Təsərrüfatı Nazirliyi yanında taxıl biçini ilə əlaqədar yaradılmış mərkəzi qərargahın yaydığı operativ məlumata görə, iyulun 7-dək ölkə üzrə payızlıq taxıl sahələrinin 74,4 faizində biçin başa çatıb. Ötən müddətdə sahələrdən 2 milyon 336 min 704 ton məhsul yığılıb.

Nazirliyin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən isə bildirilib ki, mövsüm ərzində biçin aparılmış 691 min 928 hektar sahə üzrə orta məhsuldarlıq 33,8 sentner təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,9 sentner çoxdur. İndiyədək mexanizatorlar tərəfindən 299 min 401 hektar buğda, 392 min 527 hektar arpa sahəsi biçilib. Həmin sahələrdən 1 milyon 92 min 309 ton buğda və 1 milyon 244 min 394 ton arpa yığılıb. Buğda sahələrinin 60,5 faizində, arpa sahələrinin isə 90,4 faizində biçin yekunlaşıb. Orta məhsuldarlıq buğda üzrə 36,5 sentner/hektar, arpa üzrə isə 31,7 sentner/hektar təşkil edir.

Artıq Ağdaş, Astara, Bərdə, Cəlilabad, Göyçay, Lənkəran, Masallı, Salyan, Ucar və Yevlax rayonlarında biçin tam yekunlaşıb. Ümumilikdə, 22 rayonda taxıl biçininin həcmi 95 faizi keçib, o cümlədən 21 rayonda buğda, 38 rayonda isə arpa sahələrinin 95 faizdən çoxu biçilib.

Hazırda biçin prosesində 1153 kombayn iştirak edir. Bunlardan 439-u “Aqroservis” Açıq Səhmdar Cəmiyyətinin, 714-ü isə fiziki və hüquqi şəxslərin mülkiyyətində olan texnikalardır. Operativ məlumata əsasən, hazırda ən fəal biçin aparılan Şəki, İsmayıllı, Qusar, Tovuz, Qəbələ, Oğuz, Xaçmaz, Şamaxı və Füzuli rayonlarında texnikadan daha çox istifadə olunur.

Ölkə üzrə biçin prosesinin optimal müddətdə başa çatacağı proqnozlaşdırılır.

# Şəmkirdə Aqrar Biznes Festivalı

**Ölkəmizdə kənd təsərrüfatının inkişafına, yerli məhsulların tanıdılmasına və aqrar sahibkarlığın təşviqinə xidmət məqsədi daşıyan növbəti Aqrar Biznes Festivalı Şəmkir rayonunda keçirilib.**



Nazirliyin Aqrar İnnovasiya Mərkəzi, Şəmkir Rayon İcra Hakimiyyəti və Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən festivalın əsas məqsədi regionun kənd təsərrüfatı potensialını tanıtmaq, aqrar sahəyə investisiya cəlb etmək, yerli məhsulların daxili və xarici bazarlara çıxışını genişləndirmək, həmçinin fermerlərlə biznes qurumları arasında əməkdaşlığı gücləndirmək olub.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, festival çərçivəsində yerli fermerlər, aqrar sahədə fəaliyyət göstərən müəssisələr və kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan şirkətlər öz məhsullarını və xidmətlərini nümayiş etdiriblər. Biznes festivalında Şəmkir rayonunun zəngin tərəvəz çeşidləri – pomidor, xiyar, bibər, badımcan və digər yerli məhsullar təqdim olunub. Festivalda Qazax – Tovuz iqtisadi rayonuna daxil olan Şəmkir, Ağstafa, Gədəbəy, Qazax, Tovuz rayonlarından fermerlər və yerli rayon sakinləri iştirak ediblər.

Aqrar Biznes Festivalı çərçivəsində aqrar sahəyə dair müasir kənd təsərrüfatı texnika və texnologiyalar, yüksək məhsuldar toxum nümunələri, orqanik və mineral gübrələr, eləcə də bitki mühafizə vasitələri sərgilənib. Festival iştirakçıları yerli fermerlərin yüksək keyfiyyətli, ekoloji cəhətdən təmiz məhsulları ilə tanış olmaq və birbaşa istehsalçılardan alış etmək imkanı əldə ediblər. Festivalda kənd təsərrüfatı məhsullarının sərgisi ilə yanaşı, istixana sahibləri və fermer təsərrüfatlarının dəstəyi ilə festival ziyarətçiləri üçün açıq havada ziyafət təşkil edilib.

Festivalın açılış mərasimində çıxış edən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev bildirib ki, Şəmkir rayonunda kənd təsərrüfatı iqtisadiyyatın əsasını təşkil edir. O, bu festivalın gələcəkdə regionun iqtisadi və sosial inkişafına mühüm töhfə verəcəyinə əmin olduğunu deyib.

Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov isə qeyd edib ki, festivallar yerli sahibkarlar, aqrar məhsul istehsalçıları üçün faydalı əməkdaşlıq imkanları yaradır: “Bizim məqsədimiz kənd təsərrüfatının innovativ inkişafını təşviq etmək və fermerlərə dəstək olmaqdır. İnnovasiyalar sadəcə texnika və texnologiyalarla məhdudlaşmır – yeni yanaşmalar, bazara çıxış modelləri və fermerlərimizin biliklərinin artırılması da əsas prioritetlərimizdəndir. Biz fermerlərimizin yalnız məhsul istehsalçısı deyil, eyni zamanda bir sahibkar, bir yenilikçi kimi inkişaf etməsini istəyirik”.

Rəsmi açılışdan sonra sərgi təşkilatçıları və rəsmi nümayəndələr stendləri ziyarət ediblər. Festivalın ənənəsinə uyğun olaraq bank və bank olmayan kredit təşkilatlarının və dövlətin maliyyə qurumlarının iştirakı ilə kredit yarmarkası təşkil edilib. Kredit yarmarkası ilə yanaşı, dövlət və özəl maliyyə qurumlarının iştirakı ilə “Dövlətin maliyyə mexanizmləri” mövzusunda panel müzakirə keçirilib.

# “Abşeron” 4 ildə ölkəyə 5 milyard kubmetr qaz verəcək



**İqtisadiyyat naziri Mikayıl Cabbarov “CNN Business Arabic”ə müsahibəsində Xəzər dənizinin Azərbaycan sektorundakı nəhəng “Abşeron” qaz yatağında hasilatın 2028-ci ilin sonunadək illik 5 milyard kubmetrə çatacağını bildirib. Onun sözlərinə görə, 2024-cü ildə “Abşeron” yatağından 0,6 milyon ton kondensat, 1,5 milyard kubmetr qaz hasil edilib. Bu ilin yanvar – aprel aylarında isə bu yataqdan 0,2 milyon ton kondensat və 0,5 milyard kubmetr təbii qaz çıxarılıb.**

Qeyd edək ki, 2023-cü ildə “Abşeron” yatağında hasilata başlanılıb və birinci mərhələdə 1,5 milyard kubmetr qaz çıxarılıb. Hazırda Azərbaycan Dövlət Neft Şirkəti və “Total” yatağın tam işlənməsi üzərində çalışır. Bu il isə yekun investisiya qərarının qəbul ediləcəyi gözlənilir.

Fransanın “TotalEnergies” və Dövlət Neft Şirkəti tərəfindən 2023-cü il iyulun 10-da yatağın işlənməsinin birinci mərhələsi çərçivəsində qaz və kondensat hasilatına başlanıldığı elan edilib. Hazırda yatağın işlənməsinin ikinci mərhələsinə start verilib. Bu mərhələdə hasil olunacaq qazın Azərbaycanın daxili bazarına yönəldiləcəyi nəzərdə tutulub.

Xatırladaq ki, Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan, təxminən, 100 kilometr cənub-şərqdə yerləşən “Abşeron” yatağı “JOCAP – Absheron Petroleum” birgə əməliyyat şirkəti tərəfindən istismar olunur. Yataqdan ilk qaz 2023-cü ilin iyul ayının əvvəlində əldə edilib.

2023-cü ilin avqust ayında Əbu-Dabi Milli Neft Şirkəti Azərbaycan Dövlət Neft Şirkəti və “TotalEnergies” ilə “Abşeron” yatağında ümumilikdə 30 faiz iştirak payının alınması haqqında saziş imzalayıb. “TotalEnergies” və Azərbaycan Dövlət Neft Şirkətinin hər birinin layihədə payı 35 faiz təşkil edir.

# 2 KOB subyekti də “Startap”çı oldu







**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) məlumatına görə, adı çəkilən qurumun Ekspertlər Şurasının növbəti iclasında 7 layihəyə baxılıb və onlardan 2-nə “Startap” şəhadətnaməsinin verilməsi barədə qərar qəbul olunub.**

“Startap” şəhadətnamələri “İloyal” MMC-nin müştəri loyallığı, eləcə də rəqəmsal menyu idarəetmə platforması və fərdi sahibkar Cəmil Muradovun qida və qeyri-qida məhsullarının satışı üzrə onlayn “marketpleys” və çatdırılma xidməti layihələri üçün təqdim edilib. Ümumilikdə, indiyədək KOBİA tərəfindən 215 KOB subyektinə “Startap” şəhadətnaməsi verilib.

Xatırladaq ki, “Startap” şəhadətnamələrinə əsasən, KOB subyektləri adı çəkilən sənədi aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad olunurlar.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Anadilli mediamız xalqımızın misilsiz mənəvi sərvətidir

**Azərbaycan milli mətbuatının yaranmasının 150-ci ildönümü ərəfəsində əlamətdar yubileylə bağlı müsahibimiz görkəmli jurnalistika nəzəriyyəçisi, Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin kafedra müdiri, Prezidentin fərdi təqaüdçüsü, “Şöhrət” ordenli Cahangir Məmmədlidir. Jurnalistlərin bir neçə nəslinin müəllimi, milli mediamızın son 70 illik fəaliyyətinin canlı şahidi və mütəxəssis izləyicisi olan ustad qələm sahibi ilə söhbətə belə bir sualla başladıq:**



**– Azərbaycanın tanınmış jurnalisti, ali mükafatlara layiq görülmüş filologiya elmləri doktoru, professor Cahangir Məmmədli milli mətbuatımızın 150 illik yubileyini necə qarşılayır?**

– Milli mətbuatımızın 150 illik yubileyini böyük qürur hissi ilə qarşılayıram. Milli mətbuatımızın 150 illik yubileyi mənim üçün təkcə bir tarix deyil, həm də xalqımızın maariflənməsi, düşüncəsinin formalaşması və milli kimliyimizin təbliği baxımından böyük əhəmiyyət daşıyan mühüm bir mərhələdir. Bu əlamətdar hadisə təkcə jurnalistikanın deyil, bütövlükdə Azərbaycan xalqının mədəni-mənəvi tarixinin bir parçasıdır. Milli mətbuatın 150 illik yubileyi Həsən bəy Zərdabinin 1875-ci ildə “Əkinçi” qəzetini nəşr etməsi ilə başlanan maarifçilik yolunun davamı edib bu günə çatması kimi qiymətlidir.

Bu yubiley yalnız keçmişə qayıdış deyil, həm də bu günün və gələcəyin jurnalistikasına ciddi mesajdır. Həm də milli mətbuatın inkişaf yolunu, keçdiyi mərhələləri, ideya istiqamətlərini və cəmiyyətə təsir imkanlarını dərindən təhlil etmək üçün bir fürsətdir. Bu yubiley həm də Həsən bəy Zərdabidən başlayaraq bu günə qədər sözün gücünə inanan, qələmini xalqın xidmətinə verən bütün qələm sahiblərinə bir ehtiram ifadəsidir.



**– “Əkinçi” qəzetinin nəşri ilə başlanan milli mətbuatımız əsryarımlıq tarixində hansı mərhələlərdən keçib?**

– 1875-ci ildə Həsən bəy Zərdabinin təşəbbüsü ilə nəşr olunan “Əkinçi” qəzeti Azərbaycan milli mətbuatının əsasını qoydu və bu hadisə milli oyanışın, maarifçiliyin və ictimai fikirin formalaşmasının başlanğıcı oldu. Bu 150 illik tarixi aşağıdakı mərhələlərə bölmək olar: maarifçilik və milli oyanış dövrü (1875–1905); ictimai-siyasi mübarizə və mətbuatın demokratik inkişaf dövrü (1905–1920); sovet dövrü və mətbuatın ideoloji nəzarətdə olması (1920–1991); müstəqillik dövrü və mətbuatın liberallaşması (1991–2000-ci illər); müasir dövr – rəqəmsallaşma və yeni informasiya mühiti (2000-ci illərin sonlarından bu günə qədər). Ola bilsin, bəzi əlavələr də etmək olar, amma mətbuat tariximizin zəngin tarixi bu cür görünür.

Azərbaycan milli mətbuatı 150 illik inkişaf yolu keçərək maarifçilikdən rəqəmsal mediaya qədər mühüm mərhələləri yaşayıb. Bu tarixi yol xalqın siyasi və mədəni şüurunun formalaşmasında əvəzsiz rol oynayıb. “Əkinçi” qəzetindən başlanan bu yol, bu gün də müstəqil, obyektiv və peşəkar medianın inkişafına aparan bir yoldur.

**– Bu mərhələlərdən hansı daha çox demokratik olub?**

– 150 illik Azərbaycan mətbuat tarixi boyunca müxtəlif dövrlər özünün fərqli ictimai-siyasi və mədəni çalarları ilə seçilsə də, demokratik prinsiplərin daha aydın şəkildə təzahür etdiyi dövrlər məhduddur. 1905–1920-ci illəri – “İctimai-siyasi mübarizə və mətbuatın demokratik inkişaf dövrü” kimi təqdim olunan mərhələni ən çox demokratik xüsusiyyətlərə malik dövr kimi qiymətləndirmək mümkündür. Xüsusi vurğulanmalıdır ki, 1918–1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə mətbuat azad idi, tam senzurasız idi. AXC mətbuat azadlığını hüquqi cəhətdən tanımış və müxtəlif siyasi spektrə malik qəzetlər nəşr olunmuşdur. Amma sadaladığımız mərhələləri təhlil etdikdə, ən çox demokratik adlandırıla biləcək dövr kimi 1991–2000-ci illər – müstəqillik dövründə mətbuatın liberallaşması mərhələsi ön plana çıxır.

**– Bəs sovet dövrü mətbuatı ilə müstəqillik epoxası mediası arasında hansı fərq və ənənə bağlılığı var?**

– Bu gün ən çox üzləşdiyimiz suallardandır bu. Sovet dövründə mətbuatın funksiyası və missiyası ilə müstəqillikdən sonrakı dövrün mətbuat modeli arasında ciddi fərqlər var, yığcam olaraq bunları demək olar. Sovet dövründə mətbuat dövlətin ideoloji aləti kimi çıxış edirdi. Əsas məqsədi kommunist ideologiyasını təbliğ etmək, sovet həyat tərzini tərifləmək və əhalini vahid fikrə yönəltmək idi. Mətbuat senzura altındaydı və tənqidə yer yox idi. Bütün mətbuat orqanları birbaşa partiya və dövlət tərəfindən idarə olunurdu. Mətbuat daha çox informasiya ötürən deyil, rejimin təbliğatını yayan və əhalini yönləndirən vasitə idi, rəsmi senzura mövcud idi. Yalnız dövlətin təsdiq etdiyi məlumatlar yayımlanırdı və s.

Müstəqillikdən sonra media plüralizm və fikir azadlığı üçün zəmin yaranmağa başladı. Fərqli baxışları əks etdirən qəzet, televiziya və onlayn platformalar ortaya çıxdı. Mətbuat tədricən cəmiyyətin maraqlarını ifadə etməyə və ictimai nəzarət funksiyasını yerinə yetirməyə başladı. Jurnalistlər daha sərbəst fəaliyyət göstərməyə başladılar. Özəl media qurumları yarandı, lakin iqtisadi təzyiqlər hələ də medianın müstəqilliyini məhdudlaşdıra bilir. Mətbuatın əsas funksiyası informasiya vermək, araşdırma aparmaq, hökumət və ictimai institutlar üzərində nəzarət mexanizmi kimi çıxış etməkdir.

Sovet dövrünün mətbuatı bir ideologiyanın təbliğat maşını idisə, müstəqillik dövründə mətbuat getdikcə daha çox ictimai maraqlara xidmət edir.

**– Jurnalistlərə uzun illər dərs demisiniz, indi Azərbaycan mətbuatında çalışanların hamısının müəllimi olmusunuz. Bugünkü tələbələr 150 illik zəngin irsi və ənənəni necə davam etdirəcək?**

– Jurnalistlərə uzun illər dərs demək mənə həm böyük bir məsuliyyət, həm də ilhamverici bir təcrübə bəxş edib. Bu gün jurnalistika tələbələrində məni sevindirən əsas keyfiyyətlərdən biri onların açıq fikirli və texnologiyaya uyğunlaşma bacarığıdır. Onlar sürətlə dəyişən media mühitində sosial medianın, rəqəmsal alətlərin və yeni platformaların imkanlarını yaxşı anlayırlar. Əlavə olaraq, bir çox tələbələr artıq tələbəlik dövründə aktiv olaraq məqalələr yazır, videolar çəkir, podkastlar hazırlayır – yəni real təcrübə toplayırlar.

Digər tərəfdən, çatışmazlıqlar da var ki, bunlar zaman-zaman məni narahat edir. Məsələn, jurnalistikanın əsas prinsipləri – obyektivlik, faktlara əsaslanmaq, mənbələrlə düzgün işləmək kimi dəyərlərin bəzən arxa planda qalması müşahidə olunur. Bəzən gənc jurnalistlər sensasiyaya və ya tez tanınmağa daha çox üstünlük verirlər, bu isə peşəkar jurnalistika üçün risklidir. Eyni zamanda, oxuma vərdişlərinin zəifləməsi, dərin analitik təhlillərə marağın azalması da diqqətçəkəndir. Buna baxmayaraq, inanıram ki, düzgün istiqamətləndirmə və dəstək ilə bu gənclər Azərbaycan jurnalistikasının daha peşəkar və güvənilən gələcəyini formalaşdıra bilərlər.

**– Sosial media və rəqəmsal platformaların artması ənənəvi jurnalistikanın nüfuzuna ciddi təsir göstərir?**

– Sosial media və rəqəmsal platformaların artması klassik jurnalistikanın nüfuzuna həm müsbət, həm də mənfi təsirlər göstərmişdir. Bu prosesi həm inkişaf, həm də müəyyən dərəcədə təhlükə kimi qiymətləndirmək olar.

Sosial media vasitəsilə xəbərlər daha sürətli yayılır və geniş auditoriyaya çatır. İnsanlar hadisələrdən real vaxtda xəbərdar olurlar. Vətəndaş jurnalistikası yaranıb. Artıq hər bir sosial media istifadəçisi potensial jurnalistə çevrilib. Bu, informasiya mənbələrinin müxtəlifliyini artırır və cəmiyyətin daha aktiv iştirakını təmin edir. Əlaqə və interaktivlik çox artıb.

Amma ciddi təhlükələrlə də üz-üzəyik. Dezinformasiya və feyk xəbərlər sürətlə yayılmaqdadır. Sosial mediada nəzarətsiz və qeyri-rəsmi məlumatların yayılması ictimai rəyə ciddi təsir göstərir, jurnalistikanın etibarlılığına zərbə vurur. Peşəkar jurnalistika kölgədə qalıb. Peşəkar redaktə və fakt yoxlanışı keçməyən paylaşımlar jurnalistikanı “hər kəsin edə biləcəyi” bir sahəyə çevirərək keyfiyyət meyarlarını zəiflədib. Əsas məsələ yeni medianın üstünlüklərindən faydalanaraq, klassik jurnalistikanın prinsiplərini qorumaqdır.

**– Sonda 150 illik yubiley münasibətilə həm həmkarlarınıza, həm də oxuculara nə demək istərdiniz?**

– 150 illik yubiley bizim üçün yalnız keçmişə qürurla baxmaq deyil, eyni zamanda, gələcəyə olan inamımızı, məsuliyyətimizi də ifadə edir. Bu möhtəşəm tarix peşəmizə göstərilən dərin hörmətin, əməyin, zəhmətin və qələmin gücünə olan inamın təcəssümüdür. Jurnalistikanın cəmiyyətin inkişafında, maarifləndirmə və həqiqətin işıqlandırılmasında oynadığı rol bu 150 ildə bir daha sübut olunub. Bu tarixi gün, həm də bizə gələcəyə daha böyük məsuliyyətlə, daha yüksək peşəkarlıqla yanaşmaq zərurətini xatırladır.

Mənim üçün milli mətbuatın yubileyi həm də gənc nəsil jurnalistlərə bir çağırışdır – onlar yalnız informasiya ötürücüsü deyil, həm də milli düşüncənin daşıyıcıları və cəmiyyətin mənəvi bələdçiləri olmalıdırlar. Peşəkar həmkarlarımın dürüstlük, prinsipiallıq və peşəkarlıq prinsiplərinə sadiqliyi ilə öyünürəm. Auditoriya da bizim üçün çox qiymətlidir. Bizim yazdıqlarımız onlar üçün dəyərli olduqca, qələmimizin məsuliyyəti də artır. Onların etibarı, dəstəyi və davamlı marağı bizi irəli aparır.

**– Maraqlı söhbət üçün ustadımıza təşəkkür edirik.**

*Söhbəti apardı:*
***Namiq QƏDİMOĞLU***
***XQ***

# “Ziyayi-Qafqaziyyə” və Ünsizadə qardaşları

**1875-ci ilin 22 iyulunda Bakı şəhərində ana dilində birinci qəzet nəşr olunub. Bununla da Azərbaycan dövrü mətbuatının bünövrəsi qoyulub. Lakin “Əkinçi”nin ömrü cəmi 2 il olub. Bundan 2 il sonra isə Səid Ünsizadənin əzmkarlığı və qətiyyəti ilə Tiflisdə “Ziya” adlı qəzet nəşrə başlayıb.**

Səid Əbdürrəhman oğlu Ünsizadə (1845-1903) Şamaxıda doğulub. Seyid Əzim Şirvaninin Şamaxıdakı “Beytüs-səfa” ədəbi məclisinin, şəhərin “Sünni idarəsi”nin üzvü olub. Dindar bir ziyalı olduğundan “Qiraət” kitabı yazıb. Səid Ünsizadənin maarifçilik xidmətlərindən biri də Şamaxıda yeni üsullu məktəb açması idi. O, məktəbin bütün işlərini yaxın dostu Seyid Əzim Şirvaniyə tapşırıb.

Milli təhsilin və mətbuatın tarixinə dair tədqiqatlarda göstərilir ki, Səid əfəndi Şamaxıda şair təbiətli və dindar şəxs olan atası Əbdürrəhman əfəndinin yanında ibtidai, İraqda isə mükəmməl dini təhsil alıb, ərəb və fars dillərinə dərindən yiyələnib. Şamaxıda sünni idarəsinin üzvü olmuş Hacı Səid Tiflisdə Zaqafqaziya Sünni İdarəsinin üzvü seçilib. O, ictimai fikri formalaşdıran



və millətin ayıq-sayıq olmasına, gələcək inkişafına yol göstərən mətbuatı yüksək qiymətləndirib.

Səid əfəndi 1876-cı ildə Tiflisə köçəndən sonra “1978-ci ilin 4 dekabrında Qafqaz senzura komitəsinə ərizə verərək “Ziya” adlı qəzetin nəşrinə icazə istəyib. 1879-cu ilin 14 yanvarında “Ziya”nın ilk nömrəsi nəşr olunub. Bu, milli mətbuatımızın xronoloji baxımından “Əkinçi”dən sonra ikinci qəzeti idi.

Bu ikili adla nəşr olunan qəzet XIX əsrin ikinci yarısında Azərbaycan xalqının ictimai yaşam tərzini, onun dünyaya baxışını, milli fikir və arzularını əks etdirməyə çalışıb, “öz dövrünün ayinəsi” kimi mövcud gerçəklərin əks etdirilməsinə xidmət edib. Bir sıra qısa və uzunmüddətli fasilələr nəzərə alınmazsa, onun fəaliyyəti 5 il yarım – 1879-cu ilin yanvarından 1984-cü ilin iyununa qədər davam edib. Bu müddətdə qəzet ilyarım daşbasma üsulu ilə nəşr olunub. 5 aydan sonra qəzet “Ziyayi-Qafqaziyyə” başlığı ilə nəşr olunub.

“Ziya” (“Ziyayi-Qafqaziyyə”) nin redakiyası 4 il Tiflisdə, ilyarım Şamaxıda




fəaliyyət göstərmişdir. Qəzetinin nəşri mərkəzi Rusiyada və onun müstəmləkə ucqarlarında inqilabi düşüncənin və radikal fikirlərin təqib olunduğu mürəkkəb tarixi şəraitə təsadüf edib. Ona görə “Əkinçi”dən fərqli olaraq “Ziya” mülayim mövqe tutaraq liberal maarifçi kimi fəaliyyətə başlayıb. Naşir qəzetin fəaliyytini mədəni oyanışa istiqamətləndirib. O, bununla qüvvətlənən maarifçilik hərəkatının tələb və ehtiyaclarına xidmət edib. “Millət və vətənimizin tərəqqisinə, insaniyyət və islamiyyət aləminə” xidmət göstərmək qəzetin əsas məqsədi olub.

Naşir belə hesab edirdi ki, “zəmanənin tərəqqiyə nail olan hərəkatında sürət müşahidə olunur”. Buna görə də o, tərəqqi hərəkatına lazım olan vasitələri hazırlamaq uğrunda mübarizəni qzetin sas məqsədi sayırdı. Onun bu planlarında məktəb, əlifba, dil, dərslik məsələləri aparıcı yer tuturdu. Bu məsələlərin müzakirəsində S.Vəlibəyov, M.Şaxtaxtlı, Sədrəddinbəyov, Məhbus Dərbəndi və başqaları da iştirak edirdi. Fikirlər müxtəlif olsa da, onları yeni dövr Azərbaycan mədəniyyətinin İslam dini və milli zəmində qurulması ideyası birləşdirirdi.

“Ziya”nın səhifələrində S.Ə.Şirvani, H.Zərdabi, İ.Nazir, M.R.Daniş, İ.Nakam, S.Vəlibəyov və s. kimi qabaqcıl ziyalılar iştirak ediblər. Təəssüf ki, 1884-cü ildə bu qəzet də öz fəaliyyətini dayandırmağa məcbur olub.

Tədqiqatçılar onu da bildirirlər ki, sovet dönəmində mətbuat və ədəbiyyat tariximizin araşdırıcıları Ziya” (“Ziyayi-Qafqaziyyə”) qəzetlərinin ideya-siyasi istiqamətlərini obyektiv şəkildə təhlil etməyərək, bu mətbu orqanın yalnız islam ideologiyasını və xurafatı təbliğ etdiyini iddia ediblər. Son araşdırmalar bu deyilənlərin tam əksini ortaya qoyur. “Ziya” (“Ziyayi-Qafqaziyyə”) qəzetinin çox ağır şəraitdə, ciddi senzor basqıları ilə nəşr olunduğu aydınlaşıb. Qafqaz Senzura Komitəsinin “Şərq və yerli dillər” üzrə baş senzoru V.Bezabrazov “Ziya”nın yaradıcılıq mühitinə ciddi nəzarət edib. O, Azərbaycan dilində mətbuatın və nəşriyyat işinin “dövrünün çatmadığını” iddia edib, Səid Ünsizadə kimi ziyalıların əməyini “izafi iş” adlandırıb.

Ünsizadə qardaşlarının Azərbaycan mətbuatı üçün gördüyü işlər, etdiyi xidmətlər heç vaxt unudulmur. Onların fəaliyyəti barədə zaman-zaman məqalələr, monaqrafiyalar, elmi-tədiqat əsərləri qələmə alınır. 2023-cü ildə AMEA Ədəbiyyat İnstitutunun mətbuat tarixi və publisistika şöbəsnin mərhum əməkdaşı Müştəba Əliyevin “Ziyayi-Qafqaziyyə”nin bütün nömrələrini transfoneliterasiya edərək lüğət, izah və şərhlərlə hazırladığı toplu işıq üzü görüb. Kitabın baş redaktoru və “Ziyayi-Qafqaziyyə” qəzetinin Ədəbiyyat İnstitutu nəşri” adlı “Ön söz”ün müəllifi AMEA-nın prezidenti akademik İsa Həbibbəylidir.

Bu kitab çağdaş oxucuların milli mətbuatımızın 2-ci önəmli nəşri ilə əhatəli tanış olmasına, önəmli tədqiqatlar aparmasına lazımi zəmin yaratdı. Milli mətbuatımızın 150 illik yubileyinə əvvəlcədən layiqli töhfə olan bu irihəcmli toplu Ünsizadə qardaşlarının Vətən naminə vicdanlı mübarizəsinə də dərin ehtiramı ifadə edir.

***Vüqar ƏHMƏD,***
***AMEA Ədəbiyyat İnstitutu mətbuat tarixi və publisistika şöbəsinin müdiri, professor***

İlyas Babayev – 90

# AMEA-da görkəmli arxeoloqun xatirəsinə beynəlxalq konfrans

**Dünən Azərbayacn Milli Elmlər Akademiyasında görkəmli arxeoloq, AMEA-nın müxbir üzvü, professor İlyas Babayevin anadan olmasının 90 illiyinə həsr olunan "Antik dövrdə Qafqaz və ətrafında urbanizasiya prosesləri" mövzusunda beynəlxalq elmi konfrans işə başlayıb.**



AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun təşkilatçılığı ilə keçirilən yubiley məclisində Azərbaycan alimləri ilə yanaşı, ABŞ, Koreya, Almaniya və Türkiyənin müvafiq sahə üzrə aparıcı alim və mütəxəssisləri, tanınmış arxeoloqlar, AMEA əməkdaşları, KİV mənsubları və digər qonaqlar iştirak edirdilər.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli konfransı geniş giriş sözü ilə açaraq görkəmli alim İlyas Babayevin səmərəli elmi fəaliyyətindən, böyük elm fədaisinin ölkəmizdə arxeologiya elminin inkişafındakı müstəsna xidmətlərindən söz açdı. Professor İlyas Babayevin Azərbaycanda elmi məktəb yaratmış arxeoloqlardan biri olduğunu söyləyən AMEA rəhbəri onun əsas tədqiqatlarının qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının tarixinə və arxeoloji problemlərinə həsr edildiyini bildirdi.





AMEA rəhbəri qeyd etdi ki, fədakar arxeoloqun tədqiqatları təkcə öz dövrü üçün deyil, bu gün üçün də mühüm əhəmiyyət kəsb edərək aktuallığını qoruyur və Azərbaycanda arxeologiya elminin nailiyyətləri sırasındadır: "Mənalı ömrünü bütünlüklə tarix elminə və arxeoloji fəaliyyətə həsr etmiş İlyas Babayev bütün varlığı ilə öz işinə bağlı arxeoloq, arxeologiyanın romantikasını, fəlsəfəsini, ideologiyasını öz üzərində daşıyan görkəmli alim idi. Onun tədqiqatları zəngin tariximizi və mədəniyyətimizi dünyaya göstərir. AMEA-nın müxbir üzvü İlyas Babayevin inkişaf etdirdiyi elm sahəsinin davamçıları bu gün də alimin irsindən faydalanırlar. Tarixin qaranlıq qatlarındakı keçmişimizi işıqlandıran professor İlyas Babayevin xatirəsinə həsr olunmuş beynəlxalq konfrans onun elmi irsinin dünya miqyasında tanındığını və yüksək dəyərləndirildiyinin göstəricisidir".

Arxeologiya və Antropologiya İnstitutunun direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev konfransın mövzusunun aktuallığının İlyas Babayevin tədqiqatlarının bəşəri önəmindən və elmi irsinin zənginliyindən qaynaqlandığını söylədi.

Seul–Bakı, Azərbaycan–Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri, fəlsəfə doktoru Ruhəngiz Heydərova, Arxeologiya və Antropologiya İnstitutunun İslam dövrü arxeologiyası şöbəsinin müdiri, Qəbələ arxeoloji ekspedisiyasının rəhbəri tarix elmləri doktoru, professor Qafar Cəbiyev İlyas Babayevin 1959-cu ildən ömrünün sonuna qədər – 58 il Qəbələdə tədqiqatlar apardığını və bu tarixi məkana son dərəcə bağlı insan olduğunu, arxeoloq alimin yolunu onun yetirmələrinin layiqincə davam etdirdiklərini söylədilər.

Konfransda çıxış edən alimin oğlu Arxeologiya və Antropologiya İnstitutu Həmkarlar Təşkilatının sədri Faiq Babayev və bacısı oğlu Əməkdar dövlət qulluqçusu İsrafil Qurbanov yubiliyarın xatirəsinə göstərilən diqqət və ehtirama görə təşkilatçılara və iştirakçılara minnətdarlığını bildiriblər.

Mərasimi AMEA-nın müxbir üzvü İlyas Babayevin həyat və elmi fəaliyyətinə həsr edilən videoçarx nümayiş olunub.

Beynəlxalq konfrans öz işini bölmə iclasları ilə davam etdirib və bugün yekunlaşacaq.

***Tahir AYDINOĞLU***
***XQ***

# Abidələr tarixə şahidlik edir

**Son illər ərzində ölkəmizdə memarlıq irsinin qorunması sahəsində mühüm addımlar atılıb. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə tarixi abidələrin tədqiqi və qorunması istiqamətində sistemli işlər görülür. Həmin ərazilərdə genişmiqyaslı araşdırmalar aparılıb, minalardan təmizlənmiş ərazilərə baxış keçirilib və kifayət qədər məlumat toplanıb. Bu tədqiqatlar nəticəsində artıq 44 abidə dövlətin mühafizə olunan abidələr siyahısına daxil edilib. Eyni zamanda, bu sahədə fəaliyyət göstərən ekspert komissiyası yaradılıb və hazırda intensiv rejimdə fəaliyyət göstərir.**



Milli Məclisin Mədəniyyət komitəsinin ictimai dinləməsində çıxış edən mədəniyyət naziri Adil Kərimli bildirib ki, Azərbaycanın suverenliyi tam şəkildə təmin edilib və bu dövrdən etibarən mədəniyyət siyasətinə də yeni yanaşma formalaşıb. Hazırda işğaldan azad olunmuş ərazilərdə mədəni irsin bərpası və reinteqrasiyası sahəsində kompleks tədbirlər həyata keçirilir. Bu ərazilərdə yerləşən tarixi və mədəni abidələrin inventarlaşdırılması, mühafizəsi və bərpası ilə bağlı ardıcıl işlər görülür. Bu çərçivədə mədəniyyətin bütün sahələrini əhatə edən islahatlar dərinləşdirilib. Yeni yanaşma mədəni irsə yalnız tarixi yaddaş nümunəsi kimi deyil, həm də sosial və iqtisadi inkişafın əsas komponentlərindən biri kimi yanaşmanı özündə ehtiva edir.

Nazir vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində mədəniyyət sahəsi xüsusi yer tutur: "Tarixi abidələrin, maddi-mədəni irs nümunələrinin qorunması və gələcək nəsillərə ötürülməsi dövlətimizin başçısının daim diqqət mərkəzindədir. Onun bu istiqamətdə verdiyi tapşırıqlar əsasında qarşıya yeni strateji vəzifələr qoyulub və prioritet istiqamətlər müəyyən edilib".

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, Əməkdar memar Gülçöhrə Məmmədova bu barədə fikirlərini bölüşüb. O deyib ki, ekspert komissiyası tərəfindən 100-dən çox abidəyə baxış keçirilib, o cümlədən tamamilə dağıdılmış, yerində olmayan memarlıq nümunələri də nəzərdən keçirilir və onların bərpası ilə bağlı müzakirələr aparılır. "Memarlıq irsinin bərpası sahəsində şəffaf, elmi əsaslara söykənən və ictimaiyyətin iştirakı ilə aparılan proseslər Azərbaycanın milli kimliyinin və tarixinin qorunmasında mühüm rol oynayır. Bu, həm də xalqımızın tarixi yaddaşının yenidən dirçəldilməsi deməkdir".

Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə isə bu yöndə əhalinin maarifləndirilməsini vacib saydığını bildirib. Qeyd edib ki, xüsusilə paytaxt Bakının mərkəzi hissəsində yüzlərlə tarixi bina mövcuddur, bu binalarda yaşayan və ya fəaliyyət göstərən şəxslər həmin abidələrə istədikləri kimi müdaxilə edirlər. Bu isə nəticə etibarilə memarlıq nümunələrinin ilkin görkəminə ciddi ziyan vurur. "Burada məsuliyyət anlayışı son dərəcə vacibdir. Fərq etməz, həmin şəxs kimdir və hansı peşənin sahibidir, tarixi abidəyə ziyan vurmaq hüquqi məsuliyyət doğurmalıdır. Hər bir halda belə hallara qarşı mütləq cəza tədbirləri tətbiq olunmalıdır. Tarixi memarlıq irsinin qorunması yalnız dövlətin deyil, cəmiyyətin bütün təbəqələrinin birgə məsuliyyətini tələb edir. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinin və nəzarət mexanizmlərinin gücləndirilməsi vacib amildir".

İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud Bakının ilkinlik pasportu sayılan, qədim qala divarlarının əhatəyə aldığı, UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş İçərişəhərdə yeni "ağıllı qoruq" konsepsiyasının hazırlanması üzərində iş aparıldığını diqqətə çatdırıb. O deyib ki, bu konsepsiya ərazidə təhlükəsizlik, nəzarət, məlumatlandırma və ziyarətçiyönümlü xidmətlərin rəqəmsal həllər vasitəsilə təkmilləşdirilməsini nəzərdə tutur. "Hazırda qarşımıza üç əsas hədəf qoymuşuq: müasir muzeyçilik yanaşmasının tətbiqi, universal əlçatanlığın təmin olunması və abidələrin təhlükəsizliyinin texnoloji əsaslarla gücləndirilməsi. Yeni texnologiyaların tətbiqi ilə həm tarixi irsi qoruya, həm də ziyarətçilərin təcrübəsini zənginləşdirə bilərik.

Əlbəttə, tarixi qoruq ərazilərində abidələrin mühafizəsi böyük maliyyə, texniki və inzibati resurslar, həm də texnoloji yeniliklərə əsaslanan kompleks yanaşma tələb edir. Burada əlilliyi olan şəxslər üçün keçidlərin təşkili, turizm axınının balanslaşdırılması və muzey infrastrukturunun yenilənməsi kimi məsələlər də cari prosesin tərkib hissəsidir. Muzeylərimiz müasir texnologiyalara uyğunlaşdırılmalı və ziyarətçilərin gözləntilərinə cavab verən təcrübə təqdim etməlidir".

O, həmçinin bildirib ki, İçərişəhərdə bir sıra bərpa layihələri artıq başa çatdırılıb. Hazırda XIX əsrə aid Qala "Bayraməli hamamı"nın bərpasına başlanılıb və yaxın müddətdə onun ilkin görünüşünün bərpası istiqamətində işlər intensivləşdiriləcək.

İçərişəhər yalnız tarix və mədəniyyətin deyil, həm də müasir şəhər idarəetmə modellərinin tətbiq olunduğu canlı irs məkanı olmalıdır.

Qeyd edək ki, Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşəbbüsü ilə Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunda genişmiqyaslı iməcilik aksiyası təşkil olunub. Aksiyada Qala və İçərişəhər sakinləri, Qoruq İdarəsinin rəhbər heyəti və əməkdaşları, könüllülər, habelə "EkoSfera" Ekoloji-Sosial Mərkəz İctimai Birliyi, "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyəti daxil olmaqla 170-dən çox şəxs iştirak edib.

***XQ***

Bəstəkarın xatirəsinə

# "Yay yağışı" rapsodiyası



**Səhər-səhər Sumqayıta narın yağış yağırdı. Üzeyir Hacıbəyli küçəsinin başlanğıcında dahi bəstəkarın xatirəsinə qoyulmuş "Royal" abidə kompleksinin açıq klaviaturasındakı ağ-qara, şirmayı dillərinə dəyən damlalar sanki bir "Yay yağışı" rapsodiyası çalırdı.**

Burada 2010-cu ildə – bəstəkarın 125 illik yubileyi ərəfəsində abidə kompleksinin açılış mərasimi yadıma düşdü. Müəllifi Sumqayıtın baş rəssamı, heykəltaraş Vaqif Nəzirov olan, qara qranitlə üzlənmiş 12 metr hündürlüyə ucalan abidənin yüksələn hissəsi orqan borularının simvolik təsviri kimi işlənib. Bu sütunların üzərində Üzeyir bəyin barelyefinə, əks tərəfdə isə eyni fon üzərində tar, kaman və qavalın tökmə bürüncdən təsvirinə hamı heyranlıqla baxırdı. Nəfəs və xalq çalğı alətləri orkestrləri, vokalçılar ölməz bəstəkarın əsərlərini ifa etdilər. Onda da çiskin yağır, sanki "Xatirə" adlı musiqi bəstəsini məşq edirdi.

Mərasimdə belə bir fikir də səsləndi: "Görkəmli Azərbaycan bəstəkarları kəhkəşanında Üzeyir Hacıbəylinin ulduzu öz işığı ilə klassik Azərbaycan musiqisi tarixini nura qərq edən bütöv bir aləmdir". İndi, 140 illik yubileyi ərəfəsində Üzeyir bəyin xatirəsi yenə də xeyli əziz tutulur, "Xatirə" bəstəsi də tam yetkinləşib. "Yay yağışı" isə tozu yatırır, nəhəng abidənin əlçatmaz yerlərini də işımişım işıldadır.

Ağac çətiri altında durub musiqişünas qonşum, fəlsəfə doktoru, dosent Telman Qəniyevə zəng vururam. Binamız bura yaxındır. Çox keçmədən Telman müəllim gəlir. Dahi bəstəkarı yad edirik.

– Üzeyir bəyin üzünün nuruna parlaq musiqi uğurları qazanmışıq, – deyir. – O elə təməl qoyub və elə ilk qatları hörüb ki, üzərində neçə mərtəbə bina ucalsa, eyninə də gəlməz.

"Yay yağışı"nın son akkordları bizi işə-gücə uğurlayır. Telman müəllim hələ inişil Üzeyir bəyin tamaşaya qoyulan "O olmasın, bu olsun" musiqili komediyasının hazırlanmasında yaxından iştırak etdiyi Sumqayıt Dövlət Dram Teatrına gedəcəyini deyib sağollaşır. Mənsə Üzeyir Hacıbəyli küçəsinin digər başına – Sumqayıt dəmiryol vağzalına gəlirəm. Qatara minib bu dəfə də dəmir təkərlərlə relslərin ahəngdar sədalarına aludə oluram.

Həzin yağışlı, ritmik musiqili səhərlə başlanan gün uğurlu olar.

***Ə.NƏCƏFXANLI***
***XQ***

Yeni kitablar

# Cavid publisistikası və müasirlik




**BDU-nun professoru Sevil Həsənovanın universitet Elmi Şurasının qərarı ilə çap edilən "Hüseyn Cavid publisistikası və müasirlik" adlı dərs vəsaiti Azərbaycan ədəbiyyatşünaslığında mühüm yer tutan, lakin nisbətən az öyrənilmiş sahələrdən biri olan Hüseyn Cavidin publisistik fəaliyyətinə elmi-nəzəri yanaşmanı ortaya qoyan tədqiqat əsəridir.**

Əsərdə müəllif Hüseyn Cavidin publisistik irsini sistemli şəkildə təhlil etməklə yanaşı, onun ictimai-siyasi baxışlarını, fəlsəfi dünyagörüşünü və milli-mənəvi dəyərlərə münasibətini geniş şəkildə araşdırır. O, Hüseyn Cavidin publisistik məqalələrini yalnız tarixi kontekstdə deyil, həm də müasir ideoloji və ədəbi baxış bucağından təhlil edir, Cavidin qələmindən çıxan publisistik nümunələrin onun dramaturji və poetik yaradıcılığı ilə necə və hansı məqamda kəsişdiyini də elmi əsaslarla izah edir.

Dərs vəsaiti Cavidin publisistik məqalələrində qaldırdığı sosial ədalət, milli azadlıq, maarifçilik və humanizm ideyalarının çağdaş cəmiyyət üçün nə qədər aktual olduğunu sübut edir. Bu məqamlar əsərin həm də ictimai və fəlsəfi dəyərini sərgiləyir.

Sevil Həsənovanın "Hüseyn Cavid publisistikası və müasirlik" dərs vəsaiti ədəbiyyatşünaslıq və publisistika sahəsində əhəmiyyətli bir tədqiqatdır. Vəsait Hüseyn Cavid irsinin yeni aspektlərdən öyrənilməsi üçün ciddi elmi baza olmaqla yanaşı, bu böyük fikir adamının daha dərindən tanınmasına şərait yaradır.

Dərs vəsaiti əsasən jurnalistika və filologiya fakültələrinin müəllim və tələbələri üçün nəzərdə tutulmuşdur. Elmi redaktoru professor Abid Tahirli, rəyçilər akademik Teymur Kərimli və filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlıdır.

***XQ***

# "Molla Nəsrəddin" 8 cilddə

**Mətbuatımızın qızıl tacı, ilk şəkilli, möhtəşəm "Molla Nəsrəddin" jurnalının 8 cilddə kitab şəklində nəşri alimlər, tələbələr, eyni zamanda mətbuat tarixi ilə maraqlanan bütün oxucular üçün dəyərli mənbədir.**

Gələn ilin aprelində böyük demokrat ədib Cəlil Məmmədquluzadənin redaktorluğu ilə onun və "komanda"sının yüksək yaradıcılıq zirvəsi sayılan bu jurnalın ilk nömrəsinin çapının 120 yaşı tamam olacaq. Tiflis şəhərində nəşr olunmağa başlayan jurnal Qafqaz regionunda baş verən hadisələrə güzgü olub, müsəlman Şərqinin, xüsusilə Azərbaycan xalqının milli özünüdərkində, oyanışında mühüm rol oynayıb. Jurnal 1917-ci ilə qədər Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə isə Bakıda nəşr edilib.




Kitab halında nəşrdə jurnalın ilk sayında verilmiş "Tiflis 7 aprel" sərlövhəli baş məqalə, "Məcmuəmizə müştəri olanlara nəsihət", "Molla Nəsrəddinin teleqramları", "Bilməli xəbərlər", "Dəllək", "Atalar sözü" və digər yazılar, həmçinin 4 müxtəlif karikatura və bir neçə elanla başlayan ilk addımlar tədricən daha inamlı irəliləyişə səbəb olub və oxucularla 748 görüş kimi tarixə düşüb. Artıq növbəti dəfə "Çinar yayınları"nda küll halında çıxan "Molla Nəsrəddin"i əldə etmək imkanı yaranıb.

***Ə.DOSTƏLİ***
***XQ***

# Uşaq problemi və beynəlxalq təcrübə

**Dünən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova ilə BMT-nin Uşaq Hüquqları Komitəsinin eksperti Sofi Kiladze arasında "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2026–2030-cu illər üçün Fəaliyyət Planı"nın müzakirəsinə həsr olunmuş görüş keçirilib.**

Komitə sədri qarşıda duran prioritet istiqamətlərin müəyyənləşdirilməsi və uşaq məsələlərinə dair fəaliyyət planının hazırlanması zamanı beynəlxalq təcrübənin və dəstəyin mühüm əhəmiyyət daşıdığını qeyd edib. Peşəkar mütəxəssislərin tövsiyələrinin sənədin hazırlanması prosesinə müsbət təsir göstərəcəyinə inamını ifadə edib. O, ekspertlərin dövlət qurumları, o cümlədən Uşaq Səfirlər Məclisinin nümayəndələri ilə birgə keçiriləcək görüşlərinə diqqət çəkərək deyib ki, uşaqların iştirakı ilə sənədin hazırlanması onların öz hüquqlarına dair fikir bildirmələri baxımından önəmlidir və prosesə daha obyektiv yanaşmanı təmin edəcək.

Ekspert Sofi Kiladze uşaq məsələləri üzrə fəaliyyət planının hazırlanmasında beynəlxalq tövsiyələrin nəzərə alınmasının, eləcə də real və həyata keçirilə bilən hədəflərin müəyyən edilməsinin uğurlu nəticələrə yol açacağına inandığını bildirib. Ekspert milli-mənəvi dəyərlərin nəzərə alınmasının və ümumi məqsəd ətrafında mövqelərin uzlaşdırılmasının əhəmiyyətini vurğulayıb.

Müasir dövrdə süni intellekt texnologiyalarının sürətli inkişafına diqqət çəkən Sofi Kiladze bu sahədə etik və hüquqi məsələlərin, xüsusilə də fərdi məlumatların qorunmasının önəmini qeyd edib.

Görüşdə tərəflər ortaq dəyərlərə əsaslanan davamlı əməkdaşlığın inkişaf etdirilməsinin regionda sabitlik və sosial rifah üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıblar.

*XQ*

## Beynəlxalq həyat

# ABŞ milyarderi siyasətə qoşulur

## *İlon Mask yeni partiya yaradır*

**ABŞ texnologiya sektorunun ən nüfuzlu simalarından olan İlon Mask bu dəfə siyasi sistemin struktur əsaslarına meydan oxuyur. Milyarder is adamı bu həftə sonu "The America Party" – "Amerika Partiyası" adlı yeni siyasi qüvvənin yaradılması ilə bağlı sənədləri ABŞ Federal Seçki Komissiyasına təqdim edib. Müşahidəçilərə görə, bu addım ABŞ-da illərlə formalaşmış ikipartiyalı siyasi sistemin təməlində yaranmış çatların fonunda yeni bir mərhələyə keçidi ehtiva edə bilər.**



Partiyanın yaradılmasına səbəb olan əsas siyasi hadisə iyulun 4-də Prezident Donald Tramp tərəfindən imzalanan və "One Big Beautiful Bill" adlanan yeni büdcə qanunudur. Mask bu qanunu dövlət borcunu artıracağına və "Tesla" kimi elektrik avtomobili istehsalçıları üçün vergi güzəştlərinin ləğvini nəzərdə tutduğuna görə sərt tənqid atəşinə tutub. O düşünür ki, bu sənəd "məsuliyyətsiz xərcləməni" və "iqtisadi özbaşınalığı" təşviq edir.

Eyni zamanda, İlon Mask respublikaçı senatorlara təzyiq göstərərək, qanuna səs verməmələrini tələb edib. Hətta təhdid edərək bildirib ki, "əgər borcu artıran bu qanuna səs verən konqresmenlər cəzalandırılmasa, bu, mənim bu dünyadakı son işim olacaq".

Cavab çox gecikməyib. Prezident Tramp onu qeyri-ciddi və təhlükəli adlandıraraq, "DOGE" adlı hökumət nəzarət orqanlarını Maskın bizneslərinə qarşı hərəkətə keçirməklə hədələyib. Bu isə Maskın artıq siyasətə rəsmi girişini qaçılmaz edib.

2025-ci il iyulun 6-da qeydiyyatdan keçən "Amerika Partiyası"nın maliyyə məsələlərinə "Tesla" şirkətinin maliyyə direktoru Vaybav Tanedja rəhbərlik edir. Mask sosial şəbəkəsi "X" platformasında keçirdiyi sorğuda istifadəçilərin 65 faizdən çoxu partiyanın yaradılmasını dəstəkləyib.

Mask bəyan edib ki, ilkin mərhələdə məqsədi bütün ölkədə namizədlər irəli sürmək deyil, Senatda 2–3, Nümayəndələr Palatasında isə 8–10 yer qazanmaqdır. Onun fikrincə, bu qədər təmsilçilik belə qanunvericilik prosesində həlledici mövqe tutmaq üçün kifayət edəcək.

"Demokratiya o zaman yoxdur ki, ölkə israfçılıq və korrupsiya ilə talan olunur. Bu, birpartiyalı sistemin maskalanmış formasıdır. "Amerika Partiyası" xalqın səsini qaytarmaq üçün qurulub," – Mask bəyanatında bildirib.

Ümumiyyətlə, ABŞ ictimaiyyətində də ikipartiyalı sistemə alternativin yaradılması çağırışları son on ildə ciddi artıb. 2014-cü ildə yalnız 13 faiz amerikalı özünü "partiyasız" kimi təqdim edirdisə, bu rəqəm artıq 43 faizə çatıb. "Quantus Insights" təşkilatının sorğusuna görə, amerikalıların 40 faizi Maskın partiyasına səs verməyə hazırdır. Onun təşəbbüsünü milyarder Mark Kyyuban və Ağ evin sabiq rəsmisi Entoni Skaramuççi də açıq şəkildə dəstəkləyib.

Lakin Maskın qarşısında ciddi struktur baryerləri var. ABŞ seçki sistemi "qalib hər şeyi alır" prinsipinə əsaslandığı üçün üçüncü qüvvələrin uğur şansı minimaldır. Duyverje qanunu bu sistemin təbii nəticəsinin ikipartiyalılıq olduğunu göstərir – seçicilər "səsimi itirməyim" qorxusu ilə yenə də ən çox dəstəyə malik partiyalardan birinə üstünlük verirlər.

Tarixən ABŞ-da üçüncü partiyalar və müstəqil namizədlər müəyyən mərhələlərdə yüksək reytinqlərə malik olsalar da, sonda ya əsas partiyalardan birinə qoşulublar, ya da siyasi səhnədən çəkiliblər. Məsələn, Robert Kennedi 2024-cü il seçkilərində müstəqil namizəd kimi 22 faizə qədər dəstək toplamışdı, lakin yay aylarında bu rəqəm 7–12 faizə düşdü və nəticədə o, respublikaçılarla ittifaqa girərək kabinetdə yer aldı.

Liberal mövqeli Libertarian Partiyası da Maskın ideoloji xəttinə yaxın olsa da, son 40 ildə Konqresə birbaşa təmsilçi göndərə bilməyib. Mask üçün də bu, risk aktualdır.

Son aylar onun Viskonsin ştatında apardığı seçki təşviqatı uğursuzluqla nəticələnib. Maliyyə və media dəstəyinə baxmayaraq, dəstəklədiyi namizədlər məğlub olub. Eyni zamanda, "Quinnipiac University" tərəfindən keçirilən sorğuya əsasən, seçicilərin 57 faizi Mask haqqında mənfi fikirdədir. Bu göstərici Trampın neqativ reytinqindən də yüksəkdir.

Maliyyə naziri Skott Bessent CNN-ə açıqlamasında Maskın bu siyasi ambisiyalarının "Tesla" və "SpaceX" kimi şirkətlərdəki idarə heyəti ilə ziddiyyət yaradacağını da istisna etməyib.

İlon Maskın siyasi ambisiyaları və texnoloji resurslarla təchiz olunmuş "Amerika Partiyası"nın yaradılması ABŞ-da partiya sisteminin dəyişməsi ehtimalını gündəmə gətirir. Lakin bu ideya real struktur baryerləri və ictimai skeptisizmlə üz-üzədir.

Maskın təşəbbüsü qlobal texnokratiyanın siyasətə müdaxiləsinin bariz nümunəsi sayıla bilər. Amma bu müdaxilə uğurlu siyasi transformasiya ilə nəticələnəcəkmi, yoxsa növbəti "bir mövsümlük partiya" kimi tarixə düşəcək – bunu zaman göstərəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***


# "Azərbaycan Hava Yolları" QSC

## Azərbaycan Respublikası üzrə mövcud olan tibb məntəqələrinin fəaliyyətinin ixtisaslaşmış kənar tibb müəssisələri vasitəsilə təmin edilməsi xidmətinin satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" QSC-nin Azərbaycan Respublikası üzrə mövcud olan tibb məntəqələrinin fəaliyyətinin ixtisaslaşmış kənar tibb müəssisələri vasitəsilə təmin edilməsi xidmətinin satın alınması məqsədilə açıq tenderində iştirakçılar veronika.oborskaya@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 30 iyul 2025-ci il saat 14.00-dəkdir .

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Prosedur üzrə əlaqələndirici şəxs – Veronika Oborskaya, İnnovativ və marketinq məhsullarının təchizatı şöbəsinin layihə rəhbəri, veronika.oborskaya@azal.az, iş – (+99412) 4972600 daxili 4258.


# "İsmayıllı Quşçuluq" ASC-nin 2024-cü il dekabrın 31-nə balans hesabatı

manatla

| Aktivlər | 2024-cü il |
|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 3630 |
| Debitor borclar | 56484 |
| Keçmiş illərin zərəri | 382988 |
| **Cəmi qısamüddətli aktivlər** | **443102** |
| Mallar və ehtiyatlar | 96678 |
| Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar | - |
| Əsas vəsaitlər ( qalıq dəyəri ilə ) | 1465622 |
| Quraşdırılmamış avadanlıq | - |
| **Cəmi uzunmüddətli aktivlər** | **1562300** |
| **CƏMİ AKTİVLƏR** | **2005402** |
| Öhdəliklər | |
| Uzunmüddətli bank kreditləri | 380245 |
| Uzun,qısa müddətli öhdəliklər | - |
| Təsisçilərlə hesablaşmalar | 319290 |
| Vergilər | 414 |
| Sair qısamüddətli öhdəliklər | 48251 |
| **Cəmi öhdəliklər** | **748200** |
| **Kapital** | |
| Nizamnamə kapitalı | 1257202 |
| **Cəmi kapital** | **1257202** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **2005402** |
| Mənfəət və zərər haqqında hesabat | |
| Malların təqdim edilməsindən gəlir | 264944 |
| Cəmi əməliyyat xərcləri | 264046 |
| Mənfəət | 898 |

***İdarə heyəti***

# "Səyyarmextikinti" ASC səhmdarlarının nəzərinə!

6 avqust 2025-ci il saat 11.00-da "Səyyarmextikinti" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Səhmdar cəmiyyətin 2024-cü il üçün illik fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Cəmiyyətə məxsus 1,5 hektar torpaq sahəsinin satışa çıxarılmasının müzakirəsi.
3. Digər məsələlər.

Əlaqə telefonu – (050) 545-92-41.

***İdarə heyəti***

# "SALYAN-TAXIL" ASC-nin 2024-cü il dekabrın 31-nə başa çatmış il üzrə balans hesabatı

*(Azərbaycan manatı ilə)*

| Aktivlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | |
| Əsas vəsaitlər | 1,122,446.49 | 1,209,146.11 |
| Qeyri -maddi aktivlər | 0.00 | 0.00 |
| **Cəmi uzunmüddətli aktivlər** | **1,122,446.49** | **1,209,146.11** |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | 258.47 | 258.47 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 306.13 | 4,947.83 |
| Digər aktivlər | 3,743,158.66 | 3,602,256.57 |
| Kapitallaşdırma üçün aktivlər | 0.00 | 0.00 |
| Qısamüddətli debitor borcları | 9,800.00 | 9,800.00 |
| **Cəmi qısamüddətli aktivlər** | **3,753,523.26** | **3,617,262.87** |
| **Cəmi aktivlər** | **4,875,969.75** | **4,826,408.98** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 3,241,534.00 | 3,241,534.00 |
| Kapital ehtiyatları | 785,257.28 | 785,257.28 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 0.00 | 0.00 |
| **CƏMİ KAPİTAL** | **4,026,791.28** | **4,026,791.28** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Qısamüddətli borclar | 151,482.83 | 107,897.06 |
| Gələcək dövrün gəlirləri | 0.00 | 0.00 |
| Digər öhdəliklər | 697,695.64 | 691,720.64 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **849,178.47** | **799,617.70** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **4.875.969,75** | **4,826,408.98** |

**Mənfəət və zərər haqqında hesabat**

| **Gəlirlər** | **2024-cü il** | **2023-cü il** |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 9,000.00 | 49,218.63 |
| Əməliyyat xərcləri | 36,127.43 | 37,578.57 |
| **Ümumi mənfəət (zərər)** | **-27,127.43** | **11,640.06** |
| Ümumi idarəetmə xərcləri | 21,231.36 | 22,589.39 |
| Amortizasiya | 86,699.62 | 93,637.67 |
| Sair əməliyyat xərcləri | 5,843.68 | 6,009.60 |
| **Cəmi saİr əməliyyat xərcləri** | **113,774.66** | **122,236.66** |
| **Əsas fəalİyyət üzrə mənfəət (zərər)** | **-140.902,09** | **-110,596.60** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | 0.00 | 0.00 |
| Mənfəət vergisi | 0.00 | 0.00 |
| **Vergİ tutulduqdan sonra mənfəət (zərər)** | **-140.902,09** | **-110,596.60** |
| Gəlirdən çıxılmayan xərclər | 0.00 | 0.00 |
| Sair düzəlişlər | 0.00 | 0.00 |
| **Hesabat dövründə xalİs mənfəət (zərər)** | **-140.902,09** | **-110,596.60** |

**Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat**

| | **31.12.2024** |
|---|---|
| **Əməliyyat fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | 0.00 |
| Hesabat dövründə xalis mənfəət | -140.902,09 |
| Digər düzəlişlər | 0.00 |
| Əlavə kapital | 0.00 |
| Amortizasiya xərcləri | 86,699.62 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti** | |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | |
| Digər aktivlərdə artma və ya azalma | -140,902.09 |
| Ehtiyatlarda artma və ya azalma | 0.00 |
| Qısamüddətli debitor borcları artma və ya azalma | 0.00 |
| Kapitallaşdırma üçün aktivlər | 0.00 |
| Qısamüddətli kreditor borcları artma və ya azalma | 43,585.77 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 0.00 |
| Digər öhdəliklərdə artma və ya azalma | 5,975.00 |
| **Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | |
| **İnvestisiya fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Əsas vəsaitlərin alınması | 0.00 |
| Nizamnamə kapitalında artım | 0.00 |
| **İnvestisiya fəalİyyətİndə İstİfadə olunan xalİs pul vəsaİtlərİ** | |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti:** | |
| Borc verilmiş digər vəsaitlərdə xalis artma | |
| Dividendlər və buna oxşar digər ödəmələr pul şəklində | |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan xalis pul vəsaitləri** | |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma,azalma** | **4,641.70** |
| **İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri** | **4,947.83** |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | **306,13** |

**Mənfəət və zərər haqqında hesabat**

| **Gəlirlər** | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 9,000.00 | 49,218.63 |
| Əməliyyat xərcləri | 36,127.43 | 37,578.57 |
| **Ümumİ mənfəət (zərər)** | **-27,127.43** | **11,640.06** |
| Ümumi idarəetmə xərcləri | 21,231.36 | 22,589.39 |
| Amortizasiya | 86,699.62 | 93,637.67 |
| Sair əməliyyat xərcləri | 5,843.68 | 6,009.60 |
| **Cəmİ saİr əməlİyyat xərclərİ** | **113,774.66** | **122,236.66** |
| **Əsas fəalİyyət üzrə mənfəət (zərər)** | **-140.902,09** | **-110,596.60** |
| Mənfəət hesabına kompensasiya edilən keçmiş illərin zərəri | 0.00 | 0.00 |
| Mənfəət vergisi | 0.00 | 0.00 |
| **Vergi tutulduqdan sonra mənfəət (zərər)** | **-140.902,09** | **-110,596.60** |
| Gəlirdən çıxılmayan xərclər | 0.00 | 0.00 |
| Sair düzəlişlər | 0.00 | 0.00 |
| **Hesabat dövründə xalis m**ənfəət **(zərər)** | **-140.902,09** | **-110,596.60** |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | **Nizamnamə kapitalı** | **Bölüşdürülməmiş mənfəət** | **Əlavə kapital** | **Kapitalın cəmi** |
|---|---|---|---|---|
| **2024-cü il yanvarın 1-nə qalıq** | 3,241,534.00 | 0.00 | 785,257.28 | **4,026,791.28** |
| Nizamnamə kapitalında artm | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| Xalis mənfəət artmı | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| Sair düzəlişlər | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| Əlavə kapital | 0.00 | 0.00 | 0.00 | **0.00** |
| **2024-cü il dekabrın 31-nə qalıq** | **3,241,534.00** | **0.00** | **785,257.28** | **4,026,791.28** |

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**

Mən, SƏRBƏST AUDİTOR ŞƏRİFOV ƏRŞAD VÜSAL oğlunun (VÖEN:1201062092) Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 15 yanvar 2021-ci il tarixli SA/460 saylı Qeydiyyatlı icazəyə və "SALYAN-TAXIL" AÇIQ SƏHMDAR CƏMİYYƏTLƏ (VÖEN:7000208881)(bundan sonra "cəmiyyət" adlanacaq) bağlanmış 6 may 2025-ci il tarixli 103 nömrəli müqaviləyə əsasən 2024-cü il dekabrın 31-də bitən il üzrə "cəmiyyət"ın balans hesabatı, mənfəət və zərər haqqında hesabat, pul vəsaitlərinin hərəkəti hesabatının, kapitalda dəyişikliklər haqqında hesabatının "cəmiyyət" tərəfindən təqdim edilmiş sənədlər əsasında auditini apardım.

**Maliyyə hesabatları üzrə rəhbərliyin məsuliyyəti**

Rəhbərlik, Maliyyə Hesabatının Beynəlxalq Mühasibat Uçotu Standartları əsasında maliyyə hesabatlarının hazırlanmasına və ədalətli təqdimatına görə cavabdehdir. Rəhbərliyin məsul olduğu vəzifələrə aşağıdakılar daxildir:

- maliyyə hesabatlarının saxtalaşdırmadan və hər hansı mühüm təhriflərə yol vermədən hazırlanması və ədalətli təqdimatına uyğun daxili nəzarətin planlaşdırılması, tətbiqi və saxlanılması;
- müvafiq mühasibat uçotu siyasətlərinin seçilməsi və tətbiqi;
- **şəraitə müvafiq mühasibat qiymətləndirmələrinin aparılması.**

**Auditorun məsuliyyəti**

Mənim məsuliyyətim apardığım auditin nəticəsinə əsaslanaraq bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Mən ,auditi audit standartlarına uyğun həyata keçirdim. Həmin standartlar tələb edir ki, mən etik tələbləri yerinə yetirməklə yoxlamanın aparılmasını elə planlaşd**ırıb** həyata keçirim ki, maliyyə hesabatlarında əks etdirilən məlumatlarda əhəmiyyətli səhvlərin olmamasına kifayət qədər əmin olum.

Audit zamanı maliyyə hesabatlarında əks etdirilən məbləğlər və açıqlamalar üzrə sübutların təsdiq olunması üçün prosedurlar aparılır. Prosedurlar auditorun qərarından, o cümlədən maliyyə hesabatlarında səhv və saxtakarlıqla bağlı mühüm risklərin qiymətləndirilməsindən asılı olaraq seçilir. Həmin risk qiymətləndirmələrini apararkən, auditorun məqsədi təşkilatın daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy vermək deyil, şəraitə müvafiq audit prosedurlarının planlaşdırılması üçün təşkilat tərəfindən maliyyə hesabatlarının hazırlanması və ədalətli təqdimatının daxili nəzarət sisteminə uyğunluğunu nəzərdən keçirməkdir.

Audit yoxlamasına həmçinin rəhbərlik tərəfindən tətbiq edilmiş mühasibat uçotu siyasətlərinin və aparılmış mühasibat hesablamalarının müvafiqliyinin, eləcə də ümumi maliyyə hesabatlarının təqdimatının qiymətləndirilməsi daxildir.

Məncə, apardığım audit nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışam.

RƏY

Mənim rəyimə görə, bu icmal maliyyə hesabatları 2024-cü il dekabrın 31-nə "SALYAN-TAXIL" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN (VÖEN:7000208881) maliyyə vəziyyətini, həmin tarixdə bitən il üzrə fəaliyyət nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli hallarda düzgün və Maliyyə Hesabatlarının Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun əks etdirir.

**SƏRBƏST AUDİTOR- Şərifov Ərşad Vüsal oğlu**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 137 (30831) 8 iyul 2025-ci il, çərşənbə axşamı

## İDMAN

### Bakı və Daşkəndin birgə futbol təşəbbüsü




**Azərbaycan və Özbəkistan 2027-ci ildə 20 yaşadək futbolçular arasında Dünya çempionatının keçirilməsi üçün birgə namizədliklərini irəli sürüblər. Bu barədə AFFA-nın mətbuat xidməti məlumat yayıb.**

Məlumatda deyilir ki, futbol sahəsində həyata keçirilən fəal islahatlar, yaradılan infrastruktur və türkdilli ölkələrin artan beynəlxalq nüfuzunu nəzərə alaraq, Azərbaycan və Özbəkistan futbol federasiyaları səylərini birləşdirərək turnirin keçirilməsi üçün birgə namizədliklərini irəli sürüblər və bu mötəbər yarışı yüksək səviyyədə təşkil etməyə tam hazır olduqlarını ifadə ediblər.

Bu gün Azərbaycan və Özbəkistan belə nüfuzlu yarışa evsahibliyi etməyə tam hazırdır. Ölkəmiz son illər bir sıra böyük turnirlərin təşkilində əhəmiyyətli təcrübə qazanıb. Bura AVRO-2020-nin bəzi oyunları, UEFA Avropa Liqasının final matçı, 17 yaşlılar arasında Avropa çempionatı, 17 yaşadək qızlar arasında dünya çempionatı daxildir. FİFA və UEFA rəsmiləri Bakıda keçirilən mötəbər turnirləri yüksək qiymətləndiriblər.

### "Qarabağ"ın yoxlama oyunu



**Avstriyada təlim-məşq toplanışında olan "Qarabağ" komandası dünən burada yoxlama oyununu keçirib. Qurban Qurbanovun baş məşqçisi olduğu kollektiv Ukrayna təmsilçisi "Metallist" (Xarkov) ilə üz-üzə gəlib. Qəzetimiz çapa verilərkən oyun davam edirdi.**

Xatırladaq ki, Azərbaycan çempionu Bakıdakı ilk yoxlama matçında "Zirə"ni 4 cavabsız qolla üstələyib. "Qarabağ" UEFA Çempionlar Liqasının II təsnifat mərhələsində "Şelburn" (İrlandiya) – "Linfild" (Şimali İrlandiya) cütünün qalibi ilə qarşılaşacaq. Bu raundun ilk görüşü iyulun 22-23-də, cavab qarşılaşması 29-30-da keçiriləcək.

### Güləşçilərimiz İtaliyada 1 gümüş, 2 bürünc qazanıblar




**Azərbaycan güləşçiləri İtaliyanın Kaorle şəhərində keçirilən U-20 Avropa çempionatının son günündə 1 gümüş, 2 bürünc medal qazanıblar. Omar Gülməmmədov (74 kq) ukraynalı Boqdan Oliynikə sonuncu xal prinsipinə əsasən (7:7) qalib gələrək üçüncü yeri tutub.**

Anar Cəfərli (92 kq) gürcüstanlı Sandro Kuraşvilini 7:4 hesabıyla üstələyərək fəxri kürsünün üçüncü pilləsinə yüksəlib.

Bəşir Verdiyev (61 kq) bürünc medal görüşündə gürcüstanlı Saba Qambaşidzeyə sonuncu xal prinsipinə əsasən (9:9), Məhəmməd Abbaszadə (86 kq) isə ermənistanlı Razmik Yepremyana 0:3 hesabıyla məğlub olaraq 5-ci yerlə kifayətləniblər.

Çempionatın son qarşılaşmasında Yusif Dursunov (125 kq) finalda rusiyalı İnal Qaqloyevə 0:11 hesabıyla uduzub və 2 il əvvəl olduğu kimi, bu dəfə də gümüş medalla kifayətlənməli olub.

*M.HACIXANLI*
*XQ*

## Təbiət imdada çağırır bizi

# Bir cüyür qəlbimi yandırıb yaxdı...

**Şəhər məni yoranda dağlara yön çevirirəm, dağlara qalxıram. Deyirəm nə yaxşı, Tanrım dağları da, çayları da dünya kimi insanlara verib. Dağ yolları ilə qalxanda günlü yağış yağırdı – narın-narın. Xoş bir seyrə çıxmışdım. Bələn-bələn aşıb damarını qırırdım yoxuşlu yolların.**



Dağların o üzündən axıb gəlir dağ çayı. Çayın axarı boyunca gəzib düşüncələrə dalıram. Sanki dünyanın çayları canımın içindən axır. Ötən xatirələrim cilvəli sularda çağlayır. Elə bilirəm, dünən çay qırağında gördüyüm ceyran da, cüyür də bu gecə yuxuma gələcək...

Adətən körpə ceyranlar düzənlik yerləri özlərinə məskən seçirlər. Qoruqda ceyranları görəndə elə sanırdım ki, çəmənliyə gözəllik daş-qaşı yağıb. O yerlər mənim də könlümün əzəl məskəni idi. Öz sərvinaz baxışları ilə bir duyğu, bir ruh kimi könüllərə axır, gözəlliyi adamı yandırıb yaxır. Düzlərdə Günəşin şəfəqləri altında ceyranlar daha cazibəli görünür. Cüyürlər də elə bil, görkə dayanıb.

Bir sürü bala ceyran sevincdən şahə qalxır, qaçır, atılıb düşürdü. Günəş nur çiləyirdi ceyranların izinə. Ceyranlar düzə gələndə nur topası kimi görünürdü gözümə. Bu, mənim uşaq qəlbimə işıq salırdı. Başsız biçənəklərdə gül-çiçəyin rayihəsi, ceyranların qaçışı insanı valeh edir. Yüyənsiz, çilovsuz baş alıb gedir.

Yaxınlaşan təhlükəni ceyranlar düzəngahda daha aydın görür və bircə anda qızılquş kimi ovçunun gözündən yayınır. Dərələri, dağları aşıb gözdən itir. "Yay kimi dartınıb, ox kimi süzür".

Cüyür anasının arxasınca kəklik kimi səkib dağdan aşdı. Gözdən itən o cüyür qəlbimi yandırıb yaxdı.

...Günlərin bir günü, çay aşağı, çay yuxarı gəzib dolaşırdım. Gözlərim gözəlliyə keşik çəkirdi. Baharı gözləyən tək ağac kimi çay qırağında ceyranların yolunu gözləyirdim. Bilirdim ki, ceyranlar-cüyürlər enib suya gələcək. Çay qırağında ceyranların ayağı dəyən xınalı daşları inci kimi papağıma yığıb evə gedirdim. Bu zaman düzdə bir cüyür qulun kimi kişnədi. Dağlar-daşlar səsə gəldi. Bir anlıq qəlbimdə sarsıntı əmələ gəldi. Səs gələn səmtə sarı boylandım. Narahatlıq düyğusu məni tərk etmirdi. Gözlərimdə aləm baş-başa dəydi. Çayda daş-daşa dəydi...

Yırtıcı, çalağan qızılquş bir göz qırpımında cüyürü caynağına alıb, çalıb göyə qaldırıb aparırdı. Yaylaqda səs-səsə qarışmışdı. İtlər hürüşür, dəyələrdən bayıra çıxan qonşular, çöldə çobanlar haray saldı. Atam qoşalülə tüfəngini gözü üstə qaldırıb, cüyürü aparan qızılquşun səmtinə iki güllə atdı. Atamın atdığı güllə heç vaxt boşa çıxmazdı. Ötən hərbdə odun-alovun içindən çıxmışdı.

Qızılquş cüyürlə birlikdə yerə düşdü. Atam onu elə sərrast vurmuşdu ki, qanadları qan içindəydi. İncəfara, cüyürün heç burnu da qanamamışdı. Amma yüksəklikdən düşüb zərbə ilə yerə dəydiyinə görə, bir anlıq huşunu itirmişdi. Əlbəttə, daşlı-qayalı yerə düşsəydi, cüyürün tikəsi də ələ gəlməzdi. Xoşbəxtlikdən ot tayasının üstünə, ordan da sürüşüb yerə dəymişdi.

–Atam aşağı əyilib cüyürün başını dizlərinin üstünə aldı, nəvazişlə əlini cüyürün bədənində gəzdirdi. Nəvazişlə ipək kimi tüklərini sığallamağa başladı. Nəfəsini cüyürün nəfəsinə qatdı, cüyürü oyatdı.

– Allaha şükür, güllə cüyürə dəymədi, sağ qaldı, -dedi. İndi anası harda olsa, balasının iyinə gələcək.

Hamı cüyürün başına yığışmışdı. Gün günortanın yerinə qalxmışdı. Cüyür başını qaldırıb boylandı. Yaylaq adamlarından hürkdüyündən, ya nədənsə ala gözlərini zilləyib mənə baxırdı. Onun baxışlarından ürəklənib yanına gəldim.

Ayaqları qönçələrdən də zərif idi. Tükləri dünyanın tülündən, ipəyindən, al–qumaşından yumşaq idi. Hürkək baxışı çiçəklərin, mələklərin baxışına bənzəyirdi. Ürəyimdə gözəl baxışları gül açırdı. Xumar gözlü cüyür qərib bir qonaq kimi, adi bir toxunuşdan hürküb qəlbimi dara çəkirdi. Onu bağrıma basıb dil töküb öz dilində danışırdım. Allahın bir bala heyvanına görə, həyata, insanlığa, dünyaya, yerə-göyə məhəbbətim artırdı.

Anam dedi:

– O da körpədir, sən də... Bir-birinizə isinişərsiniz.

Anamın sözlərində həqiqət vardı... Adamlar cüyürlə məni baş-başa buraxdı. Ətrafdan səs, nəfəs, insan hənirtisi tamam uzaqlaşandan sonra ana cüyür yaxınlıqda göründü. Anam dəyəmizin qarşısından onu görüb məni səslədi:

– Gəl, bala, gəl. Qoy ana balasına qovuşsun.

Mən könülsüz-könülsüz dəyəmizə tərəf gedəndə dönüb arxaya baxdım. Balasına qovuşmaq üçün, kim bilir, bəlkə də dərələrdən sel kimi, təpələrdən yel kimi gəlmişdi. Ana cüyür tər içindəydi. Ana balasını duz kimi yalayırdı...

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# "Molla Nəsrəddin" ocağı Bəxtiyar Vahabzadənin muzeyində



**Dünən Şəkidə görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin ev- muzeyində "Molla nəsrəddinçilər Bəxtiyar Vahabzadənin qonağıdır" adlı toplantı keçirilib.**

Muzeyin direktoru Elşən Zəkəribəyli mərasimi açaraq Bakıdakı Cəlil Məmmədquluzadə ev-muzeyinin kollektivi ilə birgə təşkil edilən bu tədbirin əhəmiyyətini xüsusi vurğulayıb. Bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə bu il böyük şairin 100 illik yubileyi keçirilir və bu tədbir məhz bu əlamətdar hadisə ilə bağlı təşkil olunub.

Cəlil Məmmədquluzadə ev-muzeyinin direktoru Yeganə Məmmədova çıxışında uzun illər rəhbərlik etdiyi muzeyin əməkdaşlarının çağdaş Azərbaycan poeziyasının inkişafında danılmaz xidmətləri olan, "sevilən filosof şair"in doğulub boya-başa çatdığı Şəki şəhərinə həvəslə təşrif buyurduqlarını xüsusi qeyd edib və yüksək qonaqpərvərliyə görə ev sahiblərinə dərin təşəkkürünü bildirib.

Şəki şəhərindəki bir çox tam məktəblərin yuxarı sinif şagirdləri və pedaqoqlarının da iştirak etdiyi toplantıda filologiya elmləri doktoru Kamil Adışirinov "Müasir Azərbaycan ədəbiyyatında Bəxtiyar Vahabzadənin yeri və rolu" mövzusunda geniş məruzə ilə çıxış edib. Digər natiqlər xalqımızın şairin şəxsiyyətinə və parlaq poeziyasına xüsusi rəğbəti olduğunu vurğulayıblar.

Sonda Cəlil Məmmədquluzadə ev-muzeyinin əməkdaşı Yeganə Məhərrəmova Bəxtiyar Vahabzadənin məşhur "Gəlir" şeirini oxuyub.

Yeri gəlmişkən, şeirin son iki misrası belədir:

**Əgər sevirsənsə, ayaq səsimdən**
**Gərək biləsən ki, Bəxtiyar gəlir!**

*XQ*

## Hava

# Yağmursuz və dəyişkən buludlu yay günü

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin 7-dən 8-nə keçən gecə yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24, gündüz 27-32 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət gecə 65-70, gündüz 45-50 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24, gündüz 30-35, dağlarda gecə 5-10, gündüz 18-23 dərəcə isti olacağı bildirilir.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi tanınmış jurnalist, Əməkdar mədəniyyət işçisi Rəfiqə Məsuda qızı BDU biofizika və biokimya kafedrasının əməkdaşı, biologiya üzrə fəlsəfə doktoru

**İRADƏ ƏLİYEVANIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva və kafedranın kollektivi iş yoldaşları Nərmin Feyzullayevaya nənəsi

**SEVİNC XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Şirvan Appelyasiya məhkəməsinin İnzibati Kollegiyasının sədri Samir Həsənova əmisi

**MAKSİM HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2949
SİFARİŞ 1410
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00